# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Yanvar 2022 (13)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Aydın Xan Əbilov, Kamal Camalov, Sona Abbasəliqızı, Qismət Tağıyev, Səma Muğanna, Nuranə Rafailqızı, Ülkər Nicatlı, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağamməd, Seymur Sönməz (Paşayev) , Əsgər Ordubadlı, Nərgiz Mirzəyeva (Azərbaycan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Günay Əliyeva (Norveç).

# BU SAYIMIZDA

Baş redaktordan...........................................................................3
Qurban Bayramov. Zaur Ustac-Qələmdar olmaq missiyası ......4
Akif Abbasov. Zaur Ustacın "Uşaq boğçası"............................11
Kamal Camalov. Zaur ustac uşaq ruhunun bilicisidir ...............13
Ayətxan Ziyad (İsgəndərov). Zaur Ustacın öyrətmə yöntəmi.16
Zaur Ustac. BB (hekayə).........................................................20
Qismət Tağıyev. Bədbəxt (povest)...........................................34
Seymur Sönməz (Paşayev). Gizli kod (hekayə) ......................66
Səma Muğanna. Böyük ürək (hekayə) ...................................72
Leyla Yaşar. İki hekayə ..........................................................75
Əsgər Ordubadlı. Poema (hekayə)...........................................80
Nuranə Rafailqızı. Şeirlər.........................................................84
Səma Muğanna. Şeirlər............................................................95
Fəridə Abdul. Şeirlər...............................................................98
Seymur Sönməz (Paşayev). Şeirlər.......................................106
Zaur Ustacın 33 illik hesabatı................................................109
2201-ci ilin "Ziyadar"ları.......................................................117

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə çox aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ** **saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93
"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



**Zaur USTAC**

## BAŞ REDAKTORDAN

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun, Böyük Allaha! Sizlərlə hər yeni görüş həyat-yaşam nişanəsi, inkişaf və tərəqqiyə doğru atılan daha bir addım sayılır bizim üçün. Jurnalımızın beşinci sayında xoş gördük sizləri! Saydan-saya təkmilləşməyə, müəyyən çatışmazlıqları aradan qaldırmağa çalışırıq. Bu məsələdə Siz də öz rəy və təkliflərinizi bildirməklə bizə yardımçı ola bilərsiniz. Sizin yardımınızla addım-addım məqsədimizə doğru irəliləyirik.

Bu sayda yenə ümumi amalımıza xidmət edən yazılarla görüşünüzə gəlmişik. Belə ki, bu dəfə Qurban Bayramovun, Akif Abbasovun, Kamal Camalovun, Ayətxan Ziyadın Zaur Ustac haqqında fikirləri ilə, Qismət Tağıyevin, Nuranə Rafailqızının, Səma Muğannanın, Əsgər Ordubadlının, Seymur Sönməzin , Zaur Ustacın , Leyla Yaşarın yaradıcılığı, Zaur Ustacın hesabatı, və sonda 2021-ci ildə "Ziyadar" Mükafatı almış laureatlarla tanış olacaqsınız. Xoş gördük sizləri! "Yazarlar"ın söz dünyasına xoş gəlmisiniz!





**Qurban BAYRAMOV**

## Zaur Ustac – qələmdar olmaq missiyası

***(Tənqidçinin xəfif eksklüziv münasibəti...)***

Tanıdığım istedadlı gənclər sırasında olduqca işgüzar, zəhmətkeş, obyektiv, prinsipial, hər cür manipuliyasiyadan uzaq, sözə-qələmə bağlılıq, həssaslıq, sözü-qələmi müqəddəs hesab edən və bu müqəddəsliyi hər məqamda qorumağa çalışan, içində klassik, modern maarifçilik ruhu daşıyan, bir sözlə, qələmdar olmaq missiyasını Heraklsayağı çiyinlərinə götürən, yaradıcılığın Sizif cəfasına qatlaşan gənclərdən biri də Zaur Ustacdır. Olduqca səmimi, təvazökar qələmdardır və bu yeni sözü, yeni anlayışı da ədəbiyyat cameəsinə gətirən odur.

Zaur Ustacın müasir ədəbiyyatımızda vicdanlı, tərəfsiz, liberal - azad, sərbəst ədəbi davranışı təqdirəlayiqdir və deyərdim ki, yenidir, müasir ədəbi gəncliyə örnəkdir. Zaur Ustac radikalizmdən uzaq, sözün səmimiyyətinə sığınan qələmdardır. Zaur Ustac gənc olmasına baxmayaraq (hər halda məndən çox gəncdir), o, özündə elə bir yaradıcılıq gücü tapıb və ədəbi sifera yaratmağa müvəffəq olub ki, artıq onun özgür ədəbi nüfuzu, özgür yaradıcı çəkisi haqqında çəkinmədən danışmaq olar. Mənim qənaətim belədir və bu qənaəti ictimailəşdirməmək günah olardı. İstedadı və istedadlı ədəbi gücü məqamında görmək və qiymələndirmək, fikrimcə,

mühüm əhəmiyyət kəsb edir. Bizim ədəbi tənqid üçün belə yanaşma prioritet olmalıdır.
Zaur Ustac maraqlı həyat yolu keçib, hərbçidir, istefada olan zabitdir. Onda hərbçi peşəsindən ədəbi yaradıcılığına sızan bir yaradıcılıq intizamı, ədəbiyyata yansıyan hərbçi "geosiyasi marağı" olduğunu sezirəm. Yaxşı bildiyini müdafiə etmək, onu ədəbi fikrə gətirmək, yeni nəsilə, gəncliyə əlahiddə vətənpərvərlik ruhu aşılamaq və bu işi maarifçilik səviyyəsinə yüksəltmək – onun ən ümdə "geosiyasi marağı" budur və bu da yenidir. Və bu, Zaur Ustacda istək, arzu deyil, deyərdim ki, onun şəxsi xarakterinə tamamilə yad, amma yaradıcılığına xas olan ədəbi ambisiyadır, ədəbi-bədii fəaliyyətinin nüvəsini təşkil edən amildir, ona məxsus ədəbi statusdur. Elə buna görə də onun yaradıcılığı çoxsahəli, çoxyönlü, çoxsəsli, polofondur...
Zaur Ustacın ədəbi fəaliyyəti çağdaşlıqla bərabər, ən çox gələcəyə, perspektivə yönəlikdir. Onun yaradıcılığı, həm də yaxşı olacaq dərəcədə sosialyönümlüdür. Zaurun fəaliyyəti səmərəli fəaliyyətdir, praktik iş görür, həyatın olaylarından çıxış edərək özünün yazılarında olaya çevrilir, olay içində olay yaradır. Yaddaşı çağdaşlığa daşıyır. Bir az obrazlı desək, qədimliyə bürünmüş yenilikdir, istər ədəbi mövzüda, istərə də ədəbi janrda... Onun yaradıcılığı impultiv deyildir, ardıcıllıq, mütəmadilik, məqsədyönlülük, prinsipiallıq üslubunu, yazı-mövzu yönümünü-yöndəmini şərtləndirən amillərdəndir. Ona görə də Zaur Ustacın yaradıcılığı bezdirici deyil, maraq doğurur, fəaliyyətə sövq edir, ədəbi zərurət olur...
Zaur Ustacın ədəbi fəaliyyətinin bir yönü də onun mövzu seçimidir. O, əksərən baxımsız qalmış, gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirir, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarır, yaddaşları dirildən kitaba çevirir. Bu da onun vətənsevərliyini fərqləndirən cəhətlərdəndir. Çünki o, sosial-ictimai maraqla mənəvi marağın kəsişmə bucağını müəyyən etməyi bacarır. O, ədəbi ştamplardan uzaqdır. Tarixi-

mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır. Total azərbaycançılıq tərəfdarıdır. Bütün bunları, - hələ bizim sosial durumumuzu əyən bazar iqtisadiyyatının ərkəsöyün diqtəsi dövründə etməyin çətinliyini demirəm, - əzabını, məşəqqətini göz önünə gətirin... Amma şükürlər ki, onda qara duyğular yoxdur, dan şəfəqinin duruluğu, lacivərdliyi var. Bir də ki, onun yazılarında hər şeyi öz adı ilə çağırmaq istəyi üstündür və bu, ədəbi yaradıcılıq üçün vacib şərtlərdəndir. Yazıçı məşşatə olmamalıdır.
Zaur Ustacın qələmi kənarda yox, özəkdə, nüvədə gəzişmələr edir. O, həmişə çalışır ki, standart və ehkamlar yaradıcılığına yansımasın. Diqqətimi çəkən müsbət bir cəhət də odur ki, Zaur Ustac azərbaycançılıqla türkçülüyün sinergizmindən çıxış edir, yəni söhbət sosial-fəlsəfi mənada özünütəşkildən gedir. Burada eyniyyət yox, biri-digərinin qüvvətləndiricisi olmaq şərtdir. Yəni, türkçülük və azərbaycançılıq biri-digərinin tərkibidir, amma biri o biri deyil, hər ikisi müstəqildir. Bunların dərkində paralellik və ya qəti oxşarlıq axtarmaq sosiallaşmada ziyanlıdır, bu metodda qeyri-xəttilik üstündür (Lütfi Zadə metodu). Zaur Ustac ədəbi-metodoloji cəhətdən sinergetik yanaşma paradiqmanın metodoloji plüralizminə daha çox meyillidir. Əlbəttə, bu, onda hələ rüşeym halındadır, amma inanırıq ki, təməldə olan dinamikadadır, inkişafdadır. Belə ki, ədəbi yaradıcılıq mexanizmlərin ardıcıl fəaliyyətini nəzərdə tutan bu metod, insan varlığının hərtərəfli inkişafı, şəxsiyyətin özünüifadə və özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Zaur Ustacda türkçülüyü və azərbaycançılığı təkcə qanla, soyla bağlamır, həm də şüurla bağlayır. Bu, əslində, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə və Əhməd bəy Ağaoğlunun konsepsiyasıdır. Biz qanla, soyla türkük, amma şüurla, düşüncəcə, təfəkkürcə Azərbaycanlıyıq! Bu, populizm deyil, həqiqətdir!

Zaur Ustacın qələm yoldaşları yazılarında orijinallığı qeyri-ənənəvi yollarda axtarırlar, amma onun məni qane edən cəhətlərindən biri də ənənvi yolda qeyri-adiliyi tapmaq və müxtəlif ədəbi ölçülərdə (deyək ki, janrlarda) şərh etmək bacarığıdır. Xalq həyatının müxtəlif məqamlarında, ən ağır anlarında, millətin şərəf və ləyaqəti naminə ayağa qalxmış, onun oğulları vətən yolunda qorxmadan dirigözlü ölümə gedən, “şər yuvalarına”, az qala əliyalın hücum çəkən oğulları – kişiləri, ərənləri, igidləri barəsində (məsələn, mərdliyin, igidliyin, qəhrəmanlığın oriyentir ulduzu olan Mübariz İbrahimov haqqında) bədii-publisist yazıları da belə xoş məramın nəticəsində ortaya gəlir, “yazıya pozu yoxdur” yaddaşına çevrilir, yaddaş kitabı olur: “Oriyentir ulduzu” (povest), “Gülünün şeirləri”, “Otuz ildir əldə qələm”, “Əliş və Anna” (poema), “Sevin ki, seviləsiz”, “Qəlbimin açıqcası”, “Çəhrayı kitab” və s. kimi iyirmidən çox kitabı kimi... Doğrudan da bu kitabları bir yerə cəm etsək, elə adını “Qəlbin açıqcası” qoyardım, çünki bu əsərlərin, demək olar ki, hamısı Zaur Ustacın oxucuya ünvanladığı ədəbi-bədii açıqcalardır, özü də səmimiyyətlə yoğrulmuş, ürəkdən, qəlbdən süzülüb gələn gizlinlər yox, məhz açıqcalar. Bir bayatısında dediyi kim, onun “can evindən qopub düşən” namələrdir. Bundan əlavə, o, ümumtəhsil məktəbləri üçün metodik vəsaitlərin, dərsliklərin, proqramların da maarifçi müəllifidir.
Bu məqamda, onun milliliyə, vətənsevərliyə, yurdabağlılığa söykənən bilgisi, axtarış və tapmaq şövqü məmnunluq doğurur. Bu, əslində, müasir Azərbaycan zehniyyətinin bənzərsiz xüsusiyyətindən irəli gəlir – unutqanlıq sindiromundan qurtuluş yolunu tapmaq və bunu şahrah yola çevirmək cəhdi. Bunu mənəvi ehtiyacları ödəyən, əsrarəngiz Azərbaycan ruhunu bərpa edərək epik bir prinsipə çevirmək cəhdi kimi də qəbul etmək olar. Əslində, indi bu prinsipi yaratmağa əşəddi ehtiyac var! Mənə elə gəlir ki, Zaur Ustac müstəqillik dövrü ədəbiyyatımızın, xüsusən, tarixi mövzularda

qələmə alınan nəsr nümunələrinin yaratdığı ovqatdan güc alır, “Əliş və Anna” poemasında olduğu kimi, özünün istehlak enerjisinə çevirir, bu günün praqmatizmindən çıxış edir, yuxarıda qeyd etdiyim kimi, qədimliyə bürünmüş yenilik yaradır.
Gerçəyi dərk etməyin üsulu təkcə ağılla deyil, gərək ürəklə – hiss və duyğuylarla da dərk edəsən. Bu cəhət, hələlik embirional səviyyədə onun bədii təfəkkürünün dominantına çevrilməyə başlayıb və inanıram ki, tam dominantlıq alınacaq. Zaur Ustacın bir xoş prinsipi də var, ətrafına, mühitinə əlindən gələn yaxşılığı et! Bu deviz onundur: ”Yaxşılıq əlindən gəlmir, heç olmasa pislik eləmə!” O, həyatının bu çağına qədər hər cür formatda təzahür edən, min bir cildə girən pisliyə qarşı Ustac qələmini sipər edərək Qələmdar olmağı bacarıb, qələmin yükünü, sözün müqəddəsliyini dərk etdiyindəndir ki, “Söz müqəddəsdir” şeirində yazır:

***Gəldin bu aləmə, ərkanı gözlə,***
***Yaxşı bax ətrafa, dövranı izlə,***
***Ustac əmanəti, aram ol sözlə,***
***Qələmlə elə yaz, qoy izi düşsün.***

Zaur Ustacın (Mustafayev Zaur Mustafa oğlunun) 45 yaşı var, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində təhsil alıb. Birinci Qarabağ müharibəsinin iştirakçısı və hazırda ehtiyatda olan zabitdir. 1988-ci ildən yaradıcılığa başlayıb, 32 ildir ki, ədəbi cameənin əli qələmli nümayəndəsidir. Ləqəbi “Ustac”dır; AJB-nin üzvü, “Qızıl Qələm” mükafatı laueratı, “Yazarlar” jurnalının təsisçisi və baş redaktoru, “Ustac.az” fərdi inkişaf və yaradıcılıq mərkəzi”nin təsisçisi, naşir, müasir dövrün maarifçi-demokratıdır. İntellektualdır, kreativ təfəkkürlü, qüvvətli və sağlam məntiq sahibidir. Mən onu təmiz qəlbli, doğru sözlü,

mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar bir gənc yazıçı-publisist, şair, nasir, tərcüməçi, naşir, ən ümdəsi, ziyalı kimi görür və belə də qiymətləndirirəm... Və bir yazıçı olaraq Zaur Ustacın gələcək çəki-düzənini bu sadaladıqlarımda, konkret mövqeində, QƏLƏMDARLIĞINDA görürəm. Eyni zamanda, toz qonmayan Qələmdar qürurunda, təmkinində görürəm! Çünki bilirəm ki, təmkin və qürur mənəviyyatı hər zaman bütün fəsadlardan, yanlışlıqlardan qoruyar... ALLAH QORUSUN!

**MƏQALƏ KİTABLARDA ÖN SÖZ KİMİ:**

Zaur Ustac "Qədimliyə bürünmüş yenilik" (şeirlər).

Qələndər Xaçınçaylı "Taclı şair" (Zaur Ustac haqqında).

**MƏQALƏNİN YAYIMLANDIĞI MƏTBU ORQANLAR:**

***ƏNƏNƏVİ QAYDADA:***

"TƏZADLAR" qəzeti N : 12 (2253) 5 may 2020-ci il. səh. 14.

"HƏFTƏ İÇİ" qəzeti N : 42 (3280) 5-6 may 2020-ci il. səh. 8.

"ƏDALƏT" qəzeti N : 69 (5729) 16 may 2020-ci il. səh. 11 və 14.

"KREDO" qəzeti N : 35 (1015) 01 oktyabr 2020-ci il. səh. 10.

"ƏDƏBİYYAT QƏZETİ" N : 46 (5274) 17 oktyabr 2020-ci il. səh. 29.

***ELEKTRON QAYDADA:***

moderator.az

ilkxeber.org

mustaqil.az

525.az

goyce.az

yazyarat.com

yenises.az

tezadlar.az

pravdainfo.org

kultur.az

hafta.az



**Akif ABBASOV**

## Zaur Ustacın "Uşaq boğçası"

Biz Zaur Ustacı bir nasir, bir şair, bir vətənpərvər şəxs kimi tanıyırıq. Əsərlərində yüksək mənəvi keyfiyyətlərin təbliğatçısı kimi çıxış edir, uşaqları, təhsilalanları, gəncləri əxlaqi saflaşma və kamilliyə səsləyir. Yaxşı haldır ki, Zaur Ustac eyni zamanda təhsilimizin inkişaf etdirilməsi, şagirdlərin, məktəbəqədəryaşlıların tərbiyə olunması istiqamətində də fəaliyyət göstərir. Uşaqlar üçün şeirlər yazır, onlara vətənpərvər, doğrucul, sadə, xeyirxah, nümunəvi davranış və rəftarlı olmağı məsləhət görür.

Zaur Ustac balacalarda, məktəblilərdə yoldaşlıq və dostluq, böyüyə hörmət, humanistlik, biliklərə yiyələnmək və s. bu kimi müsbət keyfiyyətlərinin inkişaf etdirilməsini vacib hesab edir.

Kitab "Ön söz əvəzi" ilə başlanır. Burada "Uşaq boğçası"nın meydana gəlməsini şərtləndirən cəhətlər, dərs vəsaitinin müsbət məziyyətləri diqqət mərkəzinə gətirilir.

“Uşaq boğçası” iki bölməni özündə birləşdirir: “Mənim dünyam” və “Mən kiməm?”. “Mənim dünyam” bölməsinə Zaur Ustacın “Otaq”, “Əşyalar”, “İkinci evim”, “Küçədə”, “Məktəb”, “Ev”, “Mənzil”, “Ailə”, “Dostlarım”, “Anamın dostları”, “Günəş ipək”: “Mən kiməm?” bölməsinə isə “Tomris ana”, “Mən Babəkəm”, “Şah İsmayıl”, “Nadir şah”, “Məhəmməd Əmin Rəsulzadə”, “Heydər Əliyev”, “Azərbaycan”, “İlham Heydər oğlu”, “Zəfər döyüşü”, “Qarabağ Azərbaycandır”, “Mehriban xanım” şeirləri daxil edilib.

44 günlük Vətən müharibəmizin ilhamvericisi, düşmən üzərində qələbəmizin təşkilatçısı, Ali Baş Komandan İlham Əliyevə həsr edilmiş şeir əzəmətlə səslənir.

Tutdu ata yolunu,
Babalardan güc aldı.
Əzdi yağının başın,
Düşmənlərdən bac aldı.

***

Silkələdi yumruğun,
Xainlərdən öc aldı!
Azad oldu Qarabağ,
Ululardan tac aldı!

Zaur Ustacın məktəbyaşlı uşaqlar üçün hazırladığı “Uşaq boğçası” adlı vəsaitin təhsilləndirici və tərbiyələndirici imkanlarını genişdir.



**Kamal CAMALOV**

## ZAUR USTAC UŞAQ RUHUNUN BİLİCİSİDİR

Uşaqlar üçün şeir yazmaqdan ötrü gərək uşaq ruhunun bilicisi olasan. Şair, nasir Zaur Ustac da bax belə şairlərdəndir. Zaur Ustac bu dəfə də qəlbi təmiz, büllur təbiətli balaların görüşünə "Uşaq boğçası" adlı şeirlər kitabı ilə gəlmişdir.

"Ön söz əvəzi" ilə başlanan "Uşaq boğçası" şeirlər kitabı iki bölmədən ibarətdir. Gözəl şairimiz Zaur Ustac sələfləri sayılan Məhəmməd Füzulinin, Qasım Bəy Zakirin, Abbasqulu Ağa Bakıxanovun, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Firidun Bəy Köçərlinin, Rəşid Bəy Əfəndiyevin, Abbas Səhhətin, Süleyman Sani Axundovun, Abdulla Şaiqin, Mir Cəlal Paşayevin, Mikayıl Rzaquluzadənin, Mirmehdi Seyidzadənin, Mirvarid Dilbazinin və b. yolunu rəhbər tutaraq "Otaq", "Əşyalar", "İkinci evim", "Küçədə", "Məktəb", "Ev", "Mənzil", "Ailə", "Dostlarım", "Anamın dostları", "Günəş ipək" və s. kimi şeirləri ilə körpə balalara balaca yaşlarından yüksək əxlaqi keyfiyyətləri, vətənpərvərliyi, sədaqəti, dostluğu, doğruluğu, dürüstlüyü, əməksevərliyi, insanpərvərliyi və humanizmi uşaq dili ilə aşılayır və tərbiyə edir. Adlarını çəkdiyimiz şeirlər uşaq tərbiyəsinə xidmət edən bir şeirlərdir. Şeirlərdə uşaqlar nəyin yaxşı, nəyin pis olması haqqında təsəvvürlərə yiyələnirlər. Bu kimi şeirlər vasitəsilə uşaqlar

tənbəlliyin, yalançılığın, pintiliyin pis olmasını, çalışqanlığın, doğruçul və təmizkar olmağın, böyüklərə və yoldaşlara hörmət etməyin, lovğalanmamağın yaxşı olmasını öyrənirlər.

Uşaq şeirlərində həyatın bütün sahələri əks olunmalıdır. Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Yerin altını da, üstünü də bilən müasir uşaq həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaq maraqlarını səngitmək, onu lazımi məcraya yönləndirmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Uşaqların maraq dolu suallarına cavabı Zaur Ustacın "Uşaq boğçası" vəsaitində tapmaq mümkündür.

"Mən kiməm!?" adlanan ikinci bölmədə Zaur Ustac tarixi şəxsiyyətlərin, o cümlədən Tomris ananın, Babəkin, Şah İsmayıl Xətainin, Nadir şahın, Məhəmməd Əmin Rəsulzadənin, Heydər Əliyevin keçdiyi zəfər yollarını uşaqlara aşılayır. Zaur Ustac bu kimi şeirləri ilə uşaqların, xüsusən də erkən yaşlı uşaqların əqli və əxlaqi, fiziki tərbiyəsinin vacib şərtlərini nəzərə almağı diqqətdən yayındırmamışdır.

Zaur Ustacın yaradıcılığındakı uşaq şeirlərinin əhəmiyyəti təkcə uşaqların təlim-tərbiyəsi işinə kömək etməsi ilə məhdudlaşmamışdır. Yazılmış uşaq şeirləri həm də uşaq psixologiyasına, uşaq marağına müvafiq yazılmış müvəffəqiyyətli uşaq əsərləri kimi, bir numunə rolunu oynayır.

Biz bir daha yazıçı və şair dostumuz Zaur Ustacı son dərəcə çox həssas olan uşaqlar üçün daha çox əsərlər yazmağa çağırır, ona bu yolda uğurlar arzulayır və böyük rus pedaqoqu V.Q.Belinskinin fikri ilə bitiririk: "Yazın, uşaqlar üçün yazın, ancaq elə yazın ki, onu yaşlılar da eyni zövq ilə oxuya bilsin və

oxuyarkən xəfif bir xəyal içində öz gözəl uşaqlıq illərini yad etsinlər”.

Zaur Ustacın məktəbyaşlı uşaqlar üçün hazırladığı “Uşaq boğçası” adlı vəsaitindəki əxlaqi-mənəvi dəyərlər, didaktik görüşlər faydalı olub, təlim-tərbiyə kontekstində əhəmiyyət kəsb edir.



**Ayətxan ZİYAD (İSGƏNDƏROV)**

## Zaur Ustacın öyrətmə yöntəmi

Zaur Ustac müasir uşaq ədəbiyyatının yaradıcılarından biridir. Gənc valideynlərə, müxtəlif təyinatlı uşaq müəssisələrinin tərbiyəçilərinə, ibtidai sinif müəllimlərinə və ümumiyyətlə, uşaq şeiri ilə maraqlanan, ömründə heç olmasa bircə dəfə də olsa övladı üçün şeir nümunəsi axtarmış hər kəsə bu imza yaxşı tanışdır. Onu ədəbi cameədə tanıtım ünvanlı edən isə əsasən "Gülüzənin şeirləri" ("Gülünün şeirləri", "Güllünün şeirləri") kitabı olmuşdur. "Uşaq boğçası" müəllifin kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş ikinci kitabıdır.

Toplunu əlinə götürən hər kəsə müraciətlə başlayan "Uşaq boxçası" "Mənim dünyam" və "Mən kiməm?" adlı iki bölümdən ibarətdir.

**"Mənim dünyam"**

Bu bölümdə şair balacaları gözlərinə ilk görünən əşya və digər nəsnələrlə tanış edir. Bu kitabında da ("Gülüzənin şeirləri" kitabında olduğu kimi) Zaur Ustacın maarifləndirmə metodunun fərqliliyi, üstün cəhəti özünü aydın göstərir. Bu halı

xüsusi qeyd etməliyəm ki, Z.Ustac balacaları asan yadda qalan və tez mənimsənilən anlayışlarla öyrətməyə səy göstərir. Azyaşlı oxucu bu bölmədə sadədən mürəkkəbə - gözünün önündən küçəyə, məktəbə qədər hər nə varsa, asanlıqla öyrənib-qavrayır.

"Mənim dünyam"da dünyanı, eləcə də dünyadakı yerini qismən dərk edən azyaşlı "**Mən kiməm?"** bölümündə bu dünyada kim olduğunu öyrənmək imkanındadır.

Azərbaycanımızın tarixi keçmişinə bir növ "səyahət" təriqli olan "**Mən kiməm?"** bölümündə müəllif azyaşlını vətəni Azərbaycanla, Tomris ana, Babək Xürrəmi, Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Məhəmməd Əmin Rəsulzadə, Ümummilli lider Heydər Əliyev, Azərbaycan prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva kimi görkəmli şəxsiyyətlər ilə tanış etmiş və qarşısına qoyduğu vəzifənin öhdəsindən ustalıqla gəlmişdir.

Z.Ustac özünün maarifçilik ənənəsinə sadiq qalaraq cavabı öyrənənlərə hazır şəkildə təqdim etmir, uşağın "Mən kiməm?" sualına cavab tapması üçün onu yalnız ipucuları ilə tanış edir. Bu "ipucuları"nın cavabı isə hələ anlaqsız yaşlarımızda əl uzatdığımız məşğuliyyətlərdən, tez-tez dəyişdiyimiz oyunlardan, yaxud oyun tərzlərindən hər birimizə "tanış"dır. O yaş dövrümüzdə nəyi nə üçün etdiyimizi düşünməmişik, amma, sadəcə, etmişik. Dərk etmədən, kimliyimizi axtardığımızı

bilmədən özümüzü axtarmışıq oynadığımız oyunların hər birinin içində.

***

Mən kiməm? Bu sualı adətən iri yaş mənsubları özünə ünvanlayır. Yaradıcılığında həmişə özünəməxsusluğu ilə diqqət çəkən Z.Ustac isə bu yeni kitabında istədiklərini azyaşlıya (elə iri yaş mənsublarına da) bu sualı cavablandırmaqla çatdırmaq istəyində olub.

***

...Kim olduğumuza soraqçı düşüb ömür boyu kimliyimizi axtarırıq. Özümüzdən sonra qoyacağımız İZİN KİMLİYİNƏ, özümüzdən sonra bizdən qalacaq ADA SORAQÇI.

Ancaq tapa biləcəyikmi?

Çətin. Çünki arzu – sən ona çatana qədər əlyetməzlik zirvəsində olur. Əlin yetdimi dəyərindən düşür, adidən-adi olur, axı, o artıq sənindir.

Sonra yenidən yeni bir "kimliyinin" sorağına düşürsən, daha sonra bir özgə yenisinin...

Beləcə, ömrün müdrik yaşlarında bir də baxırsan ki, illərlə dayanıb durduğun, bir yol "dur!" deyib toxdaqlıq tapıb dayandığın olmayıbsa da, hələ də kimliyinə soraqçısan.

Haqlı axtarışdı? Həyatın, kamil insan ömrünün həzzi də elə bundadır: daim özünə soraqçı düşüb özünü axtarmağında.

***

...Bizdən sonra bizdən nə qalır Yer üzündə?
Əgər nə vaxtsa bir anlıq toxdaqlıq tapıb bu sualı cavablandırmaq cəhdinə dözümümüz çatsaydı, o zaman bizlərə aydın olardı ki, sən demə, elə kimliyimizi axtara-axtara xəbərimiz olmadan kimliyimizi özümüz üçün "kəşf" edibmişik. Sən demə sorağında olduğumuz kimliyimiz, hər birimizin hansı zaman civarında isə dayanacaq nöqtəsi olmuş arzularımızın yetdiyi məqam imiş. Biz sadəcə onları "görməmişik", yaxud "görmək istəməmişik".

Həyat, yaşamaq belədə daha şirin, həzzverici olur. Axı insanı yaşadan məhz arzulardır. Əbəs deyilmir ki, "sonuncu ölən ümidlərdir".

***

Kitabı səhifələyin, Zaur Ustacın demək istədikləri, təlqin etmək arzusunda olduqları məqam-məqam gözlərimiz önündə.

***

...Sən kimsən?
Özünü tanı, kimliyini öyrən, bil, ruhuna hopdur.
Toplu bunabəznər sorğuların cavablandırılmasında azyaşlılar üçün mənbə olmaq imkanındadır.



**Zaur USTAC**

**"Kulis.az"ın "İlin hekayəsi" müsabiqəsində (archive.vn) ən çox oxunan hekayə.**

## BB

*(Zaur Ustacın "Cadulanmış ev" kitabına daxil edilmiş hekayə)*

20.12.2021-ci il, Bakı vaxtı ilə səhər saat 9:00, mən artıq işdəyəm. Düzü, telefondakı vaxt barədə nəticə məni qane etmədiyinə görə tələsik dəhlizə çıxıb divardakı saata da baxası oldum. Heç məndən çıxmaz iş, bəlkə də ömrümdə birinci dəfə işə vaxtında gəlmişəm. "Tez oyananla tez evlənən uduzmaz" məsəlini beynimdə çək-çevir edə-edə iş masamın arxasına əyləşdim. Günün mətbu nəşrlərini vərəqləyirdim ki, telefonlardan biri zəng çaldı. Ofisdə orta yaşlı xadimə xanımla məndən başqa heç kim yox idi. Dəstəyi xanım götürdü:

**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**

– Bəli. Buyurun. Bəli. Yaxşı, – telefona cavab verdikdən sonra, – Əli müəllim, zəhmət omasa 14 – ü qaldırın.

– Məni soruşurlar? – Bir az da heyrətlə soruşdum. Düzü məəttəl qalmışdım. Səhərin gözü açılmamış kim idi ,görəsən? Nə istəyirdi? "Adbaad elə məni soruşdular ay xanım?" – deyə bir də xanımdan soruşdum.

***"KULİS.AZ"DA "İLİN HEKAYƏSİ" MÜSABİQƏSİ (2021)***

– Xeyr. Soruşdular işçilərdən orada kim var?

– Oldu, – deyib dəstəyi götürməkdən başqa çarəm qalmadı, – Bəli. Buyurun. “Karvansara” dərgisinin baş redaktorunun dördüncü müavininin baş köməkçisinin birinci köməkçisi Əli Mülayim. Eşidirəm sizi, – Xəttin o başından incə, ancaq amiranə xanım səsi eşidildi:

– Olar, sizə elə kəsədən Əli müəllim deyim?

– Bəli. Olar. Buyurun. Eşidirəm sizi.

– Sizi “BB”-dən İlahə xanım narahat edir.

– Buyurun, İlahə xanım, – Məşhur “BB”-şirkətinin adını eşidən kimi gözlərimə işıq gəldi. Ani olaraq ataların ruhuna bir rəhmət göndərib, – Buyurun. Narahat etmirsiniz xoşdur. – davam etdim.

– Bilirsiniz, qarşıdan həm bizim bosun, həm də şirkətimizin yaranmasının yubileyi gəlir. Bu münasibətlə Bəy Bala müəllim jurnalistləri çağırıb müsahibə verir. Bu gün səhər saat 10:00 üçün gələ bilərsiniz, sizi görüşə yazım?

– Bəli. Yaza bilərsiniz. Yazın. Ancaq gəlin ünvanı dəqiqləşdirək. Mən sizin ofisin yerini təxmini bilirəm. Yenə də dəqiqləşdirsək yaxşı olar. Deyə bilərsinizmi?

– Bəli. Zəhmət olmasa, qeyd edin.

– Deməli, – Çingiz Mustafayev 104, həyətə girən kimi sağdakı boz qapı, üstündə iri hərflərlə "BB" yazılıb. Oldu. Düz vaxtında orada olacam. Xanım dedikcə qeyd edirmiş kimi, qələmi qeyd dəftərçəsinin üzərində gəzdirsəm də əslində heç nə yazmırdım. Çünki o dedikcə hara gedəcəyim gözlərimin önündə canlandığından buna ehtiyac duymadım. Söhbət bitəndə sadəcə bugünkü tarixə görüş vaxtını qeyd etdim. Sonra redaksiyanın çıxış kitabına çıxdığım vaxtı və gedəcəyim ünvanı yazdım. İçərisində müxtəlif vəziyyətlər üçün hazır suallarım və gündəlik iş üçün vacib digər sənədlər olan qovluğumu qoltuğuma vurub ofisdən çıxdım. "BB" – nin ofisi bizdən bir neçə küçə Qış Parkına tərəf aralı idi. Bizim ofis Həzi Aslanov küçəsində yerləşirdi. Vaxta 15 dəqiqə qaldığına görə "BB" – nin ofisi olan küçədən keçib Qış Parkına gəldim. 10:00-a 5 dəqiqə qalana qədər düz iki siqaret çəkdim. 5 dəqiqə qalanda ağzıma bir saqqız atıb, üstümə ətir vurub təyin olunmuş ünvana doğru yönəldim. "Çingiz Mustafayev 104" – ə çatan kimi bazubənd əvəzi qoluma keçirtdiyim maskamı çıxardaraq üzümə taxdım və üzərində böyük boz rəngli hərflərlə "BB" yazılmış boz qapını açıb içəri daxil oldum. İlahə xanımı soruşdum. Elə girişdəcə telefonların yanında oturmuş xanım gülərüzlə məni qarşıladı:

– Buyurun. Sizə necə kömək edə bilərəm? İlahə xanım mənəm.

– Mən Əli Mülayim. Saat 10 tamama görüş təyin etmişdik.

– Bəli. Buyurun keçin. Bəy Bala müəllim sizi gözləyir. Ancaq zəhmət olmasa, üst geyiminizi və telefonunuzu verin mən saxlayım. Bu qalstuklardan birini bağlasanız lap əla olar. Bax, bu sizin köynəyə lap uyğun gəlir. Buyurun, – deyə üzərində sarı ay-ulduz olan tünd göy rəngli qalstuku mənə uzatdı. Çar –

naçar qalstuku alıb girişdəki böyük güzgünün qabağına keçdim. Qalstuku səliqə ilə bağladıqdan sonra, suallar və sənədlər olan qovluğumu da götürüb:

– Mən hazır, – dedim. Xanım əvvəlcə qovluğumu da əlimdən almaq istədi. Birtəhər göz-qaşla başa saldım ki, iş üçün lazım olacaq. Nəhayət:

– Buyurun. Keçin, – deyə-deyə qapını açıb məni otağa saldı. Bəy Bala müəllim sanki məni görmürmüş kimi öz işində idi. “T” şəkilli masanın üzərində barmaq basmağa boş yer yox idi. Disklər, kitablar, bir neçə işlək vəziyyətdə olan notbuk və sonsuz sayda kağız-kuğuz … Bu mənzərəni insan öz gözləri ilə görməsə, sözlə ifadə etmək çox çətindir. Bəy Bala müəllim başını qaldırmadan bir az yorğun səslə:

– Xoş gəlmisiniz. Əyləşin, – dedi və sağ tərəfdə olan yeganə boş kürsünü əli ilə mənə işarə etdi. 5-10 dəqiqə oturandan sonra mənə məlum oldu ki, o da açıq notbuklarda digər ofislərdəki işçilərinin davranışlarını müşahidə edir. Nəhayət, sanki bu məşğuliyyətdən bezərək, – üzr istəyirəm, sizin adınız necə oldu?- deyə düz gözlərimin içinə baxdı.

– Əli Mülayim.

– Çox gözəl, Əli müəllim. Vallah, indi elə zamanada yaşayırıq ki, mülayim olmayıb neynəyəcəksən ki? Lap yaxşısını elə siz eləmisiniz. Mülayim olun.

– Elədir.

– Əli müəllim. Deməli, vəziyyət belədir. Bu üzümüzə gələn dekabrın 25 – i həm mənim 55 yaşım tamam olur, həm də şirkətimin 20 illiyi olacaq. Düzdür, mənim buna ehtiyacım yoxdur, ancaq yenə istəyirəm ki, mətbuatda, televiziyada bu barədə məlumatlar getsin.

– Lap yaxşı. Aydındır, Bəy Bala müəllim.

– Bir də xahiş edirəm o maskanı çıxardasınız ki, sizin nə dediyinizi anlaya bilim. Yoxsa, heç nə başa düşə bilmirəm. Burada kim var ki? Bir də inanın səmimiyyətimə bunlar hamısı boş şeydir. Canı verən də, alan da bax o kişidir! – Dedi və əlini tavandan sallanan bahalı çilçırağa tərəf elə şəstlə qaldırdı ki, məndə də qeyri-iradi olaraq gözəgörünməz qüvvənin bu çilçırağın içində gizləndiyinə əminlik hissi yarandı.

– Doğrudur. Doğrudur. – deyə-deyə maskamı çıxardıb əziz matah bir aksesuar kimi köynəyimin döş cibinə qoydum.

– İndi deyin görüm, hazır gəlmisiniz yoxsa, hər işi mən görəcəm?

– Nə mənada?

– Yəni suallarınız, ya nə bilim bir proqramınız varmı belə hallar üçün?

– Əlbəttə.

– Onda başlayaq.

– Başlayaq. Özünüz, ailəniz və işiniz barədə ürəyinizdən keçənləri, bizim oxucularla bölüşmək istədiklərinizin hamısını anladın. Söhbət əsnasında yarana biləcək vəziyyətlərə uyğun köməkçi suallarla mən sizə kömək edəcəm. – deyib, qovluğumdan bu hal üçün nəzərdə tutulmuş suallar qeyd olunan vərəqi və qeydlər aparacağım ağ A4 kağızları çıxardıb masanın üstünə qoydum.

– Deməli belə. Mən Xanlar rayonunun Bəyoğlular kəndindənəm. Atamın adı Böyük Bəy, onun da atasının adı Bəy Bura, onun da atasının adı Böyük Bəy, onun da atasının adı Bəy Bala, onun da atasının adı Bala Bəy… Nə başını ağrıdım. Bax beləcə gedir. Adam var, atasın tanımır. MaşAllah olsun. Biz yeddi arxa dönənimizi tanıyırıq. Adətdəndi. Kişi gərək yeddi babasının adını bilə. Siz cavanlar da öyrənin və uşaqlarınıza öyrədin. Bu çox vacib məsələdir. Çox yerdə görürsən mənim adımı səhvən “Bəybala” kimi bitişik yazırlar. Bu səhvdir bizim adlarımız ayrı yazılır. Məsələn, Bəy Bala və ya Böyük Bəy. Bax, belə. Siz də düzgün yazın. Siz inanırsınız mən neçə dəfə belə səhvlərə görə bir qəzetin bütün nömrələrini köşklərdən toplatmışam. Nəsə sözüm onda deyil. Biz ailədə, Böyük Bəyin ocağında iki qardaş və iki bacı, dörd uşaq olmuşuq. Mən ailənin ilki, böyük uşaq olmuşam. Sonra bacılarım, Böyük Bəyim, Balaca Bəyim və sonbeşiyimiz, balaca qardaşım Bala Bəy. Deməli, ötən əsrin 90-cı illərində köhnə hökumət dağılanda mənim olardı 25 yaşım. Cavan, sütül oğlan idim. Atam məni oxutmaq istəsə də, düzü, mənim elə bir fikrim yox idi. Rusun əsgərliyinə də gedib gəlmişdim. Bizdə də ara yavaş-yavaş qarışırdı. Nəsə axır ki, kişi saqqızımı oğurladı. 1991-ci ildə nə az, nə çox düz 60.000 manat pul verib məni qoydu Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə. İndi hər yan universitetdir e. Onda bircə dənə universitet var idi. Kişi deyirdi oxu qurtar, səni

raykom katibi qoyacam. Onu deyim ki, o vaxt elə oxumaq, filan da yox idi. İnanın bir torba alçaya qiymət yazan müəllimlər var idi. Onları da qınamalı deyil. O vaxtlar vəziyyət çox pis idi. Bu oxumağın mənə xeyri o oldu ki, o vaxtlar müharibəyə getmədim. Bir də günüm Bakının "talkuçka"larında, bazarlarında keçdi. Ticarətin bütün sirlərinə yiyələndim. Bir şənbə-bazarın alverinə bir semestri yola verirdim. Oxumaq, imtahan belə idi. Mən tarixi qurtarana qədər nə raykom qaldı, nə də katiblik. Ta kişinin də o vaxtları deyildi. Mənimlə oxuyan uşaqlardan bir-iki nəfər indi universitetlərdə müəllim işləyir. Çoxu mənim kimi biznesdədir.

– Biznesiniz konkret olaraq hansı sahəni əhatə edir? Zəhmət olmasa bu barədə danışın.

– Tələsməyin. İndi ora gəlirəm. Hamısını yerli-yataqlı danışacam. Deməli, mən Bakıda alverdə, ailəmiz də qalmışdı rayonda. Universiteti bitirdim. Müharibə bitdi. Amma ölkədə vəziyyət daha da çətinləşmişdi. Alverdən başqa heç bir işdə pul yox idi. Atam nə qədər dedi ki, gəl müəllim işlə. Lap səni məktəb direktoru qoyum. Maarifə işə düzəldim. Dedim ki, yox e, bunlar mənlik deyil, mənimki alverdi. Biznes. Onu da deyim ki, ta mənim satmadığım şey qalmayıb ha. Elə axtarışdayam. Nə olsun? Necə olsun? Nə yenilik edim? Nə iş qurum? Bax belə fikirləşirəm. Xarici biznesmenlərin həyatından filmlərə baxıram, kitablar, məqalələr oxuyuram. Bərk axtarışdayam. Allah deyir səndən hərəkət, məndən bərəkət. Bir dəfə bir xarici kinoya baxıram. Lap o qədim Amerika filmlərindəndir. Bəlkə, siz də baxmısınız. Bir əczaçı qadın əlində bir şüşə öz hazırladığı dərmanı kino boyu hərləyir- fırlayır, nə qədər edir bu dərmanı sata bilmir. Axırda necə olursa bir kişi ilə vuruşmalı olur. Kişini yaralayır və kişi infeksiya qorxusundan məcbur olub dərmanı qızıl pulla qadından alır. Üstəlik qadından xahiş də

edir ki, bu məhlulla onun yarasını təmiz-təmiz yuyub sarısın. Filmdəki bu fraqment mənə ideya vermişdi, ancaq bu ideyanı harada necə tətbiq edəcəyimi heç cür dəqiqləşdirə bilmirdim. Artıq evlənmişdim. Üzr istəyirəm, arvad da pul istəməkdən başqa heç nə bacarmırdı. Xırda alver ta mənim ehtiyaclarımı ödəmirdi. Ata-anam da rəhmətə getdi. Dost-tanış da hərə bir yandan deyirdi ki, kənddə bacı-qardaşın vəziyyəti pisdir. Onları da yığ gətir Bakıya. Bu kimi hallar məni lap bezdirmişdi. Elə bu vaxtlar qızımın ad gününə hazırlaşırdıq. Böyük uşağım qızdır. Adını da Böyük Bacı qoymuşam. 1 yaşı tamam olurdu. Uşağı ilk dəfə aparmışam bərbərxanaya. Öz dəlləyimin yanına getmişik. Bakıya gələndən bəlkə necə ola, bir-iki dəfə başqa usta yanına gedəm, həmişə bu dəlləyin yanınına getmişəm. İndi də sağ olsun, gəlir elə bax burda, bu ofisdə bütün işini görüb gedir. Nəsə, orda işimiz bitəndən sonra dəllək yavaşca qulağıma deyəsən ki, bəs uşağın başında bit var. Düzü, bu sözü eşidəndə orda sakit qalsam da cin vurdu təpəmə. Gəldim evə arvadla yenə qırdıq bir-birimizi. Baldızım da biz də idi. O dedi ki, bəs yeznə narahat olma, Türkiyədə olanda bizim də saçımıza düşmüşdü. Orda apteklərdə yaxşı dərman satılır. Dərman deyəndə şampun kimi bir şeydir. Ballı indi oradadır. Ad gününə gələcək deyərəm alıb gətirər. Narahat olma ikisin alıb gətirsə, bəsdir. Ballı da mənim balaca baldızımdır. Üç bacıdırlar. Ballı ən kiçiyidir. Alverdə o da yaxşıdır. Dubaydan vurur, İslambuldan çıxır. Bax, mənim bütün həyatım bu Ballı baldızımın hesabına dəyişdi. Yəqin, şəhərdə görmüsünüz “Bala Baldız” gözəllik salonları, “Bal Baldız” kosmetika mağazaları hamısı onundur. Yəni mənimdir. O idarə edir. Nəsə, baldız gəldi, iki qab bit dərmanı da gətirdi. Dərman işə yaradı. Bu məsələ yüngülvari dalağımı sancsa da, hələ elə bir ciddi dönüş etməmişdim. Hələ qadın koftası mağazası işlədirdim. Arvadla da elə orda, ona kofta satanda tanış olmuşam. Nəsə, bu başqa söhbətin mövzusudur. Yadınızda olar yəqin ki, bir ara quş qripi yayılmışdı?

– Bəli. Bəli. Yaxşı yadımdadır.

– Bax, o vaxtlar söz gəzirdi ki, guya xaricdə bloklara girib qapı dəstəklərinə, avtobus və metroda tutacaqlara nəsə püskürdürlər camaat da xəstələnir. Əslində bu xəstəliyin göydə uçan quşlarla heç bir əlaqəsi yoxdur. Yerdəki bayquşların işidir. Bu məsələnin bizə heç bir aidiyyəti olmasa da ideyanı bir az yerindən tərpətmişdi. Və nəhayət, bir gün təsadüfən televizorda gördüm ki, bir kişi bizim Tərtər rayonun bir kəndində soxulcan yetişdirib, fermerlərə, balıq tutanlara satır. Bu xəbəri görən kimi, "Böyük Biznes" ideyası işə düşdü və avtomatik olaraq anındaca "Biq Boss"a çevrildim. İnan ki, o gecəni evdə yatmadım. O saat hava limanına, oradan da bir başa İslambula uçdum. Ora çatdım, heç otelə də getmədim. Elə hava limanında gözlədim səhər olan kimi apteklərə baş çəkməyə başladım. Gördüm, maşAllah olsun bit dərmanının çeşidləri lap çoxdur. Bir gün aradım-araşdırdım. Ən tanınmış firmaların üçü ilə danışıb, razılaşıb elə həmin gecə qayıtdım Bakıya. Və başladım burada da apteklərlə, kosmetika mağazaları ilə danışıb, razılaşmağa. Hər şey tam hazır olandan sonra kofta mağazasını mal qarışıq satdım. Başladım Türkiyədən mal vurmağa. Mallar gəldi payladım "toçka"lara. Gördüm, yox e mal getmir. İdeyanı saldım işə. Daha doğrusu öz – özündən düşdü işə. Birinci rayonda olan qardaşım Bala Bəy xəbər göndərdi ki, uşaqları bit basıb. O dərmandan bizə də göndər. Mən də ona xəbər elədim ki, bəs dərmanı neynirsən evi-eşiyi də sat, külfəti də götür gəl Bakıya. Sağ olsun, sözümü yerə salmadı. Heç bir həftə keçmədi gördüm yığışıb gəlib. Gələn kimi Sovetskidə hamam – tualetsiz evlərindən bir dənə 3 otaqlı ev kirayə tutdum onlara.

– Üzr istəyirəm, niyə məhz belə?

– Hövsələniz olsun. İndi deyəcəm. Deməli, qardaşımın maşAllah 7 uşağı var. 2 nəfər özləri, bir də qaynanası. Düz 10 nəfərdirlər.

– Mən onu soruşmurdum. Həqiqətən evin hamam-tualeti yox idi. Bəs necə yaşayırdılar orada?

– Əlbəttə. O evlərdə hamam-tualet olmur. Sadəcə həyətdə bir ümumi ayaqyolu olur vəssalam. Bizə də elə belə evlər lazım olur. Çünki onlar saçlarını yumurlar. Əksinə çirkli saxlayırlar ki, bitlər üçün münbit mühit olsun.

– Bəs onlar nə iş görürdülər?

– "Görürdülər" yox, "görürlər"? Onlar bu saat da elə orada yaşayır və işləyirlər.

– Bəs sökməyiblər oranı?

– Xeyr. Neçə illərdir deyirlər, hələ bir şey yoxdur. Bir də qardaşımın indi lap şəhərin mərkəzində yeni tikilən binalarada bir yox, bir neçə mənzili var. Ora sadəcə bizim iş yerimiz çörək ağacımızdır. Deməli, bunları ora yerləşdirib, tapşırdım ki, siz ancaq əlinizdə olanı yemək-içməyə bir də yol puluna xərcləyəcəksiniz hər ayın 5 – i həm xərcliyinizi həm də qazancınızı mən verəcəm. Sizin işiniz o olsun ki, yeyin-için, bitləri çoxaldın. Səhər –axşam şəhərin insanlar gur olan yerlərində, ticarət mərkəzlərində, avtobuslarda, metroda basabas vaxtı girin camaatın içinə, ürəyiniz istəyən qədər gəzin.

– Üzr istəyirəm, belə niyə?

– Eh, dostum. Bitlərin yayılması üçün. Bu bit təmiz başı, yəni xam yeri elə tanıyır, elə tanıyır… Bir bilsən. Bu barədə yazsam indi elmlər doktoru idim. Deməli, birinin saçında bit varsa, 25-30 nəfər sərnişin tutumu olan avtobusda bircə dövrə vuranda ən azı 100 adama bit salır. Gör indi maşAllah 50-60 nəfərlik avtobusda bu nə qədər olur ha… Öz də onlara tapşırmışam ki, avtobusa bir dəfə mindin sürücü tanıyıb zorla düşürənə qədər düşməsinlər. Belə həm də “rasxod” azalır. Onların özlərinə xeyirdir. Qazancları artır. Nə başını ağrıdım. Birinci ayın sonunda apteklərə mal çatdıra bilmədim. Allah bərəkət verdi. Mal vur, pul götür… Mal vur, pul götür… Bacılarımı da gətirdim Bakıya. İndi maşAllah olsun. Təkcə qardaş-bacılar deyil, qardaşuşaqları, bacıuşaqları, hələ canım sənə desin, sinifyoldaşlarımdan da bir neçəsinin çalışdığı belə ocaqlarımız var. Şəhərdə təxminən 100- ə yaxın obyektdə bit yetişdirib yayırıq. Daha doğrusu bitlərin çoxalıb, yayıla biləcəkləri münbit mühit formalaşdırırıq. Dünyanın müxtəlif təbiəti, canlı aləmi sevən təşkilatlarından bilirsiniz nə qədər mükafatlarımız var? – deyə mənə işarə edərək yana qanrılıb rəfdəki müxtəlif formada və dillərdə olan diplomları, prizləri göstərdi.

– Bu işlə yalnız Bakıda məşğulsunuz?

– Bəli. Hələlik ancaq Bakıda. Bilirsiniz bu biznes sırf inkişafla bağlı, inkişaf göstəricisi olan sahədir. Gərək yaşayış ola, insan ola ki, bit də olsun. Bakıdan başqa sıx yaşayış olan yer yoxdur. Gəncə və Sumqayıtda bir-iki dəfə eksperiment aparmışıq nəticə “0”. Hələlik ancaq Bakıda fəaliyyət göstəririk.

– Üzr istəyirəm, Bəy Bala müəllim, sizin qohumlar kimi həyat yoldaşınızın qohumları da belə canla-başla bu ailə şirkətində çalışırlarmı?

– Bayaq sizə dedim, şəhərdə gördüyünüz bütün “Bala Baldız”, “Bal Baldız” obyektlərin hamısı mənim balaca baldızım Ballı xanıma aiddir. Yəni o işlədir. Sağ olsun. Doğmaca arvadımdan görmədiyimin hamısını ondan gördüm. Həm mənəvi, həm maddi. Mən də onu yaşadıram. Hələ indiyə qədər bir sözünü iki eləməmişəm.

– Bəs Ballı xanımdan başqa?

– Başqa heç nə. Siz elə düşünürsünüz ki, onlar da bitli saçla metro, avtobus gəzib bit yayırlar. Yox, dostum. Nəinki, onlar heç doğmaca var yox bircə oğlum Bic Bala burax bit yaymağı, “toçka”lardan pul yığmağa getməyə belə ərinir. Bu işi sinifyoldaşlarımdan birinin oğluna tapşırmışam. Sağ olsun halal uşaqdır. Demişəm əgər qanunu yolla adını dəyişib, Bəy Bura qoysa qızım Böyük Bacını ona ərə verib, şirkəti də bağışlayacam onlara. Oğul, arvad tərəf zaydır. Oğlum olanda nə qədər elədim babalarımdan birinin adını qoya bilmədim ona. Arvadla qaynənəm birləşdilər. Mən də direşdim ki, necə olur olsun 2 “B” mütləq olmalıdır. Onlar da dedilər, “nə şiş yansın nə kabab” adını qoydular Bic Bala. Uşaq da odu cüvəllağı, avara. Oxumaq, zad nədi. 15 yaşı olan kimi də evlənib. Yəni arvad “padruqa”larından birinin qızı ilə baş-göz edib. 1 oğul nəvəm var adını da yenə arvad tərəf 2 “B” –ni gözləmək şərti ilə Biq Boss qoyublar. İndi onun da ad günü yaxınlaşır. 1 yaşı tamam olacaq. Bir sözlə qızm Böyük Bacı ilə baldızım Ballını çıxmaq şərti ilə arvad tərəf ancaq xərcləməklə, dağıtmaqla məşğuldur. Düzü, bu ötən müddət ərzində arvadın hələ zəng vurmamasına narahat olmağa başlamışam… – Bəy

Bala müəllimin sözü ağzında qaldı. Şəhər telefonunun cingiltili səsi kabineti başına götürdü. Dəstəyini qaldıraraq qaş-gözlə mənə "görürsən?" – deyib davam etdi: – Bəli, buyur, başımın tacı, evimin yaraşığı, şirkətimin loqosu, buyur. Votsapla? Baş üstə. Görüntülü? Baş üstə. – deyib dəstəyi asdı. Və mobil telefondan görüntülü yığdı. Nə billah etsə də həyat yoldaşı öz görüntüsünü açmadı. Əksinə Bəy Bala müəllimi məcbur etdi ki, kabinetin bütün künc bucağını mən də daxil olmaqla ona göstərsin. Görüntü olmasa da arada xırç-nırç, şap-şup kimi səslər qarışıq kişi səsinin eşidilməsi mənim də diqqətimi çəkdi. Elə bu vaxt Bəy Bala müəllim bir az da əsəbi kimi: – Hardasan, bu nə səs-küydü? – deyə sual verdi. Cavab özünü çox gözlətmədi: – Qəssab Mehralının yanındayam, bilirsən də onda həmişə "üçbacılıq" yaxşı ət olur. Eşidirsən, Mehralı sənə salam deyir. Deyir, çox sağ olsun. Yaxşı kişidir. Bəy Bala müəllim bu dəfə yenə də mənə qaş-göz eləsə də mən bu işarələrə bir anlam verə bilmədim. Nəhayət: – Yaxşı canım, öpdüm. Sən də salam de. Di, hələlik. Əlimdə işim var. – dedi və cavab gözləmədən zəngi sonlandırdı. Dilxor halda mənə tərəf çevrilərək:

– Evlisiniz, subay?

– Subay.

– Kifayətdir. İndi bu yazının adını nə qoyacaqsınız?

– Fikrimdən"Bit Biznesi" keçsə də, "Böyük Biznes" dedim.

– Bəlkə, bu yazının adını elə "Böyük Bədbəxt" qoyasınız? Ya da heç nə lazım deyil. Yubiley-mubiley olmayacaq. Siz də xahiş edirəm bunu götürüb, o məşhur tamaşada deyildiyi

kimi… – deyərək əlində tutduğu şax “200”lüyü zorla maskanın yanına yerləşdirdi.

– Çox sağ olun. Heç yaxşı olmadı, Bəy Bala müəllim. Əgər fikriniz dəyişə, qoy İlahə xanım sadəcə mənə xəbər eləsin. Yazını hazırlayıb, hazır saxlayacam.

– Lap əla oldu. Xeyli yüngülləşdim. Başqa heç nə lazım deyil. Qalstuku da açma, sənə yaraşır. Bizdən hədiyyə olsun. Subay oğlansan get dincəl! Ye, iç, kef elə! Qarşıdan gələn Yeni İlin də mübarək!

– Çox sağ olun, – sağollaşıb ofisə qayıtdım. İndi oturub yeni zəng gözləyirəm. Ancaq bu dəfə tək deyiləm. Ac və qoca qurdlar hamısı buradadır.

***Son***
**06.12.2021 – Bakı ş.**



**Qismət TAĞIYEV**

**BƏDBƏXT**

*(Povest)*

*...əvvəli ötən sayımızda....*

Mən Axundov Vasif Salman oğlu 195-ci ilin iyun aynin 22-də Kəlbəcər yaylaqlarının birində anadan olmuşam. Ailənin ikinci övladıyam. Bacım Aybəniz məndən 4 yaş böyükdür. Ona görə yaylaqda anadan olmuşam ki, atam Salman Göytəpə rayonu yun tədarükü idarəsinin rəisi idi. Bu idarəyə 30 ildən yuxarı rəhbərlik etdiyindən el-oba onun adının qarşısına yun sözü artırmış və Salman dönüb olmuşdu Yun Salman. Yayda rayonun bütün təsərrüfatlarının qoyunları yaylaqlara köçərdi. Atam da öz ailəsini və işçiləri ilə birlikdə bütün idarəni yaylağa aparar, ayrı-ayrı kolxoz, sovxoz təskilatlarından yun tədarük edərdi. Ailəsi üçün ən yaxşı yataqların birində alaçıq qurdurub bizi orda yerləşdirədi. Bax belə vaxtların birində mən anadan olmuşam. Oğlan uşağı olsam da dünyaya gəlişim ata-anamı o qədər də sevındirməyib. Çünki arıq, cılız olmağımla yanaşı, bədənimdə qüsur, yəni sol tərəfdə çiynimdən aşağı kürəyimdə qozbelə oxşar kiçik çıxıntı varmış. Sonralar mən böyüdükcə bu çıxıntı da öz növbəsində bir az böyüyür və atam bu qüsuru aradan qaldırmaq üşün var gücü ilə çalışsa da nəticəsi olmur. Palto və yaxud ködəkcə geyəndə bu qüsur o qədər də

bilinmirdi. Lakin kostyum geyinəndə arxa tərəfdən sol hissənin ətəyi yuxarı dartılırdı. Bu azmış kimi yeriyəndə bədənimin sağ tərəfi azca irəli də olur, boynum isə tam sərbəst olmurdu. Məndə olan bu qüsura görə yavaş-yavaş həmyaşıdlarımdan uzaqlaşırdım. Yəni uşaqlar çayda çimməyə gedəndə, yaxud futbol oyunu zamanı soynanda mən bunları edə bilmirdim. Bütün bunlara baxmayaraq bacım Aybənizlə mən nəinki kiçik yaşlarımızda ta orta məktəbi bitirənədək başqalarına nisbətən ən xöşbəxt uşaqlardıq. Yaylaqda olduğumuz bütün illər ərzində şənbə, bazar günləri ailəlikcə aşağı İstisu sanatoriyasına düşür, orada bizim üçün ayrılmış xüsusi otaqda dincəlirdik. Sanatoriyanın baş həkimi Yusif həkim atamla möhkəm dost idi. İş yerə gəlib çıxdı, həkim mənim kirvəm oldu və bu dostluq daha da möhkəmləndi. Mədə bağırsaq xəstəliklərinin müalicəsi üçün ən yaxşı yer olan İstisu sanatoriyasına respublikamızın, eləcə də keçmiş SSRİ-nin hər yerindən adamlar axışıb gələrdi. Bunların arasında professorlar, alimlər, vəzifəli şəxlər də olurdu. İllər ötdükcə bu məşhurlardan bəziləri Yusif həkimlə atamın tez-tez təşkil etdiyi qonaqlara dəvət edilir və atamın tanışlıq dairəsi getdikcə genişlənirdi.

Yaylağa gəlişimizin ikinci ayında qoyunların qırxınu başlayırdı. Bax onda Yun Salmanın əsl bacarığı üzə çıxırdı. Yun Salmanın səxavəti birə on artırdı. Yun qırxanların toplanması, yerləşdirilməsi, növbəlik, plana nəzarət, yaxşı-pis yunların ayırd edilməsi,saxlanması,rayona daşınması ondan asılı idi. Elə pullar da bu vaxt Yun Salmanın cibinə axardı. Mən böyüdükcə atamı daha yaxşı tanımağa başlayırdım. Mənə elə gəlir, belə bir adamın daxili, xarici obrazını yalnız mərhum aktyorumuz Səməndər Rzayev yarada bilərdi. Atamın xasiyyəti, davranişı haqqında sizə sonra danışaram. İndi isə istəyirəm atam, anam haqqında lap əvvəldən başlayım.

Atam Axundov Salman Əhliman oğlu 1932-ci ildə Göytəpənin Şirinqum obasında anadan olmuşdur. Atası Əhliman kişi çoban olub, yenicə təşkil edilmiş Şirinqum kolxozunun qoyununu otarırdı. Şirinqumlular tərəkəmə olub köçəri həyat yaşamışlar. Yəni yayı yaylaqda, qışı aranda keçirirmişlər. Salman da böyüdükcə obanın o biri uşaqları kimi quzu otarmağa gedərdi. Məktəb yaşına çatanda onu aparıb Göytəbədə internat məktəbə qoyurlar. Salman da yaxşı oxuyur. Hər il yaylağa köçəndə ata, anası Salmanı da özləri ilə aparardılar. Beləcə Salman gəlib 15 yaşına çatır. Yaylağa köçməyə hazırlaşırdılar və sabahısı yola düşdülər. Salmangilin obası Cəbrayıl, Zəngilan, Qubadlı yolu ilə Laçın yalaqlarına gedəcəkdi. Cəbrayılı təzə keçmişdilər, elə bir yağışa düşürlər, böyüklərin dediyinə görə hələ belə yağış görməmişlər. Salmangilin nəyi varsa islanır. Paltar, yataq o yana dursun, ərzaq tamam islanıb korlanmışdı. Salman bunları görəndə atasına deyir:

-Ay dədə indi neyləyək. Gəlsənə bu qoyunun ikisini satıb bir ərzaq alaq.

-Yox ay bala olmaz. Əvvala bu qoyunlar bizim yox, kolxozundur. Satmaq olmaz. Atasının xasiyyətini bilən Salmanın başına qəribə fikir gəlir. Qaçmaq. Sizə demişdim axı atam bir az yaxşı oxuyurdu. Kitablardan bilirdi, dünya təkcə Sirinqum obasından ibarət deyil. Dünyada böyük şəhərlər var. Adamlar kinoya, teatra gedirlər. Fabrik, zavodda işləyib pul qazanırlar. Ən azı insan kimi yaşayırlar. Axı nə var bu qoyunun içərisində. Arandan yaylağa çatıncan bir aydan çox vaxt keçir. Bu müddətdə nə yuyuna bilirsən, nə çimirsən. Paltarlı yatıb, paltarlı durursan. Qoyunun iyi canına o qədər hopur, sənə yaxın gələn də olmur. Sonra atı minib qonşu fermada olan dostu Həsənin yanına gedir. Həmin sözləri ona deyir. O da

razılaşır. Ancaq qaçmaq üçün pul lazım idi. Şətləşirlər ki, elə bu gecə Salmangilin qoyunlarından iki yaxşısını oğurlayıb dəmiryol stansiyasına aparsınlar, orda satıb qatara minib Bakıya getsinlər. Elə də edirlər. Bakıya çatmağa az qalmış Həsən:

-Əyə Salman biz Bakıda qalsaq sən öl gəlib bizi tapacaqlar. Gəl belə edək. Vağzala çatandan sonra "Uruset"ə gedən qatarların birinə oturub Moskvaya gedək. Ora böyükdür. Bakıya saat 3-də çatdılar. Qatardan düşən kimi şəhərin böyüklüyündən, adamların çoxluğundan əvvəcə təşvişə düşdülər. Yanlarından ötən adamlar dönüb onlara baxırdı. Salman:

-Həsən mən acından ölürəm. Axşamdan yediyimdir. Həsən:

-Hə düz deyirsən. Bir şey tapıb yemək lazımdır. Soraqlaşıb yeməkxana tapdılar. Yeməkdən sonra kassaların qarşısına gedib Moskvaya necə getməyi öyrəndilər. Moskva qatarı axşam saat 6-da yola düşəcək. Biletlərin satışı bir saat əvvəl başlanır. Hələ vaxtları çox idi. Şəhəri tanımadıqlarından yaxınlıqda gəzirdilər. Birdən Salman:

-Əyə Həsən gəlsənə əyin başımıza əl gəzdirək. Görürsən adamlar bizə necə baxır. Pulları sayandan sonra – olar dedilər. Mağazaya girmək olmazdı. Orda bahaçılıq idi. Əldə göhnə paltar satandan hərəsi biri şalvar, pencək, köynək, ayaqqabı alıb tamamilə dəyşib, özününküləri zibil yeşiyinə tulladılar. Yaman sevinirdilər. Salman bir az irəli keçib:

-Buyurun Həsən bəy. Həsən öz növbəsində:

Sağ olun Salman ağa deyib gülürdülər.

Gəlib kassanın qarşısında durub Moskvaya qədər biletin qiymətini öyrənəndə dilxor oldular. Pulları lap az qalmışdı. Salman Həsəndən yaşca balaca olsada ondan həm yaxşı danışıdı, həm də savadlı idi. Həsəndən pulları alıb kassirə uzatdı. Biz Rusiyaya, ata-anamızın yanına gedirik. Bilet verin. Kassir:

-Ay bala Rusiya böyük ölkədir. Ucu-bucağı bilinmir. Sizə hara lazımdır. Verdiyiz pullarla ancaq Xarkova qədər getmək olar. da heç duruxmadan cavab verdi:

-Biz elə ora gedirik. Sizi çox yormayacağam. Qatara oturub Xarkova çatırlar. Hər ikisi qatardan düşəndən sonra Həsən:

-Salman sən hələlik burda qal. Amma Mən Moskvaya gedəcəm. Orda mənim qohumlarım var. Əgər yaxşı alınsa gəlib səni tapacağam. Sonra cibindəki pulları çıxarıb saydı. Cəmi 14 manat idi.

Al yeddisi sənin, yeddisi mənim. Salmanın gözləri yaşarmışdı.

Həsən Salmanla sağollaşıb Moskvaya gedən qatara minir.

Bu atamın Həsənlə axırıncı görüşü olur və bütün ömrü boyu Həsənə bir daha rast gəlmir.

Salman qatarın arxasınca xeyli baxandan sonra vağzalda gözləmə zalında qoyulmuş oturacaqların birində dincələndən sonra şəhərlə tanış olmağa başlayır. Qəribə idi, Salman

etdiklərinə peşman deyildi. Vağzaldan şəhərə bir neçə küçə ayrılırdı. Əvvəlcə biri ilə, sonra obirisinə, nəhayət üçüncü ilə hərəkət edib geri qayıtdı. Hər üçündə də eyni mənzərə. Küçə boyu hər iki tərəfdə uşaqdan tutmuş böyüyə qədər tamamilə köhnə paltar geyinmiş bir neçə adam əllərini açıb dilənirdi. Yoldan keçənlərin üzü gülmürdü. Onlardan bəziləri ayaq saxlayıb diənçilərə pul verirdi. Elə bu vaxt qəribə bir hadisə oldu. Hündür boylu, saqqallı kişi, əlində ağac divarın dibində oturmuş 12-13 yaşlı oğlan uşağına yaxınlaşıb boynunun arxasında paltarından yapışıb yuxarı qaldırıb gətirib küçənin ortasına atdığını gördü. Salmanın ona yazığı gəldi. Yaxınlaşıb qolundan tutub qaldırdı. Uşaq ayağa durandan sonra saqqallıya nəsə dedi. Saqqalı kişi də əlindəki ağacı yuxarı qaldıraraq onlara tərəf hücüm çəkəndə uşaq Salmanın əlindən tutub qaçmağa başlayır. Gəlib bir bağa çıxırlar. Yadına düşr ki, torbasında yarım çörək, bir az pendir var. Torbadakıları çıxarıb yarısını uşağa verir, yarısını isə özünə götürür. Elə çörək yeyə-yeyə tanış olurlar. Salmanın yeni dostunun adı Valodya idi. Parisli qomen Qavroşa oxşayırdı. Bu tanışlıqdan sonra Salmanın adı Saşa oldu. Yeməkdən sonra şəhəri gəzdilər. Volodya şəhəri beş barmağı kimi tanıyırdı. Salman rus dilini çox pis bilirdi, ancaq Volodya lalların etdiyi kimi əl hərəkətləri ilə onu birtəhər başa sala bilirdi. Müharibə təzə qurtarmışdı. Hər yerdə onun izi görünürdü. Axşam qaranlığında da bir-iki manat xərcləyəndən sonra Volodya bildirdi, daha gecdir, yatmaq vaxtıdır. Qaranlıq küçələrdən keçib, uçuq beşmərtəbənin üçüncü mərtəbəsinə qalxıb bir otağa gidilər. Valodya cibindən kibrit çıxarıb şam yandırdı. Bu tamamilə salamat qalmış kiçik otaq idi. Yerdə köhnə paltarlardan düzəldilmiş yataq vardı. Hər ikisi paltarlarını soyunandan sonra Volodyanın işarəsi ilə yatağa uzandılar. Volodya tez şamı söndürdü. Qənaət etmək lazımdır. Çox yorğun olduğundan Salman həmin dəqiqə yuxuya getdi. Salman yuxudan hövlnak qalxdı. Kimsə onu silkələyirdi.

Voldya idi. Yenə əli başa saldı, tələsmək lazımdır. Onlar küçələri qaçaraq keçib Volodyanın dünən oturduğu yerə gəldilər. Volodya öz yerində əyləşir. Salmana işarə edir yanında otursun. Atam razı olmur.

-Yox mən dilənçi olmaq istəmirəm. Daha bir neçə gün keçir. Tamamilə pulu qurtaran atam gəlib Volodyanın yanında oturur. Yaxşı qazandıqları günlər də olur. Beləcə 3 aydan çox vaxt keçir. Hökümətdə bir canlanma hiss olunur. Müharibənin qalıqları tədricən ləğv edilir. Qaçıb getmiş adamlar öz evlərinə qayıdır. Küçələr təmizlənir. Məktəblər, fabrik, zavodlar bərpa edilərək işə salınır. Qış yaxınlaşırdı. Salmagilin oturduğu küçədə qaça-qaç düşdü. Hər tərəfdən töküləşən milislər bütün dilənçiləri yığıb şöbəyə apardı. Burada onlarla xüsusi söhbət etdilər. Dedilər bəs Sovet gənclərisiz. Sizə dilənmək olmaz. Hökümət sizə yaxşı şərait yaradıb. Oxuyub savadlanmaq lazımdır. Sizi internat məktəbinə yerləşdirəcəyik. Yeməyiniz, geyiminiz dövlət hesabına olacaq. Elə etdilər. Volodya ilə Salman bir sinifə düşdülər. Salman bu işə çox sevindi. Axı onun oxumağa çox böyük həvəsi vardı. Həyatda belə hadisələr çoxdur. Bir də görürsən, savadsız bir ailədən görkəmli alimlər, şairlər, yazıçılar çıxır. Nəhayət 3 ildən sonra atam orta məktəbi bitirir. Sənədlərini kənd təssərüfatı instituna verir və qəbul olunur. Volodya isə zavodların birinə işə düzəlir. Bu ayrılmaz dostlar yenə bir yerdə olurlar və dostluq onların ömürlərinin axırına kimi davam edir. Sonralar atam yun idarəsinin rəisi işləyəndə dəfələrlə Volodyanı ailəsi birlikdə Azərbaycana dəvət edər, onları da özümüzlə birlikdə yalağa aparardı. Ancaq indi vəziyyət bir çətinləşmişdi. Oxumaqla yanaşı işləyib çörək pulu da qazanmaq lazım idi. Salman internatda olanda hərdən bazara gəzməyə gedərdi. Burda bazarda işləyən azərbaycanlılarla tanış olmuşdu. İndi gəlib dərdini onlara deyəndə ona məsləhət etdilə, Əşrəf adlı kişinin yanına getsin.

Burdakı işlərə o nəzarət edir. Salman onu axtarıb tapır. Tanış olurlar. Salmanın geyimi, danışığı Əşrəfin çox xoşuna gəlir. Sən demə O Göytəpənin qonşuluğunda Qarabulaq rayonundan imiş. Əvvəllər burda həbsxanada olub. İndi azadlıqdadır və necə deyərlər “polojenie” nəzarət edir. Əşrəf bazardakı yeməkxananın müdirini çağırıb Salmanı ona tapşırır və Salman hər gün dərsdən sonra gəlib burda işləyir. Tərəkəmə oğlu olduğundan onun işindən xoşları gəlir. Salman qoyunu ustalıqla kəsir, soyur, kabablıq ətləri çox səliqə ilə doğrayır, şişə çəkib kabab bişirir. Onun işgüzarlığını Əşrəf də eşidir. Salmanı yanına çağırıb deyir:

-Çox sağ eloğlu. İşgüzarlığnı eçitmişəm. Gəlsənə sənə bir ət dükanı açım. Həm özün dolanarsan, həm də mənim işlərim yaxşılaşar. Salman bir az fikirləşəndən sonra:

-Əmi mən etiraz eləmirəm. Məsələ burasındadır, mən institutda əyani oxuyuram. Əgər müdiriyyətlə danışıb axşam növbəsinə dəyişə bilsək, canla-başla sizin qarşınızda hazıram. Əşrəfin şəhərdə tanışları çox idi, bu iş asanlıqla yoluna qoyulur. Sonra Salmanı yanına çağırıb çoxlu pul verir. Aparıb bazarın ən yaxşı yerində olan otaqların birini göstərib:

-Bundan sonra bura sənindir. Sənə bir-iki məsləhətim var. Harda olursan ol, yaxşı səliqə -sahman yarat. Paltarların ən yaxşını geyin. Özünə yaxşı mənzil tutarsan. Sən mənim xoşuma gəlirsən. Nə qədər mən sağam sənə zaval yoxdur. Sonra cibindən yenə pul çıxarıb Salmana verdi. Dediklərimi edərsən. Salman götürmək istəmirdi. Əşrəf də zarafatla:

-Yaxşı-yaxşı borc verirəm. Pullananda qaytararsan. Salman doğrudan bu pulları qaytardı. Həmin hadisədən 4 il

sonra bazarda atışma zamanı Əşrəfi ağır yaraladılar. Bir neçə ay xəstəxanada yatanda bütün xərcləri Salman özü çəkdi. Amma Əşrəf yaxşılaşmırdı. Vəziyyəti getdikcə pisləşirdi.

Bir dəfə Salmanı yanına çağırıb dedi:

Salman bala çox sağ ol. Mənim övladım yox idi, amma sən mənə oğul oldun. Həkimlər deyir mənim cəmi bir həftə ömrüm qalır. Al bu kağızı, üstündəki ünvandır, içərisindəki məktub. Kamran adında dostum var. Şaxtada işləyir. Namuslu adamdır. Ona bir az pul vermişəm. Gedib alarsan məni müsəlman qaydası ilə yerdən götürərsən. Qəbirsanlıqda dəfn edib bir nişanə qoyarsan. Qalan pulu özünə götürərsən. Amma sənə bir əmi kimi vəsiyyət edirəm. Bu il axırıncı kursdasan. Məktəbi qurtaran kimi öz vətənimizə qayıt. Sənin valideynlərin var. Mənim heç kimim yox idi.

Bir həftədən sonra Əşrəf vəfat etdi. Salman necə lazım idi, Əşrəfi müsəlman qaydası ilə dəfn etdi. Üstünə baş daşı qoydurdu. Yerdə qalan pulu özundə saxladı ki, vətənə qayıdanda lazım olar.

O vaxtlar institutlarda belə qayda var idi, altı ay oxuyurdun, 6 ay istehsalatın müxtəlif sahələrində çalışıb təcrübə yığırdın. Belə praktikaların biri Xarkov yun emalı zavodunda oldu. Salman bu işlə tanış olduqca daha yaxşı mənimsəyirdi. Nəhayət Salmanın səbirsizliklə gözlədiyi gün gəlib çatdı. O instutu bitirdi. Dostu Valodyanı tapıb, bu münasibətlə yaxşı yeyib içdilər. Burda Salman vətənə qayıtmaq istədiyini dedi. Sonra birlikdə gedib ilk dəfə görüşdüklər yerə baxmağa getdilər. Əyinlərində bahalı paltar olmasına baxmayaraq həmin yerdə oturaraq papaqlarını qarşılarına qoyub dilənməyə

başladılar. Heç adamlar onlardan geri qalmadı. Onlarda zarafatla bu bahalı şlyapaların içərisinə pul ataraq gülürdülər. Hazırlıq işləri bir həftə çəkdi.

Artıq 1955-ci il idi. O yağışlı gecədən 8 il ötürdü və Salman vətənə Göytəpəyə qayıdırdı. Qəribə idi, bütün bu illər ərzində Salman özü haqqında ata-anasına məlumat verməmişdi. İndi Göytəpəyə yaxınlaşdıqca böyük səhv etdiyini başa düşürdü. Axı onların nə günahı vardı. O vaxt zəmanə elə idi. Salman axşam saat 9-da Dağburnu stansiyasına çatdı. Qatardan özü ilə gətirdiyi iki çamadanı düşürüb perronda dayandı və nə fikirləşdisə əyilib torpağı öpdü. Bəli o artıq vətəndə idi. Onun bu hərəkətini görənlər:

-Sağ ol bala. Vətənə xoş gəlmisən,- dedilər.

Salman ayrıca maşın tutdu. Yay olduğundan hava hələ işıqlı idi. Salman üçün hər şey maraqlı idi. Sonra gəlib bir qəsəbəyə çatdılar. Sürücü dedi ki, bura Göytəpədir. Rayon mərkəzidir. Hava artıq qaralmışdı və birdən yadına düşdü Şirinquma nəyə gedir. Axı indi orada heç kəs yoxdur. Hamı yaylaqdadır. Sürücüdən burada mehmanxana olub –olmadığını soruşdu. O da cavab verdi ki,var. Onda ora sürün.

Atam mehmanxanada bir həftə qalır. Qəsəbəyə xəbər yayılır ki, bəs Şirinqumlu çoban Əhlimanın oğlu qayıdıb gəlib. Özü də necə. Ali təhsilli əsil mütəxəssis. Axşamların birində onun yanına bir kişi gəldi. Salman onu tanıdı. Atasının əmisi oğlu Səlim kişi idi. Kişi Salmanı görəndə qucaqlayıb bağrına basdı.

-Ay bala xoş gəlmisən. Bəs belə sağ salamatsan niyə bizi gözü yolda qoyurdun.Yazıq Əhliman ayaqüstə ölüb. Hələ də peşmandır. Oğluma bir qoyunu qıymadım. O da baş götürüb qaçdı. Yaxşı bura niyə düşmüsən. Hə başa düşdüm. Nə biləsən. İndi bizimkilərin hamısı bura qəsəbənin "Dəvəçilər" deyilən yerində yer götürüb ev tikmişik. Elə sənin atan da qonşuluğumuzda olur. Hamımız burada yeni təşkil olunmuş qoyunçuluq sovxozunda işləyirik. Dur yığış gedək evə.

Yayılan söz –söhbət öz təsirini göstərdi. Heç 20 gün keçmir atamı rayon rəhbərliyinə dəvət edirlər. Birinci katib şəxsən özü onunla söhbət edir. Məsləhət olur ki, əvvəlcə qoyunçuluq sovxozunda işə başlasın. Sonrasına baxarıq.

Salman Əşrəfin sözlərini unutmamışdı. Hara gedirdisə ən yaxşı paltarlarını geyirdi. Bu da onun nüfüzunu artırırdı. İlk növbədə işlə yaxından tanış olmaq üçün yaylağa yollandı. Bütün statistik rəqəmləri, normaları, adamların adını, kimin adında nə qədər qoyun var, plan və öhdəlikləri öyrənib iş qrafiki tərtib etdi. Yaylaqda özününkilərlə görüşdü. Atası sevindiyindən düz beş qoyun kəsdi. Elə hey deyirdi bala məni bağışla .

Salmanı yaylağa sürücü Cəmil kişi aparmışdı. Cəmil kişi Salmanın xoşuna gəlmişdi. Ağır təmkinli adamdı. Bütün yol boyu söhbət edərək onu darıxmağa qoymamışdı. Özunun dediyinə görə 6 övladı, 3 oğlu, 3 qızı var. Qızlardan 2-sini ərə vermiş, oğlunun birini evləndirmişdir. Onun da ailəsi burda yaylaqdadır. Bir dəfə fermalara baxış keçirib evə qayıdanda Cəmil kişi onu öz evinə dəvət edir. Salman etiraz etmir. Maşın alaçığa yaxınlaşanda onları qarşılamağa üç nəfər yaxınlaşır. Bunlar Cəmil kişinin həyat yoldaşı Bəyim xala, oğlu Amil və

qızı Dilarə idi. Bunları Salman sonra biləcəkdi. Bəyim xala onu oğlu kimi qarşılayır. Əlini boynuna salıb üzündən öpür. Amil də əl verib görüşür. Dilarə isə yad görəndə qayıdıb alaçığa girir. Cəmil:

-Ay arvad bir şey hazırlamısan, yoxsa bizi yalandan dəvət eləmisən.

-Narahat olma a kişi xörək hazırdır. Əvvəlcə əl –üzünüzü yuyun, sonra içəri keçin. İndi növbə Dilarənin idi. Əlində bir vedrə bulaq suyu, dəsmal və qulplu qab qonağa yaxınlaşdı. Həm də bir balaca diksindi. Axı qonaq bizimkilərə heç oxşamırdı. Bizim tərəkəmə oğlanları bir az kobud, nahamar olurlar. Qonaq isə sarışın şabalıdı rəngdə idi. Orta bədənli hündür, yaraşıqlı idi. Əynindəki paltar sanki, bədəninə biçilmişdi.

Salman da öz növbəsində qıza nəzər saldı. Onun qarşısında mələk durmuşdu. Oxuyanda və bazarda gördüyü yüzlərlə rus qızlarından bu qız fərqlənirdi. İri qara gözləri,qaşları və hərdən sürüşən kəlağayının altında görünən dağ havasından qızarmış yanaqlar çox gözəl idi. 16-17 yaşı olardı. Mən bilmirəm bu necə olur, atam bir könüldən min könülə bu qıza vurulur. Elə Dilarə də ona biganə qalmır. Ala gözlü rusa oxşayan bu oğlan onun qəlbini ovsunlamışdı. Qonaqlıqdan sonra sonra anası ilə tək qalanda özünü saxlaya bilməyib:

-Ana qonağımız nə yaxşı oğlandır. Heç buraların adamına oxşamır-demişdi. O gündən Salman özünə yer tapa bilmir. Axırda sirrini ərdə olan bacısı Sənəmə açır. Sənəm Cəmil kişinin ailəsi daha geniş məlumat verir. Bildirir ki, Dilarənin o biri bacıları da qəşəngdir. Ərə getdikləri oğlanlar da sanballı

adamlardır. Biri məktəb direktoru, biri də həkimdir. Elə sən də onlardan geri qalmırsan. Mənə elə gəlir, sən elçi göndərsən yox deməzlər. Ancaq bizim bir çətinliyimiz var, yaxşı evimiz yoxdur. Salman:

-Siz elçi gedin, “Hə” alın. Ev məsələsi asandır. Yuxarıda sizə demişdim axı, Salman özü ilə yaxşı pul gətirmişdi. Atasının da yurd torpağı vardı. Salman yaylaqdan qayıdandan sonra böyüklərin məsləhəti ilə usta gətirib, kərpic kəsdirdi. Yerli ağac materiallarından da istifadə edərək qısa müddətdə evi tikdirərək başa gətirir. Razılıq alındığından toy edib Diləni öz evinə gətirib ömür-gün yoldaşı edir. Bir neçə il keçir Əvvəlcə bacım Aybəniz, 4 ilsonra mən ata-anam yaylaqda olarkən anadan oluram. Onu deyim, atam qoyunçuluq sovxozunda cəmi bir il işləyir. Yaxşı işinə görə onu daha məsuliyyətli işə Göytəpə rayonu yun tədarükü idarəsinə rəis qoyurlar. Salmanın əsl istedadı burda özünü göstərir. O baş idarədən əlavə vəsait ayırtdıraraq idarəni, hasarı təmir edir. Bütün anbarları, talvarları yenidən qurur. Giriş qapısında xüsusi buraxılış məntəqəsi, qaravulxana, laborotoriya tikdirir. Çox qəribədir, toplanmış yunu buralarda deyil,aparıb Xarkov şəhərindəki yun emalı zavoduna təhvil vermək təklifini irəli sürür və bunu həyata keçirmək üçün bir neçə dəfə Xarkova gedib yaxşı müqavilələr bağlayır. İndi atama sadəcə Salman yox Yun Salman deyirdilər. Ölkədə vəziyyət yaxşılaşırdı. Şəhərlər, kəndlər yenidən qurulurdu. Artıq hər yana işıq çəkilmişdi. 70-ci illərdə rayon partiya komitəsinin birinci katibləri üçün yeni yaşayış evi tikiləndə köhnəni atama verdilər. Əvvəlkindən fərqli olaraq yeni evimiz şəhərin mərkəzində idi. Atam da tənbəllik etməyib hasarı, evi söküb yenisini tikdi. Bütün bu illər ərzində istər uşaqlıq illərində, istərsə də gənc yaşlarımda biz yayı yaylaqda, qışda isə qısa müddətə hər il Sovet İttifaqının ən gözəl sanatoriyalarının

birində dincələrdik. Bundan əlavə qış aylarında Moskva, Leninqrad kimi böyük şəhərlərə səfər edər və heç vaxt əliboş qayıtmazdı. Özündən əlavə rayon rəhbərlərindən katibə, prokurora, milis rəisinə də hədiyyələr alardı və bu ənənəni bütün ömrü boyu davam etdi. Katiblər, prokurorlar, rəislər gəlib gedirdi. Amma Yun Salman öz yerində qalırdı. Doğrudur hərdən ona yüksək vəzifələr də təklif edirdilər. Ancaq Salman razı olmurdu. Bu iş ona sərf edirdi. Həm qazancı yaxşı idi, həmdə vaxtı olurdu. Yun Salman ağıllı adamdı. Heç vaxt özündən yuxarı vəzifəli adamların arxasınca danışmazdı. O qorxaq deyildi, yaltaqlığa nifrət edərdi. Heç kəslə işi olmazdı. Ancaq kimsə ona sataşanda bax onda atam yırtıcı şirə dönürdü. Lazım gəlsə 50 min, yüz min xərcləyib həmin adamı yerində oturdardı. Pul məsələsində çox ciddi idi.

İndi isə anam haqqında. Deyirlər ağ gün adamı ağardar. Onsuz gözəl olan anam bu illər ərzində daha da gözəlləşib xanım, xatın qadın olmuşdu. Anam heç vaxt süni bər-bəzəkdən istifadə etməzdi. İmkanlı ailə olmağımıza baxmayaraq anam həyətin giriş qapısını açarla bağlamağa qoymazdı. İstər rayonda, istər yaylaqda qonşulara, əlsiz –ayaqsızlara əl tutar, ondan pul istəyənlərə borc verərdi. Xörəkləri, turşuları, motal pendirini özü hazırlayardı. Bir dəfə olsun kişilər oturan məclisdə olmazdı. Atamın işi çox olduğundan bizi o tərbiyə edərdi. Aybəniz gözəllikdə anama oxşamışdı. Mən isə necə doğulduğumu sizə demişəm. Bizi çox qapalı saxlayırdılar. Mən də, Aybəniz də bir şey almaq və yaxud kinoya getmək lazım olanda anamdan icazə alardıq. Məktəbdə həmişə üzlü uşaqlar bizi aldadıb yaxşı qələmləri əlimizdən alardılar.

Aybəniz orta məktəbi bitirəndə atam onu İstisu sanatoriyasında tanış olduğu və neçə illər dostluq etdiyi

Azərbaycan Pedaqoji İnstitunda dekan işləyən professor Əlizadənin evinə apardı. Əlbəttə atam əvvəllər olduğu kimi indi də əliboş gəlməmişdi. 30 kilodan artıq 4 illik qoç cəmdəyi, dağ balı, qoyun südündən motal pendiri, təzə nehrə yağı, isti təndir çörəyi,s ac üstü yuxa və sairə. Qoca professor bunları görəndə Salmanı qucaqlayıb üzündən öpür:- Sağ ol Salman bunlar hamısı əladır. Axı biz nə qədər imkanlı olsaq da belə şeyləri buralarda tapa bilmirik. Sonra Salman Aybənizin məsələsini söyləyir. Professor söz verir, Salman heç narahat olmasın. Aybəniz dil və ədəbiyyat fakültəsinə qəbul olunacaq. Elə Aybəniz özü də biliklidir. Elə bizdə qalar. Qızım Sevda özü onu imtahanlara aparar. Sən qayıt get işinlə məşğul ol. Atam cibindən 2000 manat pul çıxarıb stolun üstünə qoyur. Lakin professor pulu götürmür:

-İş düzələndə verərsən. Bir aydan sonra Aybəniz məktəbə qəbul olunanda atam yenidən o pulu ona vermək yenə götürmür:

-Salman sağ ol sən mənə çox hörmət etmisən. Deməyə çətinlik çəkirəm. Bilirsən də bizim Sevda qızımız nişanlanıb. Əgər sənə çətin deyilsə bizə cehizlik üçün bir az yaxşı yun düzəlt. Bax onda atamın əsl zirəkliyi özünü göstərir. Anam Dilarənin köməkliyi ilə nəinki bir az düz 100 kilo əla yun tapıb professora verir. Professor bu dəfə sevindiyindən Salmanı qucaqlayıb öpür.

Atamın Bakıda iki otaqlı evi vardı, imkanı yaxşı olanda hansısa fəhlə qohumumuzun adına almışdı. Əvvəlcə Aybəniz və sonra mən o evdə qaldıq. Aybəniz institutu bitirən ili mən ali məktəbə qəbul olundum. Özü də inşaat mühəndisliyinə. Söz yox, yenə atamın köməkliyi ilə. Orta məktəbdə hərdən yaxşı şəkillər çəkirdim. Yazıq kişi də elə

bilirdi mənim istedadım var. O biri institutlardan fərqli texniki institutlarda oxumaq çox çətindi. Burda gərək çertyoj çəkməyi bacara biləydin ki, kurs işlərini semestr imtahanlarına qədər qurtarıb təhvil verməlisən imtahanlara buraxılasan. Həm tənbəl, həm də elə savadlı olmadığım üçün bu işlərin öhdəsindən gələ bilmirdim. Atamın hər semestr imtahanları vaxtı göndərdiyi 1000 manat pulla savadlı tələbələrə pul verib işləri gördürürdüm.

Xarici görünüşüm yaxşı olmasa da geyimim, pul xərcləməkdə əliaçıqlığım qızları mənə yaxınlaşdırdı. Dmitrov küçəsində xüsusi hallar üçün kirayə etdiyim qapısı küçəyə açılan otağıma hər gün qızlar gələrdi. Mən xoşuma gələni yanımda saxlayıb qalanları rədd edərdim.
Yay tətillərində isə istirahət evlərində dincələrdim. Daha beş il kecdi. Mən institutu bitirib rayonumuza qayıtdım.

Ailəmizdə dəyişiklik olmuşdu. Bacım Aybəniz Məmməd adlı oğlana ərə getmişdi. Məməd rayon mədəniyyət şöbəsində təlimatçı işləyirdi. Doğrudur gözəl yaraşıqlı oğlan idi. Savadlı olsa da, amma yaman üzlü adamdı. İncəsənət institunun mədəni-maarif fakültəsini bitirmişdi. Məmmədgil şəhərin mal bazarı tərəfində olurlar. Çiy kərpicdən bir otaqlı evləri var. Anası Məsmə arvad hələ Məmməd körpə olarkən ərindən ayrılmış, çörək zavodunda fəhlə, sonralar məktəbdə qulluqçu işləyə-işləyə oğlunu böyütmüş, ona ali təhsil vermişdi. Aybənizi də Bakıdan tanıyırmış. Aybənizin etirazına baxmayaraq bu yoldan geri çəkilməmiş və nəhayət bacımın ona ərə getməyə razılğını almışdı. Atamın bu sevdadan heç xoşu gəlməmişdi. Amma sevimli qızının xətrinə dəyməmişdi. Buna baxmayaraq bəzi qabaqlayıcı tədbirlər görmüşdü. Aybənizin adına şəhərin yenicə inşa edilmiş 2 mərtəbəli 12 mənzilli binadan 3 otaqlı mənzil alır. İçərisini isə Aybənizin cehizi ilə

doldurur. İş o yerə gəlir, hətta Məmmədin anasının verdiyi bir dəst yorğan döşəyin otağa gətilməsi də lazım olmur.

Tikinti idarələrinin birində əvvəlcə iş icraçısı köməkçisi, sonra isə iş icraçısı oldum. Mənim qəbul etdiyim sahə tikintisi uzun illər yarımçıq qalmış beşmərtəbəli bina idi. Birinci mərtəbə qurtarmış, ikinci mərtəbə başlansa da sonradan tikinti dayandırılmışdır. Yaman ilişmişdim. Mən bilmirəm necə oldu cavan, təcrübəsiz mütəxəssisə belə məsuliyyətli işi tapşırıdlar. İşə heç cürə başlaya bilmirdim. Keçmiş iş icraçısının qohumları fəhlələr də elə onunla birlikdə işdən çıxmışdılar. İşləri aparmaq üçün usta və fəhlələr tapılmırdı. Bunun səbəbi Göytəpədə tikinti idarələrinin sayının çox, əhalinin az olmasıdır. İşə təyin olunduğumdan bir ay vaxt keçməsinə baxmayaraq mən bir dənə olsun daşı daş üstünə qoya bilməmişdim. Axşam evdə vəziyyəti atama deyəndə o da telofonu götürüb rəisim Əhmədova zəng etdi.

Ertəsi gün rəis məni yanına çağırıb bir məktub verib:–

Maşın götürüb Qarabulağın Zeynallı kəndinə gedərsən, orada briqadir Alışan deyirlər tapıb bu məktubu ona verərsən. Deyərsən məni Əhmədov yollayıb. Elə etdim. Alışanı tapıb məktubu verdim. Alışan məktubu oxuyub: –

Yoldaş Əhmədova deyərsən mən razı. Bu gün beşinci gündür. Birinci gün saat 7-də avtobus dəmiryol keçidinin yanında olsun. Sevindiyimdən bilmirdim nə edəm və Alışana təklif etdim əgər vaxtı varsa bu şad xəbəri qeyd edək. Dağlara tərəf qalxıb yaxşı kababxana tapıb əməlli-başlı yeyib içdik.

İşlərim qaydasına düşmüşdü. Alışanın gətirdiyi işçilərin və habelə rəisimin yaxından köməyi ilə 2-ci,3-cü və 4-cü mərtəbələləri tikib qurtardıq. Rəisin tapşırığı ilə işlərə baş mühəndis nəzarət edirdi.

Mən inşa etdiyim tikintinin yanında iki mərtəbəli binada bir idarə yerləşirdi. Deyəsən maliyyə idarəsi vardı. Arxasında məhəccərlənmiş açıq eyvan vardı və bir neçə cavan qız hərdən çıxıb orda söhbət edərdi. Mən gündə bir neçə dəfə yuxarı çıxıb görülən işlərə baxardım. Son günlər usta yanında işləyən cavanların öz yerində olmadıqlarını hiss etdim və onları axtaranda gəlib tikintinin həmin idarəyə tərəf olan pəncərələrinin yanında tapırdım. İdarə binaya çox yaxın idi. Cəmi 5-6 metr aralı olardı. Mən fikir verdim, qızlar aşağıdan, oğlanlar isə yuxarıdan bir–biri ilə söhbət edirlər. Mənimkilər məni görən kimi o saat qaçıb öz iş yerlərinə getdilər. Belə şeylərə sonralar da tez-tez rast gəlsəm də üstünü vurmurdum.

İş otağım da elə həmin idarənin yaxınlığında idi. Ayın axırı idi. İşçilərin əməkhaqqı naryadlarını yazırdım. Qapı döyüldü. Başımı qaldıranda qapıda dayanmış bir qız gördüm:-

Gəlmək olar? Onu içəri dəvət etdim və dərhal tanıdım. Burada işləyən qızlardan biri idi. Əlində 3 məktub vardı. Məktubları sağ əlində tutmuş sol əlini açaraq ovcunun içinə döyəcləyirdi.

-Buyurun sizi eşidirəm. Sonra ona baxdım. Balaca boy idi. Amma şən əhval ruhiyyədə. Gözləri parıdayır, dodağında təbəssüm vardı. Deyirdin bəs uşaqdır. Sakit dayana bilmirdi.

-Sizdən bir xahişim var. Bilirsiz mənim qızlarım sizin oğlanlara, yox-yox sizin oğlanlar mənim qızlarıma vurulub. Sizin keçirdiyiz reyddən sonra onlar söhbətləşə bilmirlər. Öz ürək sözlərini məktubla göndərirlər və mənim sizdən xahişim budur ki, bu məktubları öz sahibinə çatdırasınız. Mən cavan oğlan olduğumdan bu işin fərqinə varmadım/ Cavab verdim:

-Baş üstə. Sonra məktubları alıb üzərinə baxdım. Çox primitiv, səlqəsiz kobud surətdə yazılmışdı.

Sarıgüldən –Pənaha

Nübardan– Sədrəddinə

Natelladan -Mətləbə .

Mən -Bəs Mətləb kimdir. Bizdə belə işçi yoxdur dedim.

-O sürücüdür. Bura hərdən yük gətirir. Mən qonağıma söz verdim ki, dediklərini yerinə yetirəcəm və o da mənə təşəkkür edib getdi. Ancaq iş bununla bitmədi. Bir neçə gündən sonra o qız yenə əlində üç məktub yanıma gəldi. O:

-Mən yenə məktub gətirmişəm, yəqin acığınız tutacaq. Gözlərinin içi bic-bic gülürdü. Mən onu qarşımdakı stula dəvət edib:

-Əyləşin, gəlin tanış olaq. Mənim adım Vasifdir. Siz o idarədə işləyirsiniz?

-Mənim adım Zəminədir. Sizi, bacınız Aybəniz müəlliməni, ananızı tanıyıram. Biz beş qız bura qəbul olunmuşuq, staj topalayaq, növbəti qəbul imtahanlarına gedəndə işləməyimiz haqda arayış ala bilək. Birimizdən başqa biz dörd qıza heç əməkhaqqı da vermirlər. Bütün günü eyvanda olub söhbət edirik. Sizin oğlanlar gələndən sonra bizim qızları bəyəndilər. Bu işdə mən onlara kömək edirəm. Mənə qızlar zarafatla “aradüzəldən” deyirlər.

Onda mən ondan soruşdum:

-Bəs dördüncü məktub hanı? Siz belə dilli-dilavər, həm də qəşəngsiniz, necə olur özgələrinə adaxlı tapırsınız özünüzə yox. Zəminə

-Siz öz oğlanlarınızı nəzərdə tutursunuzsa mənim onlardan xoşum gəlmir. Onlar kobud və mədəniyyətsizdirlər. Odur Pənah Sarıgülü çağırıb, gəl söhbət edək. Yazıq ona yaxınlaşmağı ilə qayıdıb qaçmağı bir oldu. Soruşduq ay qız nə oldu. Niyə tez qayıtdın. Deyir ki, bəs Pənah qucaqlayıb öpmək istəyirdi. O kimdi məni öpür. Hələ heç tanış olmamışıq. Bir–birimizi tanimırıq. Mənim isə sizdən xoşum gəlir.

O özünü çox sərbəst aparırdı. Belə söhbətləri adətən ziyalı ailələrdə böyümüş, dünyagörüşü geniş olan qızlar edə bilərdi. Bununla belə mən:

-Mənim nəyim xoşunuza gəlir? Arıq ,uzun cılız oğlanam. Başım da getdikcə dazlaşır. Hələ belimdəki qüsuru demədim.

– Yox elə deməyin. Məsələ sizin xarici görünüşünüzdə deyil. Siz mədəni oğlansınız. Geyiminiz, danışığınız, hərəkətləniz

alicənablığınızdan xəbər verir. Yaxşı daha bəsdir. Hələlik sağ olun mən getdim. O gedəndən sonra xeyli oturub qaldım. Özümü nə qədər işə yönəltmək istəsəm də də alınmırdı. Durub işçilərin yanına getdim.

Bu arada mənə digər bir binanın tikintisini başlamağa göstəriş verdilər. Rayon prokurorluğuna yeni inzibati bina tikiləcəkdi. Layihəsi yeni memarlıq üslübunda tərtib edilmiş bu bina həm gözəl, həm də tez tikilib qurtarmalı idi. Bunun üçün xüsusi briqada lazım idi. Elə bir briqada ki, bünövrədən tutmuş tamamlama işlərinə qədər olan işlərin hamısını yerinə yetirə bilsin. Uzun müzakirələrdən sonra müəyyən edildi bu işlərin öhdəsindən yalnız o vaxtkı Ermənistan SSR-nin Qafan şəhərindən erməni Qraçikin briqadas yerinə yetirə bilər. Onlar əvvəllər də buralarda işləyib. 6 nəfərdən ibarət olan bu bridanın üzvləri birlikdə beton tökməyi, hörgü hörməyi, ağac və malyar işləruini yerinə yetirməyi bacarır. Təxminən 1983 – cü illər olardı. Məlum “Dağlıq Qarabağ” hadisələri heç kəsin ağlına gəlməzdi. Rəis Əhmədov Qraçikin ünvanını mənə verib dedi. Özünlə bir yoldaş götür Qafana get. Qraçiki tapıb mənim məktubumu ona ver. Sənə bir həftə vaxt verirəm, onları özunlə bərabər gətirərsən. Yoxsa yaxanı verəcəm prokurorun əlinə.

Yeyib –içməyi xoşlayan dostum var idi. Onu da özümlə götürüb Bakı –Yeravan qatarı ilə Qafana getdim. Stansiyadan Qafana maşınla gəldik. Səhər saat on idi. Birinci gün olduğundan hamı işə tələsirdi. Avtomatların birindən Qraçikə zəng etdim. Özüm haqqında məlumat verdim. Şəhərdə dağın döşündə inşa edilən 25 mərtəbəli binanın yanında olduğumu dedim. Köpəkoğlu azərbaycanca təmiz danışırdı. Ümumiyyətlə ermənilərin hamısı azərbaycanca yaxşı bilir. Yaxşı yadımdaır. İnstitutda qocaman rus dili müəllimiz vardı. Sadıq Vəkilov. Qori

seminariyasını Qazağa köçürulüb gətirilməsində onun böyük əməyi olmuşdur. O deyirdi ki, ermənilər ona görə bizim dili yaxşı bilirlər ki, həmişə bizim tabeliyimizdə olublar, ehtiyaclarından bizim işləri yerinə yetiriblər.

Qraçik tez gəldi. Onunla görüşəndən sonra çayqırağı gəzə-gəzə şəhərin yuxarı məhəlləsinə gəlib mənzərəli kafedə açıq havada qoyulmuş stolun ətrafında oturduq. Çayın adı Qəjaran idi. Çox lilli idi. Rəngi paslanmış misə oxşayırdı. Mənə dedilər yuxarıda çayın başlanğıcında polimetal mədənləri var. Bu filizləri su ilə yuyub çaya axıdırlar. Bəzən uran da tapılır. Odur ki, çayın suyundan istifadə etmək çox qorxuludur. Yeməyi təzə vermişdilər. Bizə 35-36 yaşında erməni yaxınlaşdı. Bizimlə salamlaşıb görüşəndən sonra Qraçik :

-Tanış olun bu Rantikdir. Mən bənnayam, o malyardır. Stolun üstündə hər cür yeməklər vardı. Qaban kababı, quzu əti, hinduşka, turşular, nar, üzum, tut arağı, adi araq. Dostumun gözləri parıldayırdı. Biz başladıq, nə başladıq. Məndən başqa hər üçü saat 3-ə qədər yeyib içdilər. Sonra bizi mehmanxanaya aparıb yer aldılar. Dedilər dincəlin. Bildirdilər evə də apara bilərik, amma burda daha rahat ola bilərsiniz. Axşam saat yeddidə gəlib suvaqçı Saşanın evinə gedəcəyik. Mən yuxudan oyanada hiss etdim, başım ağrıyır. Özüm bilirdim, başım niyə ağrıyır. Bu çaysızlıqdan idi. Burada isə çay tapmaq lap müşkül məsələ idi. Dərdimi bizi Saşanın evinə aparmağa gəlmiş Rantikə dedim. Rantik:

-Bizdə heç kim çay içmir. Gedək Saşagilə. O bizdən yaşlıdır. Bəlkə onun arvadı sənə çay tapıb verdi. Saşanın evinə bütün şəhəri dolanaraq piyada gəldik. Şəhərin ən hündür yerində dağın döşündə tikilmiş bu çox geniş həyəti vardı. Həyət yamac aşağı uzanıb gedirdi. Hansı meyvə ağacından

desən burda vardı. Həyətə bir yerdən bilək yoğunluğunda su daxil, sonra Saşanın çəkdiyi balaca arxcıqlarla ağacların dibinə axırdı. Elə burda ağacların altında böyük stol qoyulmuşdu. və yenə stolun üstündə nə desən vardı. Mən dərhal dedim başım ağrıyır. Mənə çay verin. Saşa gülə - gülə çay yoxdur, amma sənə elə dərman verəcəm ağrısı kəsəcək. Evə qayıdıb əlində iki butulka gətirib stolun üstünə qoydu. Bu başı xamralı zoğal arağı idi. Bir stəkan iç ağrısı kəsəcək. Araqadan süzüb bir stəkan içdim. Başım yenə ağrıyırdı. Onda araqdan bir stəkan süzüb mənə verdi:

-Al bunu vur. Başın daha ağrımscaq. İkinci stəkandan sonra başım doğrudan da ağrımadı. Biz Saşanın evindən mehmanxanaya qayıdanda artıq gecə idi. Çay kənarında dayanıb Saşanın evinə baxdım. Saşanın evi burdan ən azı 500 metr hündürlükdə olardı. Ertəsi gün Rantik bizi Qafan yaxınlığında olan Qızıldaş yaylağına apardı. Yol boyu rastlaşdımız yerləri Rantik göstərib bir adlarını deyirdi. Bu adların hamısı bizim əcdadlarımızın verdiyi adlar idi. Haçaqaya, Dəvəggözü, Naltökən və sair. Doğrudur o vaxtı biz bunun fərqinə varmırdıq. Fikiləşirdik SSSRİ bizim vətənimizdir. Qızıldaşda sanatoriya da var. Axşam yenidən şəhərə qayıtdıq. Nəhayət Qafana gəlişimizin 5-ci günündə briqadanın bütün üzvləri bir yerə yığıldı. Mən sevinirdim. Bazar günü Qafandan yola düşüb birinci gün Göytəpədə olacaqdıq. Hamıdan böyük Saşaya təklif etdim. Briqadanın bir yerə yığılması münasibəti mən qonaqlıq vermək istəyirəm. Özü də ən yaxşı restoranda. Əlimi cibimə salıb pulumu göstərdim. Bax Əhmədov verib.Tapşırıb uşaqlara yaxşı bax. Amma yalan deyirdim.Pulu atam vermişdi. Axşam restoranda olduq. Hamı üzünü qırxdırmış, saçlarını düzəldirmiş, əla geyinmişdi. Sifariş verildi. Yeyib–içmək başlandı. Məclis getdikcə qızışırdı. Orkestr öz işində idi. Bir-birinin ardınca erməni mahnıları

oxunurdu. Mənim ağlıma bir fikir gəldi. İstəyirdim ətrafdakılar bilsin ki, biz də buradayıq. Odur ayağa
durub oxuyan oğlandan xahiş etdim bir “Sarı gəlin “ mahnısını azərbaycan dilində oxusun. O da baş üstə deyib, əvvəlcə çıxış edərək burada Azərbaycandan gələn qonaqlar olduğunu, bizim birgə yaşadığımızı, bir-birimizdən qız alıb, qız verdiyimizi qeyd elədi və həzin səslə “Sarı gəlin oxumağa başladı. Salonda tam sakitlikdi. Lakin mahnı yarıya çatar-çatmaz qonşu stollardan bir oğlan durub oxuyan
oğlanın yaxasından yapışıb öz dilində nə isə qışqırara onu silləməyə başladı. Bir neçə nəfər tökülüşüb oxuyanı onun əlindən aldı…

Oğlandan əl çəkən erməni bu səfər bizə çumdu. İndi azərbaycanca

– İt uşağı siz nə cürətlə bu mahnını sifariş vermisiniz. Axi bu bizim mahnıdır. Rantik onun qarşısını kəsib, o da azərbaycanca

– Spartak yaxşı lazım deyil. Axı onlar mənim qonaqlarımdır. Vəziyyət pisləşirdi. Artıq qonşu stollardan da bir neçə cavan erməni gəlib Spartaka qoşulurdu. Mən ofisiantı çağırıb hesabı verdim. Briqada bizi dövrəyə alıb restorandan çıxardı. Qəribə idi. Qapının yanında milisoner də vardı. Sakitcə durub baxırdı. Sanki baş verənlərin ona dəxli yox idi. Rantik Spartakın yanında qalmışdı. Yarım saatdan sonra gəlib bizə çatdı. Üzünü mənə tutub dedi. Vasif siz elə bu saat şəhəri tərk eləməlisiniz. Biz səhv etmişik. Onlar hansısa gizli cəmiyyətin üzvləridir. Bu zəhrimar mahnı bəhanədir. Bir azdan onlar şəhəri ayağa qaldıracaq. Bax onda işlər pisləşəcək. Tələsik mehmanxanaya gəlib, çantaları götürüb Rantıkin çağırdığı maşına əyləşib Qafandan çıxdıq. Butun bunlar heç yarım

saat da çəkmədi. Mən buraları tanımadığımdan bilmirdim, hara gedirik. Gəlib bir dəmir yol stansiyasına çatdıq. Sürücü bizi maşından düşürüb dedi: -Qorxmayın bura Naxçıvandır. Bir azdan Noraşen –Bakı qatarı gələcək. Ona minib evinizə gedərsiniz. Daha bizə qorxu yox idi. Öz elimizdə, obamızda idik.

Mən bilmirəm belə hadisələr necə baş verir. Amma mən ona rast gəldim. 1988-ci il idi. İş yoldaşlarımla birlikdə Moskvaya qısa müddətə gəzməyə getmişdik. Qayıdanda Gürcüstandan olan yoldaşımız xahiş etdi ki, Moskva –Tbilisi qatarı ilə Gürcüstana gedək, o valideynləri ilə görüşsün, oradan Bakıya gələk. Küpedə üç nəfər idik. Dördüncü yerin sahibi hələ gəlməmişdi. Qatar növbəti stansiyada dayananda bizim küpeyə bir oğlan daxil oldu. Onu o saat tanıdım. Spartaqk idi. Paltarını dəyişib, yatağını düzəldəndən sonra yanımızda oturdu. Qatar tam sürətlə hərəkət edirdi. Mən:

-Salam Spartak xoş gördük. Adını eşidən Spartak çox təəccübləndi. Elə bizimkilər də məəttəl qalmışdı.

-Hə uşaqlar mən bu oğlanı tanıyıram. Özü də ermənidir. Sonra uşaqlara Spartakın Qafanda başlmıza gətirdiy oyunlardan danışdım. Yenidən Spartaka:

-Bax indi biz üç nəfərik, sən tək. Amma sən qorxma. Biz sənə toxunmayacağıq. Çünki biz Məhəmməd ümmətiyik. Ürəyimizdə Allah qorxusu var. Ancaq səndən bir şeyi xahiş edirəm. Gərək düzünü deyəsən. De görüm “Sarı gəlin “ sizindir yoxsa bizim. Spartak heç fikirləşmədən cavab verdi:-

Əlbəttə Sizin. Bir də axı mən nə bilim bu mahnı kimindir. Fəhlə babayam.

-Yox sən fəhlə deyilsən ekstremistsən. Özü də erməni ekstremisti. Buraya, Moskvaya da ona görə gəlmisən, öz başbilənlərindən yeni təlimat almaq üçün. Bununla söhbət bitdi. Rostovda qatar xeyli dayanır. Biz aşağı düşüb vağzalda gəzindik. Qayıdanda Spartakı görmədik. O əşyalarını götürüb harasa əkilmişdi.

Söz verdikləri kimi briqada vaxtında gəldi və mən hər iki tikintidə işləri aparırdım. İşlər əla gedirdi. 6 aydan sonra hər iki binanın üstü vurulmuş, arakəsmələr hörülür, qapı, pəncərə blokları yerinə qoyulur suvaq işləri aparılırdı. Bu arada hər iki binanın istilik sistemi, qazanxana və su xətlərinin çəkilməsi üçün quraşdırıcılar gəldi. Hər dəstədə cəmi 3-4 adam vardı. Bu adamlar tapşırılan işi vaxtında yerinə yetirdilər. Onların prorabı ( propab rus sözü olub –proizvoditel rabot- işləri aparan deməkdir) da görülən işlərə smeta tərtib edib yanıma gətirdi. Yerinə yetirilmiş işlərin məbləğini görəndə az qaldı qışqıram. Soruşdum, necə olur hərənizin 3-4 adamı var, amma bu işi yerinə yetirirsiniz. Onlar məni başa saldılar ki, işlər smetada göstərisədə biz bəzilərin yerinə yetirmirik, nəticədə az adamla şox iş görub yaxşı pul qazanırıq.

Ümumiyyətlə prorab işləmək mənim xoşuma gəlmirdi. Bu barədə dəfələrlə atama demişdim. Çox məsuliyyətli, ağır işdir.

Zəminə ilə münasibətlərimiz çox irəli getmişdi. Artıq biz bir-birimizi dəlicəsinə sevirdik. Onu da deyim ki, bizim ara düzəldənimiz Zəminənin sayəsində mənim oğlanlarımın ikisi də evlənmişdi. Sürücü Mətləbin məhəbbəti yarımçıq qalmışdı.

Natellanı özü bilmədən atası uzaq qohumu, yenə Qarabulaqdan olan 42 yaşlı restoran müdirinə ərə vermişdi.

**Müəllifdən:–***Mən Vasifin dəftərindən təxminən 5 vərəq bu kitaba daxil etmədim.Vasif bu vərəqlərdə tikint i,onun aparıması, materillar, plan,t əhlükəsizlik qaydaları, o dövrdə keyfiyət yox, kəmiyyətə üstünlük verilməsi və habelə Zəminə ilə olan sevgisinin hər anı haqqında geniş məlumat verir. Oxuculara isə Vasifin həyatının davamı daha maraqlı olduğundan həmin vərəqləri sonrakı nəşrlərə saxladım.*
Zəminə gözlədiyimdən də yaxşı idi. Artıq onunla evlənməyimə qərar vermişdim. Ancaq adi təsadüf nəticəsində eşitdiklərim məni Zəminədən ayırdı. Səbəbini Siz artıq bilirsiniz. O vaxt Zəminəyə kiçik bir məktub yazıb bildirdim ki,səninlə mənimki tutmaz və bir daha onunla görüşmədim.

Bu arada işlədiyim idarənin bütün işçilərini səfərbər edib ilin axırına qədər təhvilə gedəcək obyektin tikintisinə apardılar. Tam dörd ay öz tikintimə baş çəkə bilmədim. Bir dəfə vaxtım olanda ora getdim. Yavaş –yavaş mərtəbələri,o taqları gəzib, yarımçıq qalmış işləri qeyd edirdim. Bilirdim tezliklə qayıdacağıq. Nəhayət axırıncı blokda ikinci mərtəbədə olan mənzilə girəndə qəribə mənzərə gördüm. Mənzil məskunlaşmışdı. İçəridəkiləri də tanıyırdım. Carpayıda oturan qonşuluqdakı idarənin müdiri Murad Dəmirov, o birisi mənim qaravulçum idi. Məni görəndə hər ikisi ayağa qalxıb mənimlə görüşdülər. Otaq səliqəli düzəldilmişdi. Yanda çarpayı, ortada stol qoyulmuşdu. Hər tərəf kitabla doluydu. O biri kiçik otaq isə mətbəx idi.

-Hə, Vasif bala necəsən? İşləriniz necədir? Atan deyəsən bizdən küsüb. Bu otağı rəisin Əhmədovdan xahiş edib

müvəqqəti istifadə edirəm. İşdə yorulanda gəlib burda dincəlirəm. İdarə müdiri atamla möhkəm dost idi. Bir–birinə çox oxşayırdılar. Dəfələrlə qış aylarında qısa müddətli istirahətə birgə gedərdilər. Başlarına geydiy papaqlar həmişə seçilərdi. Gah alimlərin qoyduğu papaqlardan, gah da mərkəzi kömitə üzvlərinin geydiyi samur, qaragül dərilərindən tikilmiş kepkalardan geyərdilər. Uşaqları ilə də dost olmasam münasibətim var. Onlarla sağollaşıb işimə davam etdim, baxışı qurtarıb iş otağıma gəldim. Qeydlərimi iş dəftərimə köçürmək istəyirdim. Qapı döyüldü. Qaravulçu idi. Əlimlə stulu göstərib oturmasını işarə etdim.

-Bura bax, o burda neyləyir? Necə yəni yorulanda gəlib burda dincəlirəm. Onun kabinetində bütün şəraiti olan istirahət otağı var.

-Ay oğul səndə onun dediklərinə inanırsan. Hamısını yalan deyir. Elə zibili həmin o istirahət otağında qarışdırıb. O gördüyün otaq onun evidir. Arvad, uşaq yığışıb evdən qovublar. Yadındadır Zəminəgil 5 qız bu idarədə işləyirdilər. Beşinci qızı tanımırsan. O kənddən gəlib. Eyvana çıxmağa da Dəmirov icazə vermirmiş. İri cüssəli, dolu bədənli qızdır. Qoca kaftar bu qızı özünə ov seçir. Arvadının xəstə olmasını, tezliklə öləcəyini, onunla evlənəcəyini, özünə məxsus evi onun adına keçirəcəyini vəd edir. Nəhayət bu əclaf öz məqsədinə çatır və yavaş-yavaş qızdan uzaqlaşır. Lakin qızın hamilə olması xəbəri işləri korlayır. Qızın qohumları şikayət edir. Dövlət adamı olmasına baxmayaraq xanımı, övladları onun bu hərəkətini heç cürə bağışlaya bilmirlər. Evdən çıxardırlar. Dəmirovun xanımı çox gözəl, həm də ağıllı qadındır. Üstəlik birinci katibin xanımı ilə rəfiqə imiş. Onlar da Dəmirovun cəzalanmasını istəyirlər. Birinci katib təcili iclas çağırır. Elə iclasda onu ayağa qaldırıb

-Dəmirov sənin neçə yaşın var?

-58 yaş. Sən axmaq iş tutmusan. Uzaqbaşı 3-4 il səninki olacaq. Sənə toxunmuram. İşçi kimi yaxşı işçisən. Get camaatın qızını necə aldatmısan, elə cəzanı çək. O qızla evlən. Yoxsa səni 10 il həbs gözləyir. İndi Dəmirov ev axtarır. Bir də rəsmi boşanma olmalıdır. Evi alandan sonra qızı gətirib saxlaycaq. Vəzifədə də müvəqqətidir. İndi o hadisədən uzun illər keçib, amma mənim yaxşı yadımdadır. Heç bir il keçməmiş Dəmirovu işdə yol verdiyi noqsanlara görə vəzifəsindən azad etdilər. Cəmiyyətdəki mövqeyini itirən, sevimli xanımından, övladlarından ayrı düşən Dəmirov heç 2 il də yaşamadı.

25 yaşım tamam olurdu. Mən iş yerimi dəyişmişdim. Çoxdan arzuladığm avadanlıqların quraşdırılması üzrə prorab olmuşdum. Bizim idarə Bakıda yerləşirdi və respublikanın hansı bölgəsində iş olurdusa ora gedirdim. Evimizə Şəmkirdən gəlmişəm. Orada şərab zavodu tikilir. Bir həftə burda olacağam. Gəlişimi eşidən Aybəniz və əri Məmməd bizə gəlib. Bir azdan atam da gələcək. Məmməd indi rayon partiya kömitəsinin təlimatçısıdır. Onun sənədlərini Ali partiya məktəbinə hazırlayırlar. Yeni dərs ilində dəvət etməlidirlər. Ali partiya məktəbi bitirəndən sonra güya hazır kadr olacaq. Partiya hara məsləhət bilsə ora göndərəcək. Bunların hamısını atam edir. Aybəniz ərə gedəndən az sonra Məməd musiqi məktəbinə direktor olur. Oradan da raykomda təlimatçı. Birinci övladları artıq 3 yaşında olan Yusifi anam saxlayır. Aybəniz yenə hamilədir. Atamın Məmməddən heç xoşu gəlmir. Doğrudur çox savadlıdır. Amma bu savadlılıq, onun tərbiyəsinə, davranışına kömək etməmişdir. Alicənablığı yoxdur. Yerli-yersiz mübahisə edər, qalib gəlməsi ilə öyünərdi. Daha fikirləşməzdi ki, bu boyda

məclisdə mollanı, seyidi və yaxud ağsaqqalı pərt eləmək olmaz.

Atam gələndən sonra süfrə ətrafında söhbətin əsas mövzusu mənim evlənmək məsələm oldu. Birinci anam öz dərdini dedi.

-Vasif bala bilirsən də bizim evimiz qonaqlı-qaralı evdir. Məndə artıq yaşlaşmışam. Bu böyüklükdə evin, həyətin işini görmək çətindir. Gərək tezliklə evlənəsən. Həm mənə həyan olar, həm də kömək edər. Sonra Aybəniz ona tərəfdar çıxdı. Məmməd də:

-Hə məsəl var "tez evlənənlə tez ayrılan heç nə itirməz". Mən də gülə-gülə onlara cavab verdim, evləndirin də mən nə deyirəm. Amma mənim istədiyim qız yoxdur. Siz dünyagörmüş adamlarsınız. Kimi məsləhət bilsəniz mən razı. Məmməd yenə heç kəsin dillənməsinə imkan verməyib:

-Qız məndə. Bizim musiqi məktəbində bir müəllimə var. Mən orada direktor olandan işləyir. Yaxşı tanıyıram. Çox gözəl yaraşıqlı xanımdır. Özü də 5 nömrəli məktəbdə işləyən Almaz müəllimənin qızıdır. Atam:-

-Yox Məmməd işləyən qadınlar öz ovladlarının tərbiyəsi ilə o qədər də yaxşı məşğul ola bilmir. Nəticədə özgə yerə düşən uşaqlar həyata hazır olmadıqlarından büdrəyirlər. Məmməd:

-Əşşi siz nə danışırırsınız. Mənimlə işləyəndə hərdən onlara qonaq gedərdim. Vallahi Təbəssüm müəllimə bir çay süfrəsi açardı gəl görəsən. Bir də evlənən biz yox Vasifdir. Sabah onu aparıb Təbəssüm müəllimə ilə tanış edəcəm. Bəlkə heç Vasifin xoşuna gəlmədi.

Məmmədlə mən saat 11-də musiqi məktəbində olduq. Məmməd özünü raykom nümayəndəsi kimi aparır. Guya məktəbin vəziyyət ilə maraqlanırdı. Siniflərə daxil oduqca Məmməd sınif müəllimindən nəsə soruşur o da öz növbəsində onların dediklərini qeyd edirdi. Mən isə musiqi alətləri ilə maraqlanırdım. Piyanino sinifində notlarla maraqlandım. Mosart, Bax, Çaykovski, Üzeyir, Soltan Hacıbəyli və başqalarının əsərləri idi. Mən indiyə qədər musiqi məktəbində olmamışdım. Musiqi məktəbi orta məktəbdən çox fərqlidir. Buranın müəllimlərinin, şagirdlərinin davranışı kübar cəmiyyəti xatırladır. Buradakılar adi adamlardan fərqli geyinirlər. Nəhayət biz Təbəssim müəllimənin sinfinə daxil olduq. Müəllimə sinifdə tək idi. Məmməd

-Salam müəllimə! Səsə dönüb baxan Təbəssüm Məmmədi gördü:

-O Məmməd xoş gəlmisən. Sən hara bura hara? Və yaxınlaşıb Məmmədin üzündən yavaşca öpdü. Sonra məni göstərib:

-Bu oğlan kimdir? Nə qəşəng geyinib.

-Mənim xanımım Aybənizin qardaşıdır. Gətirmişəm sizi tanış edim. O da subaydır, sən də maşallah qəşəng qızsan. Buyurun tanış olun. Mən təəccüb içərisindəydim. Necə olur Məmməd o biri siniflərə daxil olanda hamı ayağa qalxırdı. Müəllimlər özlərini yığışdırırdı. Üzlərində həyacan, təlaş olurdu. Amma Təbəssüm özünü o yerə qoymur. Çox sərbəst idi. Sinifdə də heç kim yox idi. İndi o vaxtdan 25 il sonra bu sözləri yazarkən baxıb görürəm onlar bir-birini sevirmiş. Sadəcə Məmməd bacımın ondan imkanlı olmasını,

atamın daimi arxa olacağını nəzərə alaraq Aybənizlə evlənmişdir. Nə isə mən sizi yormacağam. Mən Təbəssüm müəllimə ilə evləndim. Amma deyəsən çox səhv etmişdim. O çox kobud və savadsızdı… Musiqi müəllimməsi olsa da musiqidən başı çıxmırdı. Stol arxasında da özünü apara bilmirdi. Çəngəl, bıçaqdan istifadə edə bilmir, yemək yeyərkən tikələri əlinin baş barmağı ilə ağzının içərisinə itələyirdi. Xörək bişirməyi də bacarmırdı. Kartof bişirərkən ya yandırardı, ya da ala–çiy olardı. Ən sadə yemək olan qayqanağı dadsız olardı. Geyiminə gələndə bahalı paltarlar alsa da zövqsüz geyinərdi. Bizim ailənin ad-sanına hörmət etməzdi. Gah yubkası dizdən yuxarı olardı, qəşəng, düz yoğun budları çılpaq qalardı, və yaxud uzun yubka geyinəndə koftası qısa olar, əyiləndə, qalxanda qarnı, kürəyi görünərdi. Heç üç ay keçməmiş səbirli, dözümlü anam özünü saxlaya bilməyib qəti qərar verdi:

-Bunu bu evdən rədd eləyin. Əgər sözümə baxmasanız özüm gedəcəm. Onun bu sözlərindən atamla, mən bərk gülüşdük.

-Niyə gülürsünüz? Elə bilirsiniz getmərəm? Atam da mən də onu qucaqlayıb sakitləşdirdik. Sonra atam kiməsə zəng edib, onunla söhbətləşdi. Qurtarandan sonra üzünü mənə tutub dedi:

-Mənim işçilərimdən biri fərdi ev tikdirib, bir neçə aydır ora köçüb. İndi onun 2 mərtəbəli binanın birinci mərtəbəsindəki üçotaqlı mənzili boşdur. Danışdım sabah açarı gətirib verəcək. Vasif sən gedib evə baxarsan, lazımı materilları alıb evi yaxşıca təmir elətdirib ora köçərsiniz. Orda daha sərbəst yaşayarsınız. ***…ardı var…***



**Seymur SÖNMƏZ (PAŞAYEV)**

## MÜƏMMALI MƏHƏBBƏTİN GİZLİ KODU

*(hekayə)*

Səma ilə ilk tanışlığı iki il əvvəl, sosial şəbəkədə olmuşdu. Əslində dostluq təklifini də qızın özü etmiş, "messenger"lə göndərdiyi bir neçə şəkil aralarında ilıq münasibətlər yaratmışdı. Hələ üzünü görməsə də ürəkdən vurulmuşdu qıza. Telefonla tez-tez danışırdılar. "Vatçap"da görüntülü danışıqlar davam etdikcə, ən gizli sirlərindən də halı olmuşdular…

Səma Bakıya yaxın qəsəbələrdən birində yaşayırdı. İlk virtual tanışlıq zamanı dediyinə görə özəl ali məktəblərdən birində oxumuş, valideyinlərinin təhriki ilə yaxın qohumlarından birinin oğlu ilə nişanlanmış, toylarının üstündən heç bir il keçməmiş ayrılmışdılar. Səma özü imtina etmişdi bu evlilikdən. Günahı ərə getdiyi oğlanın özündən çox, onun valideyinlərinin ayağına "yazmışdı". Qızın dediklərindən bilmişdi ki, gəlin köçdüyü ailənin imkanları geniş olsa da, buradan dava-dalaş əskik olmurdu. İki baldızından biri-böyüyü-iki il qabaq qonşu ölkələrdən birinə qaçıb getmiş, elə o vaxtdan da, ondan heç bir soraq gəlməmişdi. Qızların balacası isə orta məktəbi bitirən kimi ata-anasından xəlvət varlı bir kişi ilə bir müddət gizli yaşamış, ondan ayrılandan sonra isə, şəhərdəki gecə barlarının birində işə düzəlmişdi. Həmin qız da ata-ana

tənbehindən bezərək, günlərin birində evi tərk edib harasa çıxıb getmişdi. Arabir anası ilə danışanda gürcüstan əsilli birisiylə ailə qurub, Rusiyada yaşadığını deyirdi. Səmanın əri də bu ailənin "zay" törəməsi idi. Narkaman dostları ilə gəzib dolaşır, evə qayıdanda da, hamının canını boğazına yığırdı…

Səma bu müsibətə cəmisi on bir ay tab gətirə bilmişdi. Valideynlərinin etirazına baxmayaraq, ər evini tərk edərək geri qayıtmışdı. Atası bir müddət onunla küsülü qalsa da, axırda övladının taleyi ilə barışmalı olmuşdu. Əslində, anasına dediyi kəlmələr atasının qulağına çatandan sonra kişi vəziyyətin ciddi olduğunu, qızın evdən baş götürüb gedəcəyini anlayaraq güzəştə getmişdi. Ürəyində düşünmüşdü ki, onsuz da Səmanın dönük taleyinin səbəbkarı özüdür, sonrakı biyabırçılıqdansa, elə bəri başdan övladına arxa-dayaq olub, onun incik könlünü şad etməyə çalışmalıdır…

Ailənin günü-güzəranı pis keçmirdi. Atası uzun müddət yaxın xaricdə hərbçi olduğundan yüksək pensiya alır, şəhərin ucqar yerlərindən birində sahibkarlıq fəaliyyəti ilə məşğul olurdu. On nəfərə yaxın işçisi var idi, həm ailəsini, həm də öz işçilərini dolandırmaq imkanında idi…

Səma bir müddət evdə oturub, gücü çatdığı qədər anasına kömək edirdi. Günlərin birində işləmək arzusunda olduğunu evdəkilərə bildirəndə əvvəlcə atası bir az yumşaq şəkildə dedi:

– A qızım, Allaha şükür, kasıb deyilik, ən yaxşı evlərdən birində yaşayırıq, Bağ evimiz, minik maşınımız da var. Sənin işləməyinə ehtiyac yoxdur axı!

Səma həmin vaxt kipriklərindən süzülən göz yaşlarında boğula-boğula söyləmişdi:

-Ata, onsuz da mənimki heç əzəldən gətirməyib. Evdə qalıb neyləməliyəm ki, Allaha şükür özün demişkən pula ehtiyacımız yoxdur, qardaşım və məndən böyük bacım ailə qurandan sonra köçüb Rusiyada yaşayırlar. Sənin oradakı keçmiş dostlarının köməyi ilə əlləri bir parça çörəyə çatıb. Burada qalıb işləməyimi istəmirsənsə, qoy gedib onlardan birinin

yanında qalım. İnsafən bu dəfə anasıının özü də Səmanın tərəfini tutdu:
-Qızım, atanın elə deməyinə baxma, sənsiz yaşaya bilməz, axı  evdə səndən başqa kimimiz var ki? Allah qardaşının-bacının canlarını sağ eləsin, ayamda-sayamda bir dəfə üzlərini görürük. Sən də çıxıb gedəndən sonra bəs, biz kimin umuduna qalacağıq?
-Yaxşı, qızım, bu dəfə çalışacağam ki, sən deyən olsun, ancaq mənə bir az möhlət ver. İndi hər adama etibar etmək olmur. Çalışacağam ki, sənə adımıza layiq bir iş tapım. Atası idi bu sözləri deyən…
Aradan üç ay keçsə də iş barədə söhbət bir daha təzələnmədi. Səma  bunu üzə vurmasa da, atasından hələ də cavab gözləyirdi. Evdə bekar oturmaqdan yorulmuşdu, Sosial şəbəkədə elə də çox dostu-tanışı yox idi. Əslində başı daşdan-daşa dəyəndən sonra hər adama inanmırdı. İlk evlilikdən sonra qəlbinin dərinliklərinə qədər gedib çıxan psixoloji zədə sağalmaq bilmir, onu haldan-hala salırdı. Yasinlə xəyali tanışlıqdan sonra əhvalında bir az müsbət əlamətlər hiss olunmaqda idi. Ər evində eşitmədiyi şirin kəlmələri onun dilindən eşitdikcə hiss edirdi ki, sevgi adlı bir dəfedilməz qüvvə onun cismində peyda olmaqdadır…

Yasin ailənin ikinci övladı idi. Uşaq vaxtlarından atasız böyümüşdü. Ağır yol qəzası zamanı həlak olan atasının üzünü doyunca görə bilməsə də, həyatın sərt üzündən yetərincə halı idi. Böyük qardaşı dolanışıq dalınca xarici ölkələrdən birinə üz tutmuş, elə həmin yerdə də türk əsilli bir qızla ailə həyatı qurub yaşayırdı. Özünün deməsinə görə vəziyyəti yaxşı idi. Arabir anası ilə, bəzən də onun özü ilə danışırdı. Hələ geriyə qayıtmaq fikri yox idi. On üç yaşlı sonbeşik bacısı məktəbli idi. Şamaxının qədim məhəllələrinin birində babasından qalma bir evdə yaşayırdılar. Anası məktəblərdən birində xadimə, özü isə çörəkbişirmə sexində işləyirdi. Başqaları ilə müqaisədə dolanışıqları babat idi. Anasının  son vaxtlar giley-güzarı

dilindən əskik olmurdu:

-Bilmirəm heç nəyi gözləyirsən, sənin tayların çoxdan oğul-uşaq sahibi olublar. Bəlkə, qız kimi evdə qarıyıb un çuvalına tay olmaq istəyirsən? Yaşın bu gün-sabah otuzu haqlayacaq. Sən doğrudanmı özümüzə bab bir qız tapa bilmirsən? Əgər belədirsə, mən "arşın malçının" sözü olmasın, çadramı başıma örtüb sənə qız axtarım?

Yaxşı yadındadır, həmin vaxt Yasin anasını bağrına basandan sonra, onun vaxtsız ağarmış saçlarından öpərək demişdi:

-Darıxma, ana, tezliklə səni sevindirəcəyəm.

Ana isə köksünü dərindən ötürərək ona xeyir-dua verib pıçıldamışdı:

-Ancaq ehtiyatlı ol, ha… İndiki qızların bəzilərinin dilləri ilə ürəkləri arasında böyük məsafə olur. Çalış ki, bəyəndiyin qız,-mənim gəlinim-halal süd əmənlərdən biri olsun…

Səma ilə ilk dəfə "kukla teatrının" qarşısında görüşmüşdü. Köhnə dostlar kimi bulvarda əl-ələ tutub xeyli gəzişəndən sonra, "Mirvari" kafesində çay içmişdilər. Həmin gün ilk dəfə görüşərkən qızın dediyi sözləri sonralar dönə-dönə xatırlamışdı: "Yasin, könlümü sənə verirəm, başıma gələnlərdən halısan, etibarsızlığı özümdən yox, səndən gözləyəcəyəm!" Eşitdiyi kəlmələr onu ruhən silkələsə də, cavabı gecikməmişdir: "Sən nə danışırsan, Səma, mən sənin taleyindən yaxşı halıyam, bununla belə əhdimdən-ilqarımdan geri dönən deyiləm, İnşallah, özün də buna şahid olacaqsan!"…

Növbəti görüşlər onların arasındakı sədləri büsbütün yox eləmişdi. Fürsət tapan kimi, xəlvəti bir yerə çəkilib bir-birlərinin boynuna sarılır, illər ayrısı kimi qucaqlaşırdılar. Bir-iki dəfə gözdən uzaq bir yerdə nahar da etmişdilər. Ad günü ərəfəsində görüşəndə Yasin qıza kiçik bir hədiyyə də almışdı. Bundan artığına onsuz da gücü çatmazdı…

Günlər ötüb keçdikcə Yasin qıza elə bağlanmışdı ki, onsuz yaşayacağını heç təsəvvürünə də gətirmək istəmirdi. Ancaq

qız nədənsə çox vaxt fikirli olur, Yasinin arzuladıqlarına rəğmən bəzən özünü qeyri-adi aparırdı. Səmanın laqeydliyini əvvəllər üzləşdiyi arzuolunmaz ailə həyatı ilə ilgili olduğunu düşünəndə ürəyində deyirdi: “Yəqin ki, keçirdiyi sarsıntının izləri hələ də qəlbindən silinməyib. Baxanda, yaxşı qıza oxşayır, çox yaraşıqlıdır, düşünürəm ki, hər şey axırda istədiyim kimi olacaqdır!”

Yasin Şamaxı ilə Bakının arasını su yoluna döndərmişdi. Səmadan ötrü dəli-divanə idi. Xəyallarında yer alan arzuladığı xoş günlərini Səmasız təsəvvürünə gətirmirdi. Təkcə nigarançılığı anasının verəcəyi rəydən, sevdiyi qızın boşanmış birisi olduğunu biləndə deyəcəyi sözlərdən idi. Ancaq bununla belə, Səmaya bəslədiyi sevgisinin yolunu heç xətrini dünyalar qədər istədiyi anası da kəsməyə qadir deyildi. Bilirdi ki, ürəyində anası onunla razılaşmasa da, gec-tez onun xətrinə güzəştə gedəcəkdi. Səma ilə evlənəcəyini qət edəndən sonra, aldığı əməkhaqqınından toy xərci üçün vəsait də toplamışdı. Bu vəsait yetərincə olmasa da, böyük qardaşının toya gəlməsə də, pul göndərəcəyinə əmin idi. Elə də daşürəkli deyildi qardaşı…

Səma ilə növbəti dəfə görüşəndə toylarından da söhbət açmışdı. Qızın razılığını alandan sonra elçi göndərmək fikrində idi. Nədənsə Səma bu dəfə onunla bir az soyuq görüşdü. Səbəbini soruşanda dedi ki, şəhərdəki uşaq baxçalarından birinə işə düzəlib. Bir az vaxt istədi ki, özünə gəlib görsün ki, əli işə yatırmı? Ayrılanda da onu bir az soyuq tərzdə yola saldı. Dənizlə Nargin adasına gedib geri qayıdan gəmi ilə yarımsaatlıq gəzintidən də boyun qaçırıb: “İncimə, Yasin,-dedi- işdən icazəsiz çıxmışam, tez qayıtmalıyam!..”

Sonuncu dəfə görüş üçün paytaxta gələndə, dəfələrlə etdiyi telefon zənginə cavab almadı. Qızın iş yerinin harada olduğunu bilsəydi oraya gedərdi. Ancaq Səma işlədiyi baxçanın ünvanını ona bildirməkdən imtina eləmişdi…

Ürəyini tuta-tuta çox məyus halda geri qayıtdı. Günün

müxtəlif vaxtlarında etdiyi zənglərdən sonra ancaq mobil telefonundan eyni sözləri eşitdi: "Zəng etdiyiniz telefon nömrəsi ya söndürülmüş, ya da əhatə dairəsindən kənardadır!."
Az qala ürəyi partlamaq dərəcəsində idi. Yazdığı mesajlar da cavabsız qalmışdı.
Nə edəcəyini bilmirdi. Ertəsi gün, Səmadan üzücü bir cavab gəldi: "Yasin, məndən incimə, artıq yolun sonuna gəlib çıxmışıq. Buradan o tərəfə səninlə birgə getmək fikrim yoxdur, səbəbini soruşsan da deməyəcəyəm!..

Yasini elə bil, qəfildən ildırım vurmuşdu. Əlləri əsir, dili söz tutmurdu. Səmaya sonuncu dəfə nəsə yazmaq istəyəndə, anladı ki, qız onu dostluqdan silmiş və telefon nömrəsini bloka atmışdı…

Nə qədər fikirləşsə də, Səmanın gözlənilməz hərəkətinin yozumunu tapa bilmədi. Anasının sözləri yadına düşdü: "Ancaq ehtiyatlı ol, ha… İndiki qızların bəzilərinin dilləri ilə ürəkləri arasında böyük məsafə olur. Çalış ki, bəyəndiyin qız,- mənim gəlinim-halal süd əmənlərdən biri olsun!.."
Qəlbinin bulud harayını pışıltıyla dilinə gətirdi: "Düz deyirmişsən, ana, mən Səmanın kimliyini öyrənmədən, ona könlümü verdim. Gərək onun ilk dəfə mənə dediyi: "Etibarsızlığı özümdən yox, səndən gözləyəcəyəm!" kəlmələrindən nəticə çıxaraydım. Heç demə bu kəlmələr müəmmalı məhəbbətin gizli kodları imiş! Sən etibarlı idinsə niyə belə etdin, Səma?..



**Səma MUĞANNA**

**Bütöv ürək**

***Bir gün geri dönəcəyəm…Səndən tək diləyim,bizim səninlə qoruduğumuz tarixləri unutma.Onlar bizə əmanətdir. Biz o tarixlərdə səninlə yenidən qovuşmadıq,düzdü,ancaq biz səninlə yenidən doğulduq…***

Son məktubunda yazdığı söz bu fikirlə bitmişdi.Yenə göz yaşları içində o qatarın gəlişini gözləyirdi.O qapı açılacaq və "mən gəldim" -deyib boynuna sarılacaqdı.İlk idimi bu? Yəni onun boynuna heç vaxt sarılmamışdımı? Yox…Heç vaxt..Təəccüb doğuran isə tək bu deyildi,onların yaşadığı gizli sevgisi idi.

Onlar bir-birlərini sözlərlə,baxışlarla sevməmişdi.Onlar qəlbən,ruhən yaxın idi.Uzun zaman öncə,hətta uşaqlıqdan belə.O ikisi dostluq iplərini göy üzünə atıb,sevgi bağına qaçmışdılar.Bu iki gəncin sevdası heç kəsin bilmədiyi,heç kəsin duymadığı və heç kəsin görə biıməyəcəyi bir sevgi idi.Onlar sevgi məbədlərinin çırağını bir gün işıqlandıracaqdılar.Artıq ona doğru addımlayırdılar…Bu çılğın duyğu ikisinin də damarlarına,qanına hopmuşdu.Baxın,bu iki dəli gənc bir-birinə bu cür bağlı idi.Əgər bir gün ayrılsalar,ömür səhifələrində gizlətdiyi fotoları yandıracaq,tarixləri isə siləcəkdilər.Bəs ikisi? İntihara addımlayan yolun uçurumda bir-

birlərinə söz verib,ayrılacaqdılar.Əslində,onlar ayrılmaq deyil də,yaşaya bilmədikləri xəyallarını boğub öldürəcəkdilər.Bu iki gənc o gün,o tarixdə yanan çıraqları söndürüb,ürəklərini kül etmişdilər.Bəlkə o ürək aylarca kül olan nəfəsini,döyüntülərini kənara atıb artıq həyatıyla barışmışdı,lakin Tanrı bu sevdalıların parça-parça olmuş ürəklərinin yanğısını yaşaya bilmədiklərini,həsrətlə vüsalına çatmaq istədiklərini bilirdi.Ən qəribəsi isə bu iki sevdalını ürəkləri deyil,bütövləşmiş ruhun sevgi donunu geymiş ürək qoruyurdu.O gün isə bu ürək yenidən bütövləşdi,kül olmuş parçaları isə bir-birlərinə olan sevgisini daha da gücləndirdi.Onlar Tanrının dərgahında ucaya qalxdılar və necə? Sevgiləri uğrunda!

Dekabr ayına təsadüf edirdi.Soyuq,qarlı qışın vahimə dolu səsi küçələri bürümüş,pəncərələrin bir küncünə sığınmış yavru pişikləri,itləri qovalayırdı.Sanki dil açmışdı rüzgar.Tufan qoparan üsyankar səsiylə ətrafı ovsunlamışdı.O gün bir hadisə baş verdi.Çox qəribə idi.Bu iki gənc soyuq küçələri qarış-qarış gəzərək,donurdular.Artıq ikisinin də gücü qalmamışdı,amma naməlum olan bir səbəb vardı.İkisi də bir-birini görmürdü.İkisi də bağırtı səsləriylə,göz yaşlarıyla bir-birini tapa bilmirdi,yoxsa həqiqətən də rüzgar bu sevgini ovsunlamışdı? Necə yəni,insanların belə öldürə bilmədikləri sevgini rüzgar yox etmişdi? Təbii ki,yox.Bu sadəcə onlar üçün bir sınaq idi.

Qarlı,çovğunlu havada bir-birinə labirint kimi bağlanmış küçələr bu iki gənci bir-birindən ayrılığa sürgün etmişdi,ancaq onlar bilirdilər ki,bir-birlərini hansı yollarla tapa biləcəklər…

Heç kəsin düşünmədiyi,ağlının ucundan belə keçirmədiyi yol ilə.Bir-birlərinin ayaq izlərini təqib edərək.Göz yaşları sel olub axan küçələrdə qanlı damlalar vardı.Bu yalnız iki gəncin göz

yaşları ola bilərdi.Dediyim kimi onlar bir-birinə ruhən bağlı idi,sözlərlə deyil.

Və sonunda bir-birlərini tapdıqda.İkisi də donub qaldı.Bir-birinin simalarını diqqətlə izləyib,göz yaşlarına boğuldular.İkisi də həm çox yaxın,həm də çox uzaq idilər,sanki doğma və yadlaşmış insan kimi.O an hər şey susdu.Çılğın,dəli rüzgar belə bu sevgiyə tamaşa etdi.

Əllərini qəlbinə qoyub,ikisi də eyni anda söylədi: “Tarixlər unudulmur.Avqust,iyun,dekabr və yol.Başlanğıc nöqtəsindən başlayıb,sonsuzluğa addımlayan yol”.

Bu sözü dedikdən sonra ikisi də qaçaraq,bir-birlərinə sarıldılar.Elə sarıldılar ki,Tanrı gözlərini qapadıb,gülümsəyərək rüzgara işarə etdi…

Onlar ilk dəfə o zaman sarıldılar.Bir-birlərinə sarılmayan,günlərcə danışmayan bu iki gənc ikiyə bölünmüş ürəyi bütöv etdilər…



**Leyla YAŞAR**

**“ÜŞÜYƏN“ OCAQ**

Qapı açılıb örtüldükcə küləyin özüylə bərabər gətirdiyi buz kimi soyuq hava evi soyutmuşdu. Sobanın içindəki közərən od sönmək üzrə idi. Alovlanmağa can atan köz, yorulur, kömürə dönürdü.

– Fevralın qarlı, şaxtalı günündə bu evin sahibləri hara yoxa çıxdı, görəsən?- Bu nədi belə, stolun üstündə mürəbbə, çörək, yağ, pendir, soyulmuş yumurta? Nələr oldu bu evdə?

– Hər səhər yuxudan durub ocağı alışdıran, o əli qabarlı ata, ona kömək edən məktəbli, qaraşın oğlan hardadılar görəsən?

– Anasına kömək edən, o uzun saçlı, nazlı qəmzəli qızcığaz hanı bəs?

– Xəmir yoğurub, üstünü bağlayıb isti sobanın yanına qoyan, hərdən gəlib, xəmirin gəlib-gəlməməsini yoxlayan o xanım haradadı bəs?

Bunlar hara getdi birdən-birə? Lap darıxdım.

– Çöldəki nə səsidi elə? Nə qəribə qoxu var havada?

Ocaq yavaş – yavaş sönürdü. Közərən ağacın içindən sanki göz yaşları süzülür, onu sönməsini tezləşdirirdi.

Üstündən bir neçə gün keçdi .
Deyəsən gələn var idi.
-Aha deyəsən qayıtdılar .
Yanılmışdı .
Həsrərlə qapıya boylandı. Burnuna tanış olmayan qoxu gəldi .
Budur evə yeni sakinlər gəldi .

– Ay aman, bunlar kimdi belə?
Nə səliqəsizdilər. Nə yaman bərkdən danışırlar. Deyəsən bayramlarıdı. İlahi, bu nədi belə?
Yaxınlaşıb sobanın içinə deyinə – deyinə baxan saqqallı gedib bir yaş odun gətirdi. Nə qədər etsədə ocağı yandıra bilmədi. Hirslə sobaya bir təpik vurub, öz dilində nəsə deyib, onu yerli dibli götürüb həyətə tulladı. Hikkəsi soyumadığından zirzəmini açıb, onu zibil kimi ora necə atdısa, dəmir soba bir neçə yerdən zədələndi .

– O günlər harda qaldı? Yayda səliqə ilə çıxarılıb zirzəmiyə qoyulan, qışda nadir tapıntı kimi əzizlənib ordan çıxarıldığı günlər?
Atayla oğul onu ordan ehtiyyatla götürüb, həyətin ortasında rəngləyərdilər, içinə quru odun yıgıb bir-iki gün oradaca yandırardılar . Sonra ananın köməyilə yerinə səliqə ilə yerləşdirər, ilk ocaqlarını çatardılar. Başına yığışıb istisinə qızınardılar. Çox doğma idilər ona. Harda qaldı o günlər?
Zirzəmidə illərlə qalmağa məcbur oldu. Hərdən sevmədiyi zəhirmar yağan sifətlər gəlib zərblə qapını açar, nələrsə yıgıb gedərdilər . Tər-təmiz zirzəmini də zibilliyə çevirmişdi bu yeni sakinlər. Zirzəmidə ona xoş olmayan qoxular bir – birinə qarışmışdı .
Həmişə yayda evin xanımı buradan gəlib bankaları çıxardıb, içərisini səliqə ilə doldurub gətirib yerinə yığardı.
Qışda onun başına yığışıb, o bankaları açıb elə ləzzətlə

yeyərdilər ki…
İndi… Bu nədi, qıcqırmış şərab iyi, qapağı atılmış bankalardan az qala yerə töküləcək şorabaların iyi bir- birinə qarışıb zirzəmiyə xüsusi bir “iy” verirdi.
İllərdi bu acını “yaşayan” dəmir soba artıq dözə bilmirdi. İçində ocaq çatılmayan soba darıxmağa başlamışdı. Köhnə sakinlərin bir gün dönəcəyi günü həsrətlə gözləyirdi. Zirzəmidə mürgü vura-vura illəri bir-birinə calayırdı. Bir neçə gündü çöldə eşidilən, yeri silkələyən səslər yavaş- yavaş azalırdı. Evin sakinlərinin səsi küyü kəsilmişdi. Yoxa çıxmışdılar deyəsən. Axrıncı dəfə gəlib qıcqırmış şorabalarını, şərablarını elə acıgözlüklə çölə daşıyırdılar ki, zirzəmidə nə vardısa hamısını çölə yığmışdılar. Bir tək ona əl vurmadılar. Nə yaxşı ki, onu götürmədilər.
Və bir gün, həmın gün zirzəmin qapısı yavaşca açıldı. İçəri girən iki oğlan onu qucaqlarına götürüb, doğma yerinə aparıb qoydular.
Yox bunlar köhnə sakinlər deyildi. Amma danışıq səsləri ona o qədər doğma gəlirdi ki… Evin səliqəsi geri dönmüşdü.

– Aha, bu qaraşın oğlan. Ocağı alışdırmağa çalışan qaragöz oğlan. Həmən məktəbli, nə yaman dəyişib, əynindəki nədi belə? Bunlar hamısı eyni geyinib?
Ocağı sevgi ilə qalayıb, əvvəl sobanı, sonra otagı qızdıran əsgərlər yaman sevincli idilər. Hər şeyə sevgiylə, ehtiyyatla toxunurdular.
Əsgərlər ocağın ətrafına yığışıb əvvəl əllərini qızdırdılar, sonra qazan asdılar. Yeməyin gözəl ərti evi bürüdü. Evə qayıdan doğmalıq, ev sahiblərindən 30 ildi ayrı düşən “üşüyən” ocağı isitməyə başladı. Beləcə sönən ocaq illər sonra yenidən alovlanıb, bir evi, bir eli isitdi. Alovun rəqs edə-edə yanıb, şölə saçdığı o işıltı evə gözəl nəşə gətirdi.

## LEYLA YAŞARIN YAZILARI

### GECİKƏN ÜMİD

Külək şəhəri silib süpürürdü. Süpürdüyü tozla yerlə göy arasındakı əlaqəni kəsmişdi. Göz – gözü görmürdü. Eşidilən ugultu qulaq batırırdı. Agaclar küləyin gücündən yıxılmamamaq üçün baş – başa verib inildəyirdilər. Yerə dəyən əşyaların nə oldunu belə aydınlaşdırmaq mümkün deyildi. Gündüzün saatı gecəni xatırladırdı. Göy qaşqabagını sallayıb, susqun qəzəbli baxışlarıyla küləyi izləyirdi. Yerində dinc dayana bilməyən külək buludlarla gizlənqaç oynayırdı.
Küləyin səsi şəhərin sakitliyini pozmuşdu. Ugulduyan külək qəzəbini yer üzündən çıxırdı.
Agaclara verdiyi əmrlə evlərin pəncərələrini döyür, bəzilərini sındırmaga nail olurdu.
Şəhər dünən başlayan, tügyan edən külək üzündən insan nəfəsinə həsrət idi. Hər kəs qapısını bərk – bərk baglayıb, hökümranlıq edən küləyin kəsəcəyi saatı gözləyirdi.
Tində axsaya – axsaya gələn qaraltl göründü. İnsan ya heyvan oldugu bilinmirdi. Sanki küləklə təkbaşına döyüşə çıxan bu canlı küləyə meydan oxuyurdu.
Qalibiyyətini sübut etmək üçün küləyin gücünə qarşı çıxır, yıxılır – durur, yenidən yoluna davam edirdi.
Küləyin artıq taqəti kəsilmək üzərə idi. Son nəfəsini alırdı. Artıq hakimiyyəti qovdugu buludlar ələ almışdı. Şəhərin küləyin ərköyünlüyündən, hikkəsindən yaratdıgı halı onları məyus etmişdi. Çox keçmədiki bu vəziyyət onları aglatmaga başladı.
Budur küləyə qalib gələn qoca, yagışla mübarizəyə başladı. Birtəhər daldanacaq tapıb gizləndi. Başını yuxarı qaldırıb dodagının altında deyindi bir az. Sonra sakitlışib sınıq bir stul tapıb oturdu.
Xəyalların aguşununa atdı özün. İllər öncə doguldugu, tərk etdiyi şəhər. Daha dogrusu tərk etməyə məcbur oldugu

şəhər…
Əlləri əsə – əsə paltarının cibindən əzilmiş, bir az da islanmış siqaret tapdı. Yandırıb tüstüsünə büründü.
Taleyin yükü qəddini əymiş, amma sındıra bilməmişdi. Qəm yükünü illərlə özüylə dostcasına daşıyan bu qoca həyatda qalma səbəbini anlaya bilmirdi. Bədbəxt hadisələrin hədəf nöqtəsi olsa da taleyi onu xilas edə bilmişdi. Dəfələrlə uçurumun kənarından yıxılmaq anında hansısa bir əl onu götürüb kənara qoymuşdu.
Günlərlə küçələrdə ac -susuz qalan bu qoca ölümlə üz – üzə, göz – gözə gəlmiş, gülümsəyib keçmişdi.
Neçə gündür ki ac -susuzdu. Həmdəmi olan xəyal da onu tək qoyub artıq.
Sürünə – sürünə yagışın altına uzandı. Yagışın damcıları üzünə düşdükcə taleyinin üzünə gülümsünür, göy üzünü salamlayırdı.
Yagış bu misgin qocanı ayıltmaq üçün hərdən səngiyir, damlalarıyla ona həyat verməyə çalışırdı.
Qoca gözü göy üzündə ruhunu işıqlandlran günəşi axtardı. Son dəfə onu görmək istəməyən günəşi görmək istədi.
Artıq həyat nəbzinin son ritmini vurdugunu hiss edən qoca ətrafa baxdı. Uzaqda sönük bir parıltınının ona yaxınlaşdıgını gördü. Üzünü çevirib gülümsündü.
– Gecikmisən, dostum!
Qoca son sözünü deyib, gözlərini yumdu.
Gecikən ümid yavaş- yavaş kiçilib sonsuzluga qərq oldu ….



**Əsgər ORDUBADLI**

## DÖRD İLDƏN SONRA

Adım Samiddir. Dörd il idi ki ailəmdən ayrılmışdım. Daha o evdən əlaqəni kəsmiş, hətta yeddi yaşlı qızım Nurayı görmək üçün də getmirdim.
Qızımın mənim yolumu gözləməsini, ata nəfəsinə, ata qayğısına nə qədər çox ehtiyacı olduğunu da unutmuşdum.
Şəhərin mərkəzində ailəmdən uzaq bir yerdə ev kiralamış, tək-tənha orada yaşayırdım.
Evin də bütün işlərini özüm görürdüm. İkinci bir ailə də qurmamışdım, çünki evli olduğumu bilirdim, sadəcə gedib sahib çıxmaq istəmirdim.
Bəlkə də dörd ildən sonra yenidən qayıdıb getməyə utanırdım, yaxud da məni qəbul etməzlər deyə çəkinirdim.
Bir gün əsl möcüzə baş verdi.
Axşam düşürdü. Evə qayıdırdım. Yolun sağ kənarında daşın üstündə balaca bir qız uşağı oturub hönkür-hönkür ağlayırdı. Olardı yeddi – səkkiz yaşı. Balaca əllərini üzünə sıxmışdı. Ona yaxınlaşıb mən də yanında əyləşdim. O sanki bunu hiss etmir, ağlamağına davam edirdi.
Bir az nəvazişlə və bir az da təəccüblə soruşdum:
– Qızım nə olub, niyə ağlayırsan?
O əllərini üzündən çəkdi. Ağlamağını kəssə də dinmədi,

sadəcə dərindən bir ah çəkdi.
Uşağın kədərli olduğu çöhrəsindən duyulurdu. Sanki kimsə onun qəlbini qırmışdı.

Hava olduqca soyuq idi. Külək uğuldayırdı. Uşağın əynində tək sadəcə bir qolsuz köynək və çox sadə bir şalvar olduğunu görüb təəccüblü soruşdum:
-Qızım üşümürsən? Hava çox soyuqdu axı…
Qız titrək səslə dedi:
– Üşüyürəm..
dedim elə isə niyə qalın geyimlər geyməyibsən… xəstələnərsən axı….
Qızcığaz sanki utandı və çəkinə-çəkinə astadan dedi:
– Qalın geyimlərim yoxdu ki….
və başını aşağı salıb dinmədi.
Yenə mən soruşdum
Qızım bərk üşümürsən?
dedi hə..
Əynimdəki pencəyi çıxarıb uşağın çiyninə saldım.
O başını aşağı salıb, əllərini bir-birinə sıxıb durmuşdu.
Adını soruşdum dedi Aytacdır.
Onunla bir xeyli söhbət etdikdən sonra məlum oldu ki, Aytac burada əyləşib həmişəki kimi anasını gözləyir.
Anası Səmayə xanım çörək sexində işləyir və birazdan gələcək, onlar evlərinə gedəcəklər.
Aytac asta səslə onu da əlavə etdi ki həmişə anam evə tez gələrdi, bu gün nəsə bir az yubanıb.
Atasını isə heç tanımır, deyir atam bizi atıb gedib. Hara getdiyini isə bilmirəm.
Aytacın bu sözündən çox məyus olsam da yenə soruşdum:
– Qızım, atan yenidən qayıdıb gəlsə nə edərsən, yenə də onu qəbul edib ata deyərsən, ya yox?
Aytac çox məyus hada

– O qayıdıb gəlməz, – dedi.
– İndi onun başqa arvadı, uşaqları var. O bizi istəməz.. yox qayıtmaz… birdə gəlməz…
O bu sözləri deyərək yenidən ağlamağa başladı.
Ona çox qəlbim yandı, bağrıma basıb gözlərini sildim, pörtülmüş lalə yanaqlarından öpdüm. Dedim ağlama qızım gör nə deyirəm.
– Atan səni çox sevir və haçansa qayıdıb gələcək, amma o elə bilir ki, yenidən qayıdıb gəlsə sən onu çox istəməyəcək, ona ata deməyəcəksən. Elə ona görə gəlmir bəlkə də…
Bu sözü deyərkən uşağın üzünə azacıq da olsa soyuq bir təbəssüm qondu.
O dedi:- Çox istərəm ki atam qayıdıb gəlsin, mənə təzə paltarlar, oyuncaqlar alsın.
Hamı kimi mənim də atam olsun.
Atam olsun ki, heç kim atan səni atıb gedib deməsin və mən də ağlamayım.
Ağlayanda bağrına basıb, gözümü silsin, qızım deyib saçlarımı sığallasın…
Çox istərəm…çox…çox….
Bu zaman Aytacın anası da işdən qayıtdı və qızını da götürüb evlərinə getdilər…
Mənsə o daşın üstündə bir xeyli oturub xəyala daldım.
Axı mən də bir atayam, mənim də yeddi yaşında bir balam var.
İndi mənim də qızım Aytac kimi ata yolu gözləyir bəlkə də…
O da istəyir ki mən onu bağrıma basım, üz gözündən öpüb, saçlarına sığal çəkim. O da istəyir ki, ata nəfəsini hiss etsin.
Daima arxasında duracaq, onun qayğısına qalacaq, hər nazını çəkəcək bir atasının olduğuna inansın.
Bu düşüncələrlə birbaşa evə yollandım.
Həmin o evə.
Dörd ildir tək – tənha qoyub getdiyim ailəmin yanına.
Qapını döydüm. Həyat yoldaşımın çöhrəsindəki gülüşlər, qızımın boynuma sarılıb məni bərk-bərk qucaqlaması…

-Atam, daha səni heç yerə buraxmayacam, sən həmişəlik mənim atam olacaqsan deməsi…
Sanki o evə zülmətdən bir işıq doğdu, elə bil dörd illik həsrətlərinə son qoyuldu o gün.
Mən onlardan üzürxahlıq etdim, onlar da məni bağışladılar və çox şad oldular.
Əllərimi göyə açdım. Rəbbimə şükr etdim:
– Ey ucalardan uca olan Aləmlərin Rəbbi.
nə olaydı ki, kaş bir gün yolda gördüyüm o balaca qızın da atası etdiyi əməldən peşman olub öz ailəsinin yanına qayıdardı.



**Nuranə RAFAİLQIZI**

**Novruz və xoruz**

Kəndə gəzməyə

Gedibdi Novruz.

Səhər o başdan

Banladı xoruz.

* * *

Durub yuxudan

Əynin geyindi.

Dodağı altda

Xeyli deyindi.

* * *

Babasın görcək

Novruz soruşdu:

-Ay baba, xoruz

Nə tez durmuşdu?

* * *

Baba dilləndi:

-Xoruzlar səhər,

Hamını işə,

Gücə səsləyər.

* * *

O banlamasa,

Yatıb qalarıq.

Novruz dilləndi:

-Zəngi qurarıq!

* * *

Xoruz doyunca

Yatmır hamıtək.

Axşam onunla

Danışım gərək!

* * *

Səhərə qədər

Qoy, yatsın rahat!

Sübhə qurarıq

Biz zəngli saat!

**Turalın sualları**

-Ana, söylə bu kimdi?

-De görüm, bəs bu nədi?

-O niyə axı elə?

-Bəs, bu niyə belədi?

* * *

Hər nə görsə, nə tapsa

Hər şeyə verir sual.

Cavabın almayınca,

Dayanmır kiçik Tural.

* * *

Sual doğur sualdan

Ha cavab verir ana,

Düşüb əldən-ayaqdan

Belə söyləyir ona:

* * *

-Oğul bala, hər şeyin

Niyəsi olmur axı!

Kiçik Tural sakitcə

Durub anaya baxır.

* * *

Gedib bir az düşünüb

Yenə gəldi yanına:

-Sonuncu sualımdı

Olar verim, ay ana?

* * *

-De görüm düşündüyün,

Bu dəfə nəyin nəsi?!

-Ay ana, bəs hər şeyin

Niyə olmur niyəsi???

**Cavid və meyvəqurdu**

Səhər-səhər o başdan,

Cavid ağaca çıxdı.

Ən yaxşı meyvələri

Dərib səbətə yığdı.

* * *

Yığdığını həvəslə

Yudu, qoydu süfrəyə.

İstədi dərs oxusun

Meyvədən yeyə-yeyə.

* * *

Hansını götürdüsə,

İçində- meyvəqurdu.

Kiçik Cavid hirslənib,

Qurda belə buyurdu:

* * *

-Hansına əl atıram,

İçindən sən çıxırsan.

Heç nə olmamış kimi,

Düz üzümə baxırsan.

* * *

Meyvələrin hamısın

Yeyəcəksən elə sən?

Bu bağı babam salıb

Mənim üçün, biləsən!

**Nurayın çiçəkləri**
Öz əlləriylə

Əkib dibçəyə.

Həvəslə qulluq

Edir çiçəyə.

* * *

Evə kim gəlir,

Dəstələyib pay.

Verir hamıya

Balaca Nuray.

* * *

Deyir: -Bunlardan

Dünyada təkdi.

Özüm əkmişəm

Ona görə də

belə qəşəngdi!

**Şəbnəmin dişləri**

Qarşıda qaralıbdı

Şəbnəmin iki dişi.

Görən-görən deyir ki,

Dişlərinə qurd düşüb.

* * *

Anası dilə tutur,

Qızını səhər-axşam:

-Bir gün gedək, göstərək

Həkim baxsın, ay balam!

* * *

Axır ki, yola gəlib

Yoxladır dişlərini.

Həkim deyir:- Çıxartsaq,

Tutacaq öz yerini,

* * *

O süd dişidi hələ.

Dişlərini fırçala!

Qoz-fındığı ağızda

Qırmaq olmaz, ay bala!

* * *

Bunu eşidən kimi,

Şəbnəm ayağa durdu:

-Həkim, çəkmə dişimi,

İçindən çıxart qurdu!

**Əli düşür həyətə**

Hər axşam nəyi varsa,

Yığır kiçik səbətə.

Birlikdə oynamaqçün

Əli düşür həyətə.

* * *

Elə ki, bir az keçir

Hay-küy qopur, nə qopur.

Qonşunun bağçasına

Düsüb kiminsə topu.

* * *

Başlayır dava-dalaş:

-Kim yumur gizlənpaçı?

-Kim qırdı əlbəndini?

-Kim uddu qovduqaçı?

* * *

Oyuncağı qırılır,

Gah küsür, gah ağlayır.

Nə qədər hirslənsə də,

Həyətdə oynamaqdan

kiçik Əli doymayır!



**Səma MUĞANNA**

**Doğmayan Günəş…**

Bu sabah ömrümün baharında doğan günəşin qollarından yapışıb
Sənin yolunda qaçıram…

Böyüməyən qəlbim səninlə yenə qəh-qəhə atıb,

Acılarını torpağın dərinliyinə gömüb qaçır…

Bəlkə də acılarından deyil,səninlə olan xatirələrindən qaçır…

Bir sabah yenə oyandığımda doğmayan günəşi görüb,

Torpağa basdırdığım acılarımı geri qaytarmaq üçün çarpışıb vuruşuram…

Qan axıtdığım göz yaşlarım torpağı isladır…

Bəlkə də o torpağa gömdüyüm sənə olan sevgim olub,acılarım deyil?

O zaman haram olsun,yaşadığım illər…

Əgər elədirsə,sən al məndən illərimi ömür parçalarınla birləşdir.

Titrək,dayanmadan döyünən ürəyinə sıxıb qucaqla onları…

Hər dəfə qucaqladıqda məni yada sal,çünki…

Çünki o doğmayan günəşin arxasında gizlənən elə mən özüməm…

Mən sənin gecələrinin dərmanı,sabahlarının isə acısı,dərdiyəm…

O doğmayan günəş də mənəm…

Bir gün yenidən doğulacam…

O gün…

Sən gecənin hökmünü əllərinə aldığın zaman olacaq…

* * *

**Bağlı qapılar…**

Zülmətin qapıları açıqdırsa və mən getməliyəmsə,məni susduran nədir axı?

Niyə mən göz yaşlarıma sahib çıxa bilmirəm?

Niyə mən gizlətdiyim dərdlərimin acısını yaşaya bilmirəm?

Niye mən gözlərimdə yol çəkən illərimi geri gətirə bilmirəm?

Niye axı? Yoxsa..

Yoxsa mən zülmətin qapıları açıq da olsa,yuxusuzluga məhkum olan acılarıml yaşayıb,dərmanı tapılmayan səhərin yalançı təbəssümlə insanların gözünü qamaşdıran günəş olmalıyam?

Demək olmalıymışam…

Demək olmalıymışam ki,səhərləri qəhqəhə ataraq yollandığım küçələr zülmətin hökmü qarşısında aciz qalsın.

Zatən acizdir ki,göz yaşlarım insanların deyil,mənim ölüm fərmanımdır!

Mənim ölüm fərmanımdır,bəli…

Çünki mən göz yaşlarımı zülmətə təslim etməmək üçün hayqıraraq deyil,

içimdə bogub,sonra da yaşadıb

damlaları yavaş-yavaş,aram-aram və heç kəs bilmədən axıtmışam…



**Fəridə ABDUL**

**ATA SEVGİSİ...**

Mən ata kəlməsin yaxşı bilirəm.
Gecələr işləyən günlərin vardı
Evindən uzaq,bir parça halal,
Özün qazandığın çörəyin vardı.
Mən ata sevgisin yaxşı bilirəm
Saçımda sığalnın izləri qalıb
İllər atlansa,mən böyüsəmdə,
İçimdə balaca qızcığaz qalıb.
Kövrəy ürəyi qıymazdı mənə
Qaş qalxsın, əl qalxsın körpə bədənə.
Dedi qoruyaram hər ötən yaddan,
Mən sənə pis rəftar eyləsəm bir an
Fərqim qalarmı başqa yadlardan?
Demədi getmə,demədi etmə.
Dedi:Dəyərin budu,özün bəlirlə
Hara gedilməli,hara da getmə.
Demədi oxuma,yazma,bədbəxt ol
Dedi inanıram,daim xoşbəxt ol.
Ağılın,qürurun olsun hünərin.
İndi bir az qocalıb,
Qırışları çoxalıb.

Qırışları artıqca
Kədərim də çoxalır
Ürəyimə dərindən
Həyat sanki ox salır
Əcəl gəzsin,dolaşsın,
Bircə ona dəyməsin.
Bircə qəddin əyməsin
Qoca dünya atamın.
Qədrin bilsin hər övlad,
Nə qədər var atanın.

**NOYABR**
Xəstə kimi bu ara,
Göz altlarım qaralmış.
Saçlarımsa tam əksi,
Dibdən bir-bir ağarmış.
Ayrılıq oldu yaman
Gözləmirdim bitirək
İstəyirdim biz birgə
Sənlə filmlər, kitablar
Bir qazan qaynar şorba
Birgə ömür bitirək.
Alınmadı canın sağ,
Yolun salamat olsun
Bir gün geri dönəsi,
Mənə salam verəsi,
Olar işdi bir anlıq
Peşman olsan, o anlıq
Məni birdə tanıma.
Keçirmə heç içindən,
O an baxmaq üzümə.
And olsun Yaradana,
Əzbər olan gözlərin

Unudulmuş olacaq
İndi yanan bu ürək
Çoxdan sönmüş olacaq.

**ZƏFƏR DASTANI**
Artıq yaramız deyil,
Anamızdır Qarabağ.
Uğruna can verilən
Yarımızdır Qarabağ.
Torpağında qan axıb
Canlar yatb, kök salıb
İgidimin izləri
Qarabağda itibdir
Əclafların izləri.
Səbrin sonu salamat,
Alındı ki bu torpaq
Ağlamasın bir daha
Övlad deyə hər gecə,
Qanamasın bir daha.
Silinməsin tarixdən
Qəhrəmanlıq dastanı
Yazılsın ağıllara,
İgidlərin dastanı.
Düşmən, danış nağılı
Xeyri yoxdu biləsən
Yazdı bizim oğullar
Yazdı tarix dastanı
Şəhid verdi hər şəhər
Torpağının uğruna.
Tarix də şahid buna
Allah da şahid buna
Qorquddan Koroğluya
Bəşərdi şahid buna
Oğul qayıtdı yurduna

Ana basdı bağrına
Bu dastan gözəl bitdi
30 illik həsrətlər
Sona yetdi,dərd bitdi
Bilən bilir indi ki
Zəfər oldu sonumuz
Hamı bilsin olanı
Dünya duysun bu anı
Biz dəmir yumruq olub
Aldıq bizim olanı.

**SEVGİ ŞEİRİ**
Şirin yuxun olaydım
Ayılmaq istəməzdin
Bəlkə keçmiş qayıtsa
Ayrılmaq istəməzdin.
Kədər olardım gözündə,
Bir daş olar qəlbində
Oturardım ürəyinə.
Bəzən göz yaşn olb,
Axardım ovuclara
Tutmadığım əlləri,
Göz yaşların tutardı.
Hər tində, hər küçədə
Məni görmək ümidi
Səni başdan sarardı.
Qəlbin yaman atardı
Məni atdığın kimi.
Yuxuların qaçardı
Məndən qaçdığın kimi.

**SƏNSİZ ŞƏKİLLƏR**

Hər şey susanda, gözlər danışır
Qəlbimdə buraxdın izlər,danışır
Danışır xatirələr,danışır keçmiş
Kədərlə boynuma sarılır bəzən
Sənsiz çəkdirdiyim bütün şəkillər.
Deyrlər hanı o?niyə təkiy biz
Yanında niyə yox ,tutmur əlini,
Məgər ağladığın o zalım oğlu
Tək çəkir çəkdiyi şəkillərini?
Bütün şəkillərində əsmər görünür
Üzdən xoşbəxtdi,sənə oxşayır
Onun da saçları sən tək boyalı,
Onun da saçları dibdən toxunur.
Bəxti sən deyilsən,daha xoşbəxtdi
Sənin həsrətindən yandığın əclaf
İndi o əsmərin evinə baxtdı.

**ATASIZ QIZ**

Atasız qızların  dərdi çox olur
Onlaran biriyəm,yarımdı canım
Ata sən gedəndən qolum,qanadım
Taqətsiz dizlərim,yaradı canım.
Kövrəyəm nədənsə mən hər görəndə
Ataya sarılan,bir qız görəndə
Boşalır əllərim,qırılır qolum
Deyirəm olmazdı kaş əlim,qolum
Olardı sarılan tək atam mənim.
Olardı sevgisiz  daşdan ürəyi
Bilərdim yaşayır,o nəfəs alır
Kaş daş olan qəbri deyil də
Razıyam olardı daşdan ürəyi
5 yaşım olardi,çox uşaq idim

Dərdi ilmə ilmə qəlbə toxudum
Hər kəs sarılanda,ata deyəndə
Mən  gül gətirdim,dua oxudum.
İndi sevilmişəm,xoşbəxt olmuşam
Hər şeydən tam olsam,5 yaşdan bəri
Ata sevgisindən nakam qalmışam.

**UŞAQLIĞIMLA SÖHBƏT…**
Verələr uşaqlığımı
Tutam isti əlindən,
Apararam keçmişə
Anam layla deyənə,
Atam sığal çəkənə,
Nənəm isti çörəyə
Pendir,yağı çəkənə.
İsti yorğan altından
Saat 5də oyadıb
Məktəbə hazırlayan
Anamın qızıl səsi,
Qulağıma dəyənə.
Atamın ağır əli
Qəzəblənib arabir
Evə gec gəldim deyə
Sillə olub bir anlıq
Yanağıma dəyənə.
Əyiləm ona sarı,
Deyəm qorxma,çəkinmə
Güvəndəsən indicə
Anan,atan  sağdısa
Bu dünyadan,həyatdan

Amandı sən incimə.
Dərd çəkməyə vaxtın bol,
Hələ çat bir əlliyə,
Gör necə ağır həyat
İsti döşəkdən durmaq,
Ağır çanta daşımaq,
Dərd deyil, dərd əsasda
Həyat yükü daşımaq.
Oynamağa adam yox
Geyinməyə paltar yox
Dərd inan, bunlar deyil
Danışmağa adam yox
Güvənməyə insan yox
Bax bunlardı əzablı.
Sən mənə çatan kimi
Bu həyat yollarında
Mən kimi səhv döngələr
Dönmə saqın,ağır get.
Aldanma bir kimsəyə
Dost demə sən hər kəsə
Sıxma hər ötən əli
Baş qoyma yad çiyinə.
Mən istərəm sən olum,
Sən mən olmağa tələsmə.

**QADIN**

Qadın bir az başı dik
Dabanı dik,sözü dik
Əyiləndə qaməti,
Dikələndə boyu dik.
Hər insana deyilməz

Ruhu dərin qadına
Ucuz qiymət verilməz.
Ucuz ruhlar geyinməz
Gərçək qadın adına
Layiq olan xanımlar.
Hər qadın eyni deyil
Hər adam kişi deyil,
Bax eləcə hər qadın,
Hər dikdaban geyinən,
Bir az saçın uzadan,
Əxlaqı dırnağından,
Ətəyi qərarından qısa olan,
Hər qırağ yoldan keçən
Dəyərli qadın deyil.
Necəki namərdi var
Kişinin ağsaqallı
Bəzən bir el çaqqalı
Olduğu kimi, qadının da
Yaxşısı var, pisi var.



**Seymur SÖNMƏZ (PAŞAYEV)**

## BAXTSIZ QADIN

Fələyin oyununda uduzdun taleyini,
Gözündə sevgi öldü, sındı qolun, qanadın,
Sən ətirli gül idin, başa tac olmalıydın,
Ömrün vaxtsız qışında , saralıb-solan qadın!
Baxtsız qadın!
* * *
Bağladı qollarını hansı qanunlar sənin,
Unutdun ,xoşbəxtliyə axı haqqın var sənin,
Utanır gözlərindən bu uzun yollar sənin,
Sığınaraq yaşadın ardına təmiz adın!
Baxtsız qadın!
* * *
Gizlində çatmağın arzuların tükənməz,
Nə çəkmisən , dərdini çəkməyən axı bilməz,
Necə oxşasın səni söz ilə Seymur Sönməz,
Qəlbimi kül eylədi səni yandıran odun,
Baxtsız qadın!

**AXŞAMLAR**
Bəd olub xəyalda,fikirdə nəsə ,
Bənzəyir yad olan qərib bir kəsə ,
Bu həsrət küləyi giribdir bəhsə,
Hər şey üzərimə gəlir axşamlar.
* * *
Şirinin tamı da ağzımda turşdur,
Dediyim kəlmələr yozulur suçdur,
Yarın gözlərində nədənsə boşdur,
Kamantək qəlbimi dəlir axşamlar.
* * *
O,məndən aralı,mən ondan uzaq,
Yolların enişi,yoxuşu sazaq,
Kəm olmuş qismətdən axı nə yazaq?
Mənim taleyimi bilir axşamlar.
* * *
Tam başqa oluram sübh çağı, səhər,
Gündüzlər haqlayır , bürüyür qəhər,
Gəzib dolanıram belə birtəhər,
Çarəsiz halıma gülür axşamlar!
* * *
Sarsılır, tab etmir,əyilir qürur,
Əhvalım dəyişir, rəngim də solur,
Ay zalım balası, həsrətdən Seymur,
Şam təki əriyir ölür axşamlar.!

**ÇAL HƏZİN LAYLANI UYUYUM ANA**
Sənə qurban olum ,yetiş dadıma,
Özün yet haraya,bu imdadıma,
Bir sığal,bir tumar çək saçlarıma,
Atım kədərimi unudum, ana,
Çal həzin laylanı uyuyum ana!
* * *

Sənsiz gün-güzarım ahu- zar keçər,
Gözlər intizarda həsrətin çəkər,
İsti nəfəsində bəsimdi, yetər,
Gəlginən dərdimi ovudum ana
Çal həzin laylanı uyuyum ana !
* * *
Sinəmdə çırpınan qəlbim göynəyir,
Səntəki  dadıma kimsə yetməyir,
Bir anda gözlərim sənsiz gülməyir
Yetiş göz yaşımı qurudum ana !
Çal həzin laylanı uyuyum ana !
* * *
Mən səni gəzirəm aranda, dağda,
Xoş gəlmir, sən yoxsan dərədə, bağda ,
Yeni  qədəm tutub söz anlayanda,
İlk sənin sevgini mən duydum ,ana!
Çal həzin laylanı uyuyum, ana!
* * *
Seymurun gözündə qalan xatirə,
Tək könül sirdaşı olan xatirə,
Həsrətəm müqəddəs olan ətirə,
Gəlim qucağına baş qoyum ,ana!
Çal həzin laylanı,uyuyum ana!



Zaur USTAC

**ZAUR USTAC AZƏRBAYCAN MƏTBUATINDA**
***(24.05.1988 Ağdam – 31.12.2021 Bakı)***
***(Zaur Ustacın 33 illik hesabatı)***

1. "Əməyə məhəbbət", "Lenin yolu qəzeti", 24.05.1988, say: 62 (7194), s.4.
2. "Yaz ətirli sətirlər", "Lenin yolu qəzeti", 06.04.1989, say: 41 (7329), s.3.
3. "Soyuqda qalmışıq", "Lenin yolu qəzeti", 13.01.1990, say: 6 (7446), s.4.
4. "Təzadlı sətirlər", "Lenin yolu qəzeti", 05.04.1990, say: 39 (7479), s.4.
5. "Təbrik" (BABKM-dan məzun olmaq münasibətilə), "Təzadlar", 20-27.07.1999, say: 28 (282), s.8.
6. "Tuncaya" (şeirlər), "Azad qələm", 07-08.2015, say: 8 (111), s.2.
7. "Min Şükür" (Şeirlər), "Yurd" say: 2-3, 2017, s.67.
8. "Qarabağ atı" (Şeirlər), "Yurd" say: 3-4, 2017, s.43-44.
9. "Həqiqət" (Şeirlər), "Yurd" say: 1-2, 2018, s.11.
10. Vətən oğlu" (Şeirlər), "Yurd" say: 5-6, 2019, s.65.
11. "Stereotipləri yox edən adam", "Təzadlar", 04.07.2017, say: 23 (2119), s.14.
12. "Matah çiçək" (şeirlər), "Haqqın sədası", 18.01.2018, say: 1 (291), s.9.

13. “Söz müqəddəsdir” (şeirlər), “Ədalət”, 24.04.2018, say: 71 (5301), s.8.
14. “Bir vətəndaş kimi düşünməliyik – bu gün vətənə nə vermişik…”, “Həftə içi”, 17-19.11.2018. səh. 8.
15. “Bir kitaba yüklənmiş min fikir”, “Təzadlar”, 27.11.2018, say: 41 (2181), s.6-13.
16. “Zaur Ustac xeyriyyə aksiyasına başladı”, “Təzadlar”, 11.12.2018, say: 43 (2183), s.16.
17. “Əliş və Anna kitabı bizi 700 il bundan əvvələ apardı”, “Həftə içi”, 30.01.2019, say: 19 (3067), s.8.
18. “Mübariz-31 layihəsi uğurla davam edir”, “Həftə içi”, 06.02.2019, say: 24 (3072), s.8.
19. “Gəzdim” (şeirlər), “Həftə içi”, 20.02.2019, say: 34 (3082), s.8.
20. “Nəzmi şah və ya Kəmaləddin Qədim”, “Həftə içi”, 12.03.2019, say: 47 (3095), s.8.
21. “Oriyentir ulduzu – Bizi Qarabağa səsləyən kitab”, “Təzadlar”, 19.03.2019, say: 12 (2197), s.14.
22. “Yuxu və ruh”, “Həftə içi”, 28.03.2019, say: 54 (3102), s.8.
23. “Bu belədir” (şeirlər), “Həftə içi”, 04.04.2019, say: 59 (3107), s.8.
24. “Oriyentir ulduzu – Mübarizə layiq povest”, “Təzadlar”, 27.04.2019, say: 21 (2206), s.14.
25. “Dostum” (şeirlər), “Həftə içi”, 02.05.2019, say: 79 (3127), s.8.
26. “Su dünyaya açılan bir pəncərədir”, “Həftə içi”, 03.05.2019, say: 80 (3128), s.8.
27. “Gülünün şeirləri kitabı işıq üzü gördü”, “Həftə içi”, 18-20.05.2019, say: 90 (3138), s.8.
28. “Dünyanın bir rəngi var”, “Həftə içi”, 21.06.2019, say: 110 (3158), s.7.
29. “Dünyanın bir rəngi var”, “Həftə içi”, 25.06.2019, say:112 (3160) s.8.
30. “Hərb Mövzulu yazılar”, “Ədalət”,26.06.2019, say: 113 (5577), s.4.
31. “Hərb Mövzulu yazılar”, “Ədalət”,28.06.2019, say: 114 (5578), s.4.

32. "Köçkün (qaçqın) Olmaq nə deməkdir?!", "Ədalət",23.07.2019, say: 125 (5589), s.6.
33. "Dağlar işıq üzü gördü", "Həftə içi",27-28.08.2019, say: 139 (3187), s.4.
34. "Gülünün şeirləri", "Ədalət",29.08.2019, say: 140 (5604), s.6.
35. "Zaur Ustac dağlar haqqında", "Ədalət",07.09.2019, say: 146 (5610), s.14.
36. "Zaur Ustac dağlar haqqında", "Təzadlar",10.09.2019, say: 42 (2227),s,14,
37. "Bir müəllim tanıyıram", "Təzadlar",01.10.2019, say: 45 (2230), s,13,
38. "Bir Müəllim tanıyıram", "Ədalət",03.10.2019, say: 158 (5622), s,8,
39. "Sehirli kitab", "Həftə içi",7-8.11.2019, say: 170 (3218), s,8,
40. "Gülünün şeirləri-Sehirli kitab", "Ədalət",14.11.2019, say: 176 (5640), s,6,
41. "Sehirli kitab", "Təzadlar",19.11.2019, say: 51 (2236) s.14.
42. "Şair Qələndər Xaçınçaylıya Vintsas mükafatı təqdim edildi", "Həftə içi", 23-25.11.2019, say: 176 (3224) s.7.
43. "Əliş və Anna poemasında əxlaqi-mənəvi dəyərlər", "Ədalət", 26.11.2019, say:181 (5645) s.6.
44. "Əliş və Anna poemasında əxlaqi-mənəvi dəyərlər", "Təzadlar", 03.12.2019, say: 53 (2238) s.13.
45. "Dilarə"(şeir), "Ədalət", 05.12.2019, say: 185 (5649) s.7.
46. "İldırım Əkbəroğlu kitabı işıq üzü gördü", "Həftə içi", 5-6.12.2019, say: 181 (3229) s.7.
47. "Dünya malı, bu dünyada qalandı, Süleymanın hekayətin sal yada", "Ədalət", 16.01.2020, say: 7 (5667) s.7.
48. "Vətənpərvərlik duyğularının bədii ovqatı" (Ustacam), "Telli Sənəm" say: 1, 2020, s. 24.
49. "Vətən oğlu" (Şeirlər), "Azad qələm" say: 1, 2020, s. 41
50. "Güllünün Şeirləri" (Reklam), "Mücrü" say: 1, 2020, s. 37.
51. "Harada ədalət varsa,orda həyat,yaşam var", "Həftə içi",29.02.-02.03.2020, say: 22 (3261) s.8.

52. “Söz bağında öz çiçəyi olan şair”, “Təzadlar”,03.03.2020, say: 9 (2250) s.13.
53. “Zaur Ustac ustacılar haqqında”, “Həftə içi”,19-30.03.2020, say: 29 (3268) s.8.
54. “Ədəbiyyat bağçasında öz çiçəyi olan şair”, “Ədalət”, 30.04.2020, say: 62 (5722) s.5.
55. “Zaur Ustac – qələmdar olmaq missiyası”, “Təzadlar”, 05.05.2020, say: 12 (2253) s.14.
56. “Zaur Ustac – qələmdar olmaq missiyası ”, “Həftə içi”,5-6.05.2020, say: 42 (3280) s.8.
57. “Zaur Ustac – qələmdar olmaq missiyası”, “Ədalət”,16.05.2020, say: 69 (5729) s.14
58. “Əliş bəy Kərəmlinin portreti yaradıldı”, “Həftə içi”,2-3.06.2020, say: 50 (3288) s.8.
59. “Ədəbiyyat bağçasında öz çiçəyi olan şair”,”Həftə içi” 9-10.06.2020, say: 53 (3291) s.8.
60. “Şəhid haqqı”, “Azərbaycan övladı”,12.06.2020. say:23 (2763), s.12.
61. “Şair bəldiyyə sədrindən şikayətçidir”, “Həftə içi”, 25-29.06.2020, say: 59 (3297) s.7.
62. “Şairə zibil atanları kim cəzalandıracaq?!”, “Təzadlar”, 30.06.2020, say: 19 (2260) s.11.
63. “Sözün Xaqanı haqqında söz”, “Ədalət”, 09.07.2020, say: 91 (5751) s.6.
64. “Sözün Xaqanı haqqında söz”, “Kredo”, 09.07.2020, s.6.
65. “Sözün xaqanı haqqında söz”, “Təzadlar”, 14.07.20, say: 21 (2262) s.15.
66. “Yazarlar təltif olundu”, “Ədalət”, 23.07.2020. say: 101 (5761) s.7.
67. “Qələndər Xaçınçaylının diqqətə hetiyacı var”. “Təzadlar”,18.08.2020, say: 26 (2267) s.12
68. “Qələndər Xaçınçaylının diqqət və qayğıya ehtiyacı var”, “Ədalət”,18.08.2020, say: 114 (5774) s.4.
69. “Eynimə Gəldi ki”, “Kredo” , 10.09.2020, say:32 (1012)s.14.

70. "Hasan Çakmak'a Azerbaycan'dan profesörlük ünvanı", "Təzadlar", 29.09.2020, say: 32 (2273) s.11.
71. "Dövrün maarifçi şairi", "Kredo", 01.10.2020, say: 35 (1015) s.10.
72. "Memarlıq irsimizə ehtiram hissilə atılan addımlar", "525-ci qəzet", 03.10.2020, say: 124 (5505) s.23.
73. "Memar Əliş bəy Kərəmli", "Ədalət", 06.10.2020, say: 135 (5795) s.7.
74. "Kremlin memarı Əliş bəy Kərəmli", "Təzadlar", 06.10.2020, say:33 (2274) s.12.
75. "Memar Əliş bəy Kərəmli", " Kredo", 08.10.2020, say: 36 (1016) s.15.
76. "Ulusun ulusu – Turan yolçusu", "Təzadlar", 13.10.2020, say: 34 (2275) s.15.
77. "Zaur Ustac yenilikçi şairdir", "Kredo", 15.10.2020,say: 37(1017) s.12.
78. "Zaur Ustac – qələmdar olmaq missiyası", "Ədəbiyyat Qəzeti", 17.10.2020. say: 46 (5274) s.29.
79. "Ulusun ulusu – Turan yolçusu", "Kredo", 13.11.2020, say: 41 (1021) s.15.
80. "Sənətin seçdiyi adam – şəhid Həmdəm Ağayev", "Təzadlar" qəzeti, 12.01.2021, say: 01 (2286), s.5-14.
81. "Baş redaktordan", "Yazarlar" jurnalı,
82. "Zaur Ustacın uşaq dünyası", "Yazarlar" jurnalı,
83. "Can ay Ana" şeirlər, "525-ci qəzet", 26.01.2021, say: 14 (5580), s.14.
84. "Baş redaktordan", "Yazarlar" jurnalı, say: 01 (01), s.3-5.
85. "Zaur Ustacın uşaq dünyası", "Yazarlar" jurnalı, 01 (01), s.6-31.
86. "Zaur Ustacın uşaq dünyası…", "Kredo" qəzeti, 10.02.2021, say: 06 (1036), s.15.
87. "Qarabağda torpaq islahatları vacibdir, …", "Təzadlar" qəzeti, 16.02.2021, say: 06 (2291), s. 11.
88. "Zaur Ustacın uşaq dünyası…", "Kredo" qəzeti, 17.02.2021, say: 07 (1037), s.15.

89. “Zaur Ustacın uşaq dünyası…”, “Kredo” qəzeti, 24.02.2021, say: 08 (1038), s. 5.
90. “Baş redaktordan – Ustacam”, “Yazarlar” jurnalı, 02 (02), s.3-4.
91. “Zaur Ustacın şeirlərində uşaq obrazları”, “Yazarlar” jurnalı, 02 (02), s.5-20.
92. “Baş redaktordan – Dədə Ələsgərin yaratdığı “Dağlar” obrazı”, “Yazarlar” jurnalı, 03 (03), s.6-17.
93. “Baş redaktorun guşəsi”, “Yazarlar” jurnalı, 04 (04), s.3.
94. “Zaur Ustac – Məşəqqət”, “Yazarlar” jurnalı, 04 (04), s.35 – 39.
95. “Zaur Ustac – Hərb mövzulu yazılar”, “Xəzan” jurnalı N 2 (33) Aprel-May 2021-ci il s.42-44.
96. “Zaur Ustac – Əli bəyin Hərbi Zəngilanına səyahət”, “Xəzan” jurnalı N 2 (33) Aprel-May 2021-ci il s.117-119.
97. “Baş redaktordan”, “Yazarlar” jurnalı, 05 (05), s.3.
98. “Zaur Ustac – Belə bir kitab var – Araz Şəhrilinin kitabı”, “Yazarlar” jurnalı, 05 (05), s.32 – 37.
99. “Zaur Ustacın şeirlərində uşaq obrazları”, “Kredo” qəzeti, 26.05.2021, say: 19 (1049), s. 9.
100. “Qarabağ Azərbaycandır, Azərbaycan isə dünyamız! DƏYƏRLİ ALİM QURBAN BAYRAMOVUN 75 İLLİYİNƏ” Yubiley təbriki, “525-ci qəzet”, 27.05.2021, say: 92 (5658), s.13.
101. “Zaur Ustacın şeirlərində uşaq obrazları”, “Kredo” qəzeti, 02.06.2021, say: 20 (1050), s. 14.
102. “Baş redaktordan”, “Yazarlar” jurnalı, 06 (06), s.3.
103. “Zaur Ustac – Bir kitaba yüklənmiş min fikir”, “Yazarlar” jurnalı, 06 (06), s.22 – 29.
104. “Baş redaktordan”, “Yazarlar” jurnalı, 07 (07), s.3.
105. “Zaur Ustac – Əli bəyin “Hərbi Zəngilan”ına səyahət”, “Yazarlar” jurnalı, 07 (07), s.47 – 56.
106. Zaur Ustac – “Mən eşq atəşiyəm”(Vahid Çəmənlinin 65 yaşına), “Xəzan” jurnalı N 3 (34) İyun-İyul 2021-ci il s.48-49.
107. Zaur Ustac – “Nuranə Rafailqızı sözünün nuru”, “Kredo” qəzeti, 28.07.2021, say: 27 (1057), s.13-16.

108. Zaur Ustac – "Söz mülkümüzün Cənub qütbü", "Bütöv Azərbaycan" qəzeti, 06.08.2021, say: 17 (408), s.8.
109. "Baş redaktordan", "Yazarlar" jurnalı, 08 (08), s.3.
110. Zaur Ustac – "Səma Muğanna – Yeni Günəş", "Həftə içi" qəzeti, 9-15.09.2021, say: 76 (3400), s.7.
111. Zaur Ustac – "Şanlı zəfərimizin memarına ithaf" (şeirlər), "Bütöv Azərbaycan" qəzeti, 10.09.2021, say: 22 (413), s.14.
112. "Baş redaktordan", "Yazarlar" jurnalı, 09 (09), s.3.
113. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Bütöv Azərbaycan" qəzeti, 24.09.2021, say: 24 (415), s.13.
114. Zaur Ustac – "Şeirlər", "Ədəbiyyat qəzeti", 25.09.2021, say: 38 (5324), s.28.
115. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Təzadlar" qəzeti, 28.09.2021, say: 33 (2318), s.14.
116. "Ruhumuzun aşısı "Nəsihətlər" – Zaur Ustac", "Həftə içi" qəzeti, 30.09.2021, say: 79 (3403), s.7.
117. "Baş redaktordan", "Yazarlar" jurnalı, 10 (10), s.3.
118. "Zaur Ustac – Şəhla Babayevanı yaxından tanıyaq", "Yazarlar" jurnalı, 10 (10), s.81 – 88.
119. "O şeiri bir də söylə Ərdoğan" – Zaur Ustac", "Bütöv Azərbaycan" qəzeti, 15.10.2021, say: 27 (418), s.14.
120. "O şeiri bir də söylə Ərdoğan" – Zaur Ustac", "Təzadlar" qəzeti, 19.10.2021, say: 36 (2321), s.15.
121. "Baş redaktordan", "Yazarlar" jurnalı, 11 (11), s.3.
122. "Zaur Ustac – O şeiri bir də söylə, Ərdoğan", "Yazarlar" jurnalı, 11 (11), s.9 – 18.
123. "Zaur Ustac – Şeirlər", "Yazarlar" jurnalı, 11 (11), s.81 – 86.
124. Zaur Ustac – "Şeirlər", "Ədəbiyyat qəzeti", 13.11.2021, say: 45 (5331), s.27.
125. "Tikdim ki, izim qala" – Zaur Ustac", "Təzadlar" qəzeti, 16.11.2021, say: 39 (2324), s.14.
126. Zaur Ustac – "Nuranə Rafailqızı sözünün nuru", "Kredo" qəzeti, 18.11.2021, say: 47 (1077), s.6.

127. “Tikdim ki, izim qala” – Zaur Ustac”, “Bütöv Azərbaycan” qəzeti, 19.11.2021, say: 31 (422),s.12.
128. Zaur Ustac – “Nuranə Rafailqızının sözünün nuru”, “Xəzan” jurnalı N 5 (36) Oktyabr-Noyabr 2021-ci il s.102-105.
129. Zaur Ustac – “Qırmızı yarpaqlı ağac” (hekayə), “Bütöv Azərbaycan” qəzeti, 10.12.2021, say: 34. (425), s.12.
130. “Baş redaktordan”, “Yazarlar” jurnalı, 12 (12), s.3.
131. “Zaur Ustac – Psixoloqun qəbulunda” (hekayə), “Yazarlar” jurnalı, 12 (12), s.7 – 34.
132. “Zaur Ustac – Qırmızı yarpaqlı ağac” (hekayə), “Yazarlar” jurnalı, 12 (12), s.68 – 74.
133. “Zaur Ustac – Əsl hədiyyə” (tərcümə), “Yazarlar” jurnalı, 12 (12), s.88 – 94.
134. Zaur Ustac – “Ömrüm-bir yaşıl yarpaq” (Ayətxan Ziyadın 70 yaşına), “525-ci qəzet”, 14.12.2021, say: 228. (5794), s.14.
135. Zaur Ustac – “Qırmızı yarpaqlı ağac” (hekayə), “Kredo” qəzeti, 16.12.2021, say: 49. (1079), s.7.
136. Zaur Ustac “Ziyadar” diplomunu təqdim edib. “Ədəbiyyat qəzeti” , 18.12.2021, say: 50. (5336), s.31.
137. Zaur Ustac “Nizami” diplomunu təqdim edib. “Bütöv Azərbaycan” qəzeti, 24.12.2021, say: 36. (427), s.10
138. *Davamı 2022-ci il siyahısında.

**Hazırladı: Tuncay ŞƏHRİLİ**





**Ziyadarlar**

**“ZİYADAR” MÜKAFATI LAUREATLARI (2021)**

1. TƏRANƏ ARİFQIZI N: 054 10.02.2021. – NAXÇIVAN.
2. RAMİZ HƏSƏNLİ N: 055 12.02.2021. – BAKI.
3. YAHYA AZEROĞLU N: 056 12.02.2021. – TÜRKİYƏ.
4. ELNUR UĞUR ABDİYEV N:057 16.02.2021. – BAKI.
5. ŞAHİN MUSAOĞLU N: 058 21.02.2021. – BAKI.
6. SIMA AZADQIZI GÖYÇƏLİ N: 059 24.02.2021. – BAKI.
7. SƏLİM ABBASZADƏ N: 060 06.02.2021.-BAKI-OSLO.
8. SVETA BÜNYADOVA N: 061 13.03.2021. – BAKI.
9. ARZU HEYDƏROVA N: 062 13.03.2021. – BAKI.
10. MƏZAHİR İSGƏNDƏR N: 063 13.03.2021. – BAKI.
11. EMFİRA ƏRKLİ N: 064 18.03.2021. – XAÇMAZ.
12. AKİF ƏLİ N: 065 24.03.2021. – BAKI.
13. AYƏTXAN ZİYAD N: 066 25.03.2021. – BAKI.
14. TAHİRƏ İLYASQIZI N: 067 31.03.2021. – BAKI.
15. ELTUN TÜRKEL N: 068 08.04.2021.- BAKI.
16. XANIM İSMAYILQIZI N: 069 10.04.2021. – BAKI.
17. ƏLİ BƏY AZƏRİ N: 070 25.04.2021. – BAKI.
18. MEHRİ AĞDAMLI N: 071 29.04.2021. – BAKI.
19. NAİBƏ YUSİF N: 072 05.05.2021. – BAKI.
20. CEYHUN MƏMMƏDOV N: 073 15.05.2021. – BAKI.
21. TANRIVERDİ ƏLİYEV N: 074 22.05.2021. – BAKI.

22. QURBAN BAYRAMOV N: 075 23.05.2021. – BAKI.
23. KƏNAN BAYRAMOV (ZƏKA) N: 076 07.06.2021. – BAKI.
24. ŞAHNAZ ŞAHİN N: 077 17.06.2021. – BAKI.
25. MUSA ƏLƏKBƏRLİ N: 078 24.06.2021. – BAKI.
26. NƏCİBƏ İLKİN N: 079 21.07.2021. – BAKI.
27. GÜNAY ÜMİD N: 080 25.07.2021. – BAKI.
28. YADİGAR TƏVƏKGÜL N: 081 08.08.2021. – BAKI.
29. ƏFŞAN YUSİFQIZI N: 082 21.08.2021. – BAKI.
30. ƏSGƏR ORDUBADLI N: 083 21.08.2021. – BAKI.
31. İMDAT AVŞAR N: 084 21.08.2021. – BAKI.
32. XƏYALƏ ZƏRRABQIZI N: 085 21.08.2021. – BAKI.
33. NARINGÜL NADİR N: 086 21.08.2021. – BAKI.
34. TƏRANƏ VAHİD N: 087 21.08.2021. – BAKI.
35. AYGÜN YAŞAR CƏFƏROVA N: 088 21.08.2021. – BAKI.
36. ŞƏFA VƏLİ N: 089 21.08.2021. – BAKI.
37. SƏMA MUĞANNA N: 090 24.08.2021. – BAKI.
38. NAZİM ƏHMƏDLİ N: 091 03.10.2021. – BAKI.
39. AQŞİN HACIZADƏ N: 092 04.11.2021. – BAKI.
40. İBRAHİM YUSİFOĞLU N: 093 09.12.2021. – BAKI.
41. ELŞAD BARAT N: 094 09.12.2021. – BAKI.
42. RAMİZ DUYĞUN N: 095 10.12.2021. – BAKI.
43. MƏLAHƏT HÜMMƏTQIZI N: 096 11.12.2021. – BAKI.
44. AZƏR QİSMƏT N: 097 27.12.2021. – BAKI.

**Hazırladı: Tuncay ŞƏHRİLİ**



.

**“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru
yazarlaraz@yandex.ru
Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
“El kitab çapı” mərkəzində çap olunur.
Çapa imzalanıb: 05.01.2022
Sifariş: №: 03
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.


WWW.YAZARLAR.AZ
B.Qurban
A.Akif
C.Kamal
Z.Ayətxan
T.Qismət
M.Səma
R.Nurana
O.Əsgər
Y.Leyla
www.ustac.az
www.bitik.az
www.kitabxana.net
YAZARLAR
Yanvar - 2022
N: 01 (13)